www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23 dekabr 2014-cü il Çərşənbə axşamı № 312 (6021) Qiymıti 40 qəpik

Xəbər

**Əfv siyahısı hazırdır**

yazısı səh.12-də

## Gündəm

**Azərbaycan iqtidarı İsrailə soyuq savaş elan etdi**



Hakimiyyət Qərblə cəbhə xəttini genişləndirir; prezidentin sözçüsü ABŞ-ın Yaxın Şərqdəki əsas müttəfiqi olan yəhudi dövlətini hədəf aldı

yazısı səh.5-də

**YAP "Azərbaycan"ın anti-ABŞ yazısının məsuliyyətini üzərinə götürmədi**

yazısı səh.9-da

**Bu gün bələdiyyə seçkiləridir**

yazısı səh.10-da

**Amerika Azərbaycan hakimiyyətinə sanksiyalar hazırlayır?**

yazısı səh.9-da

**İlahiyyatçı Elşən Mustafaoğlunun həbsi ilə bağlı açıqlama verilmir**

yazısı səh.5-də

**Ermənistana məcburi eniş edən azərbaycanlılarla bağlı ilginc detal**

yazısı səh.12-də

**Yasamal İcra Hakimiyyətində qandonduran olay**

yazısı səh.11-də

**Avropalıların "Khazar İslands"a marağı artır**

yazısı səh.3-də

**Azərbaycanda avtomobillər ucuzlaşır**

yazısı səh.15-də

**İranda facebook fəalı 20 il həbsə məhkum edilib**

yazısı səh.14-də

**Mağazalarda saxta düyülər satılır**

yazısı səh.15-də

**Turizm və Menecment Universiteti yaradıldı**

yazısı səh.2-də

## Cəzaçəkmə müəssisəsinə qoşun yeridilib

# 14-CÜ "ZON"DA DUSTAQ ÖLDÜ, QİYAM QALXDI

Məhbuslardan birinin işgəncə ilə öldürülməsindən sonra məhkumlar ayağa qalxıb; Penitensiar Xidmət olayla bağlı rəsmi məlumat yayıb; bir neçə il əvvəl də bu "zon"da dustaqlar qiyam etmişdi; 3 siyasi dustağa görə əndişə var...

yazısı səh.13-də



# Bakı oliqarxlarının böyük toqquşması başlayıb

Hakimiyyət mənsubları arasında müşahidə edilən gərginlik artıq partlayış həddinə çatmaqdadır; hər kəs savaş baltasını çəkib...

yazısı səh.11-də



*Nüşabə Sadıxlı:*

**"Mən tam fərqli bir Məclis görmək istəyirəm"**

yazısı səh.3-də



*Mehdi Mehdiyev:*

**"İndiyə qədər oğlumla ürəkdolusu söhbət edə bilməmişəm..."**

yazısı səh.6-da



**Pənah Hüseyn müxalifətin yenidən birləşə biləcəyinin anonsunu verdi**

yazısı səh.4-də

# 23 dekabr 2014



# Prezident şəhid ailələrinə 10 milyon manat ayırdı

**Prezidenti İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə əlaqədar Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 10,0 (on) milyon manat vəsait ayrılsın.

# Yeni universitet yaradıldı

**Azərbaycan prezidenti İlham Əliyev Azərbaycan Turizm və Menecment Universitetinin yaradılması haqqında sərəncam imzalayıb. Sərəncamda deyilir ki, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin Turizm İnstitutunun bazasında ali təhsilin bütün pillələrində turizm və menecment sahələri üzrə kadr hazırlığını həyata keçirən Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində Azərbaycan Turizm və Menecment Universiteti yaradılsın.**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə universitetin yaradılması üçün gərəkən işlərin görülməsi tapşırılıb.

# Azərbaycanlı iş adamı 4 milyard itirdi

**ABŞ-ın tətbiq etdiyi sanksiyalar və rublun qiymətinin düşməsi Rusiya biznesmenləri üçün də təsirsiz ötüşmədi. "Qafqazinfo" xəbər verir ki, «Forbes» jurnalı fevralın 12-dən (2014-cü il üzrə Rusiyanın 200 biznesmeninin sərvətinin açıqlandığı tarix) dekabrın 16-na kimi ölkənin ən varlı adamlarının nə qədər sərvət itirdiyini açıqlayıb. Ümumi hesablamaya görə, bu rəqəm 73,4 milyard dollar təşkil edir.**

"Forbes"in açıqlamasına görə, azərbaycanlı iş adamı, "LUKoyl"un prezidenti Vahid Ələkbərov fevrala olan reytinq cədvəlində 200 varlı arasında 13,6 milyard dollar sərvətlə 7-ci yerdə qərar tutub.

Lakin dekabrın 16-na olan nəticəyə görə, iş adamı 4,3 milyard dollar itirib və hazırkı sərvəti 9,3 milyard dollardır.

# Orduda məzuniyyətlərin dayandırılması iddiası...

## Müharibə, yoxsa "Bakı-2015 ilk Avropa Oyunları" hazırlığı?

**Xidmətdə olan hərbi qulluqçulara 2015-ci ilin mart ayına qədər məzuniyyət hüquqlarından istifadə etmələri tövsiyə olunub. Hərbi qulluqçulara bildirlib ki, mart ayından sonrakı 3 ay ərzində bu hüquqlarından istifadə məhdudlaşdırılacaq. Bu xəbərdarlığı müharibə hazırlıqlarına başlanılması kimi dəyərləndirənlər də var.**

Məsələyə aydınlıq gətirmək üçün Müdafiə Naizrliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Xidmətdən belə bir məhdudiyyətin olmadığını bildirdilər. Məhdudlaşdırmanın 2015-in iyununda Bakıda baş tutacaq "Bakı-2015 Avropa Oyunları" ilə əlaqəli olduğu da gələn məlumatlar sırasındadır. Qeyd edək ki, oyunların açılış mərasimi 2015-ci il iyunun 12-də, bağlanış mərasimi isə 28 iyun tarixində keçiriləcək.

❑ E.MƏMMƏDƏLİYEV

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Təhsil Nazirliyi ilə Ali Neft Məktəbi jurnalistlərlə görüş keçirdi

**Dekabrın 22-də Bakı Ali Neft Məktəbində Təhsil Nazirliyinin təşkilatçılığı ilə "Təhsil və media dialoqu" mövzusunda konfransın ikinci paneli keçirilib. Tədbirdə açılış nitqi ilə çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov media nümayəndələrinin, KİV rəhbərlərinin sözügedən ali məktəbdə toplanmalarının əlamətdar hadisə olduğunu bildirib. Rəhbərlik etdiyi ali məktəbin tarixi haqda danışan rektor BANM-in qısa müddətdə əldə etdiyi uğurlardan bəhs edib. E.Qasımov BANM-in yaradılmasında məqsədin yüksək ixtisaslı, müasir biliklərə yiyələnmiş və dünya səviyyəli yerli mütəxəssislərin yetişdirilməsi olduğunu deyib.**

E.Qasımov mətbuatın ARDNŞ-lə bağlı yazdığı bəzi məlumatlara da toxunub: "Mətbuatda, mediada Neft Şirkətində baş verən ixtisarlar barədə tənqidi məlumatlar verilir. Lakin bunun səbəbi var. Öz üzərində işləməyən, yerində "yatan" kadrların Neft Şirkətindən azad olunması bundan sonra da davam edəcək. Məsuliyyətsiz kadrlar kapitalistlərin işini ləngidir nə nəhayətdə ixtisara düşürlər".

BANM-in KİV-lə əməkdaşlığa da xüsusi əhəmiyyət verdiyini bildirən E.Qasımov bu sahədə Ali Məktəbin bütün KİV-lərlə əlaqələrinin genişləndirildiyini deyib. Onun sözlərinə görə, yeni ilin yanvar-fevral aylarında jurnalistlərin təlim keçirilməsi planlaşdırılır. "Jurnalistlər neft barəsində necə və hansı tərzdə yazacaqları barədə mütləq təlim keçməlidirlər" - deyə rektor bildirib.

Sonra Bakı Ali Məktəbi haqqında videoçarx nümayiş olunub.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin İnformasiya şöbəsinin QHT və KİV-lə iş sektorunun mütəxəssisi Samir Paşayevin moderatorluğu ilə "Sosial mediada necə təqdim olunmalı?" mövzusu ətrafında müzakirələr aparılıb. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin RTV kafedrasının müdiri Aynur Kərimova "Sosial media "media"dırmı?", "APA Holdinq"in prezidenti Vüsalə Mahirqızı "onlayn media nə üstündür - tezbazar, yoxsa..." mövzusunda çıxış ediblər.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin İnformasiya şöbəsinin QHT və KİV-lə iş sektorunun müdiri Cəsarət Valehov professor, mətbuat tədqiqatçısı Şirməmməd Hüseynovu prezidentin sərəncamı ilə "Şərəf" ordeni alması münasibətilə tədbir iştirakçıları adından təbrik edərək Təhsil Nazirliyi adından mükafat, Elmar Qasımov isə BANM-in "Fəxri qonaq" diplomunu təqdim edib.






Tədbirin sonunda iştirakçılara BANM tərəfindən hədiyyələr verilib.

❑ Xalidə GƏRAYEVA

# Putin Obamanı Rusiyaya dəvət elədi

**ABŞ prezidenti Barak Obama Rusiyaya dəvət edilib. Musavat.com-un Rusiya informasiya qaynağına istinadən verdiyi xəbərə görə, bu barədə brifinqdə Rusiya prezidenti Vladimir Putinin köməkçisi Yuri Uşakov açıqlama verib.**

Onun sözlərinə görə, Moskva Amerika liderinə faşizm üzərində qələbənin 70 illiyi münasibətilə keçiriləcək tədbirlərə qatılmaq üçün rəsmi dəvət göndərib. "Əlbəttə ki, dəvət göndərmişik" - deyib Kreml rəsmisi.

Ancaq dəvətin Ağ Ev tərəfindən qəbul-edilib edilmədiyi hələlik bəlli deyil. Analitiklər iki ölkə arasında soyuyan münasibətlər fonunda Obamanın Moskvaya səfər edəcəyi ehtimalına skeptik yanaşırlar.

# Ağcabədidə dindarlar aksiyaya hazırlaşırlar

**Ağcabədidə bir qrup dindar aksiya keçirməyə hazırlaşır. Buna səbəb rayonda yüksək səslə azanın verilməsinə qoyulan qadağanın ləğvidir. Bununla bağlı "Yeni Müsavat"a müraciət edən dindarlar yaxın günlərdə məscidin qarşısında aksiya keçirəcəklərini bildiriblər.**

Dindarlar azanın səsgücləndirici ilə verilməsinin dayandırılması barədə məscid rəhbərliyinə tapşırığın rayonun icra başçısı Şahin Məmmədov tərəfindən verildiyini qeyd ediblər. Buna səbəb kimi də 23 dekabr bələdiyyə seçkiləri göstərilir. Belə ki, İcra Hakimiyyətinin verdiyi göstərişdə yüksək səsli azanın "seçkilərlə bağlı Ağcabədiyə gələn qonaqları narahat etdiyi" göstərilib. Dindarlar şikayətlərini yuxarı orqanlara çatdırmaq üçün qəzetimizdən kömək istəyiblər.

❑ Cavanşir ABBASLI

# KİVDF jurnalistləri mükafatlandırdı




**Dekabrın 22-də BMM-də Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərı mükafatlandırıldı.**

Fondun icraçı direktoru Vüqar Səfərli mərasimdə çıxış edərək bildirdi ki, müsabiqə 19 istiqamət əsasında keçirilib. Müsabiqəyə 58 media qurumundan 154 yazı təqdim olunub. Yekunda hər istiqamət üzrə 6 qalib seçilib. Müsabiqədə hər istiqamət üzrə birinci yer üçün 500 manat olmaqla 1, ikinci yer üçün 300 manat olmaqla 2, üçüncü yer üçün 200 manat olmaqla 3 mükafat verilib.

Fondun budəfəki müsabiqəsindən ümumilikdə 114 nəfər jurnalist faydalana bilib. Vüqar Səfərli dövlətin jurnalistlərə qayğısından danışdı.

Mətbuat Şurasının sədri Əflatun Amaşov və "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov isə dünyanın başqa heç bir ölkəsində KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun olmadığını bildirdilər. Bu təcrübənin nümunə olduğundan danışdılar. Eyni zamanda onlar müsabiqəyə təqdim olunan yazıların daha keyfiyyətli olması üçün təkliflərini verdilər. Fondun Müşahidə Şurasının üzvləri Rəşad Məcid, Müşfiq Ələsgərli, Vüqar Rəhimzadə,həmçinin BDU-nun professoru Cahangir Məmmədli, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Aydın Quliyev çıxışlarında jurnalist yazılarının üstün və zəif cəhətlərindən danışdılar. Sonra müsabiqədə iştirak edən jurnalistlər təkliflərini səsləndirdilər. Müzakirələrdən sonra müsabiqədə hər istiqamət üzrə 2-ci və üçüncü yerlərin qaliblərinə diplomlar təqdim edildi.

Birinci yerlərin qalibləri isə KİVDF-nin dekabrın 24-də keçirəcəyi tədbirdə mükafatlandırılacaq. 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı münasibətilə təşkil olunacaq mərasim dekabrın 24-də saat 14:00-da "Altun Saray" restoranında baş tutacaq.

Qeyd edək ki, qaliblər sırasında "Yeni Müsavat"ın redaktoru Zahid Səfəroğlu və müxbiri Etibar Seyidağa da var.

❑ E.AĞAYEV

# Türkiyəyə gedənlər üçün yeni qayda

**Türkiyənin Azərbaycandakı səfirliyi bu ölkəyə səfər etmək istəyən Azərbaycan vətəndaşlarına xəbərdarlıq edib. APA-nın səfirliyin rəsmi saytına istinadən verdiyi məlumata görə, xəbərdarlıq Türkiyədə yeni qəbul olunmuş "Xaricilər və beynəlxalq qoruma qanunu"nun yeni ildən qüvvəyə minməsi ilə əlaqədardır.**

Qeyd olunur ki, 2015-ci ilin 1 yanvar tarixindən etibarən Türkiyəyə getmək istəyən xarici vətəndaşların pasportunun və ya pasportu əvəz edən sənədlərinin etibarlılıq müddəti bu ölkədə qalmaq üçün viza və ya icazə müddəti bitdikdə sonra da 60 gündən az olmamalıdır.

Sənədlərinin etibarlılıq müddəti bu şərtlərə cavab verməyən xarici vətəndaşların Türkiyəyə girişi qadağan olunub.

# Tunisdə də əks-inqilab qalib gəldi

**Tunisdə prezident seçkilərinin nəticələri elan edilib. Musavat.com-un "Reuters"ə istinadən verdiyi xəbərə görə, 88 yaşlı Benci Kaid əs-Sebsi ölkənin yeni prezidenti seçilib. O, səslərin 55,68 faizini toplayıb. Onun əsas rəqibi Monsef Marzukiyə isə seçicilərin 44, 32 faizi etimad göstərib.**

Son seçkilər bşn Əlinin avtoritar idarəçiliyinə son qoyan və "ərəb baharı"nın başlanğıcı rolu oynayan 2011-ci il inqilabından sonra Tunisin demokratiyaya keçidində final addım olub.

Əs-Sebsi - bin Əli administrasiyasının keçmiş əməkdaşıdır. Seçkilərdə o, özünü inqilabi islam hökumətinə qarşı qoymuşdu - hansı hökuməti ki, bir çox vətəndaşlar hakimiyyət dəyişikliyindən sonra mürəkkəbliklərin yaranmasına ittiham edirdi.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

Telefon: (012) 434 93 01, 434 01 33



# Yazarımız Tofiq Yaqubluya Azadlıq!

## Şişmanlığa görə peşmanlıq

### Bu yazını redaksiyamıza Tofiq Yaqublunun vəkili Nemət Kərimli təqdim edib

**Azərbaycanda hüquq mövcud deyil. Bu haqda çox deyilib, çox yazılıb. Bu məsələdə qaranlıq olan bir şey yoxdur, hamıya hər şey gün kimi aydındır. Buna baxmayaraq, həmin məsələ üstündə iqtidarla müxalifətçilər və azad düşüncəli insanlar arasında mübahisə davam edir. İqtidar seçki saxtakarlığı və korrupsiya kimi hüququn olmadığını boynuna almır. Ortada hansısa bir fakt olduğunda dərhal "bəs buna sözün nədir?" deyib iqtidarın nəzərinə çatdırmaq istəyəndə də "korrupsiya dünyanın hər yerində var" kimi cavabla söhbəti fırladırlar.**

Elə hüquq məsələsində də belədir. Hüquqçularımız Avropa İnsan Haqları Məhkəməsinin Azərbaycan məhkəmələrinin çoxlu sayda qərarlarını ləğv etdiyini misal göstərəndə, iqtidar da dərhal AİM-in Böyük Britaniya, Almaniya tipli ölkələr barəsində də analoji qərarlar çıxardığını qabağımıza qoyurlar. Məsələn, bu yaxınlarda PA-nın İctimai-siyasi şöbəsinin rəhbəri Əli Həsənov da analoji sual qarşısında, səhv etmirəmsə, AİM-ın Böyük Britaniyaya qarşı çıxardığı qərarların statistikasını göstərmişdi. İlk baxışdan tutarlı cavabdır. Rəqəmlərə inansaq, belə çıxır ki, Böyük Britaniyada da hüququn vəziyyəti bizimki kimidir, çünki onların məhkəmələrinin qərarları da ləğv edilir. Ancaq məsələ qətiyyən belə deyil və Böyük Britaniyada məhkəmələr tam müstəqildir və hökmləri, ancaq mövcud qanunlara istinad edərək çıxarılır. Elə isə fərqli olan nədir?

AB-da artıq həddən artıq köklük *(şişmanlıq)* əlillik sayılacaq. Boyun ölçüsünə rəğmən müəyyənləşdirilmiş normadan artıq çəki insanların əlil olduğuna dəlalət edəcək. Bu norma bütün AB ölkələri üçün məcburi olacaq. Bəs necə oldu ki, AB belə bir qənaətə gəldi? Deməli, belə. Danimarkada uşaq bağçasında tərbiyəçi işləyən bir qadın çox şişman imiş. Deyilənə görə, onun 160 kq çəkisi olub və bu qadın işlədiyi bağçada əyilib azyaşlı uşaqların ayaqqabısının qaytanını bağlaya bilmirmiş. Nəticədə rəhbərlik onu işdən çıxarıb. Qadın bunu ədalətsizlik sayaraq yerli məhkəməyə müraciət edir. Təbii ki, sifarişlə yox, ancaq mövcud məcəlləyə uyğun qərarlar çıxaran Danimarka məhkəməsi qadının şikayətini təmin etməyib. Çox sadə bir səbəbə görə. Çünki yerli qanunvericilikdə bu hal nəzərə alınmayıb. Həmin qadın, nəhayət, AİM-ə müraciət edir. AİM isə milli məhkəmələrdən fərqli olaraq presedent yaratmaq imkanına malikdir və çox haqlı olaraq həmin qadının Danimarkaya qarşı şikayətini təmin edib. Necə deyərlər, vətəndaşının şişmanlığına görə ölkəni peşman ediblər.

Səhv etmirəmsə, indi danışacağım hadisə Böyük Britaniyanın özündə baş vermişdi. Qapalı yerdə siqaret çəkilməsinin qadağan olunmadığı dönəmdə barda işləmiş ofisiant qadın xərçəng xəstəliyinə tutulur. Müayinələr zamanı məlum olur ki, xanım xərçəngə aşırı siqaret tüstüsündən tutula bilərdi. O, restoran sahibini məhkəməyə verir. İş axırda gedib AİM-ə çıxır və orada Böyük Britaniyaya qarşı qərar çıxarılar.

Biləsiniz ki, AİM-in inkişaf etmiş Avropa ölkələrinə qarşı çıxardığı qərarlar aşağı-yuxarı bu tipli məsələlərdir. Ona görə də AİM-in bu ölkələrə qarşı çıxardığı qərarlar o demək deyil ki, orada da qızıl-qırmızı adamı şərləyib tuturlar. Bu o demək deyil ki, orada da müdafiə tərəfinin alibiləri, dəlilləri, sübutlar, şahidləri və vəsatətləri hakim üçün bir çürük qoz qiymətində də deyil. Bizdə hakimiyyətin qəzəbinə gələrək məhkəməyə çəkilmiş müxalifətçinin günahsız olduğunu sübut edən sənədlər qovluğu nə qədər şişman olursa, hakim hökmdə onu o qədər peşman edir. Əli Həsənovun AİM-in Azərbaycana və böyük Britaniyaya qarşı çıxardığı qərarları eyniləşdirməsi sevincdən və kədərdən axan göz yaşlarını eyniləşdirmək kimi bir şeydir. Ona görə Məmməd Vəlini döyüb ağladırsa, Qədimalı qağam Çeşməgül xalanı sevindirib ağladırsa, onların ikisi də eyni işi görürlər.



# Avropalıların "Khazar İslands"a marağı artır

## Serbiyanın sabiq prezidenti və ispaniyalı diplomat "Xəzər Adaları"nda olublar

**Azərbaycanda səfərdə olan Serbiyanın sabiq prezidenti Boris Tadiç "Avesta Konsern"in həyata keçirdi "Khazar İslands" layihəsi çərçivəsində görülən işlərlə yerində tanış olmaq üçün tikinti işlərinin aparıldığı ərazidə olub.**









2004-2012-ci illərdə Serbiyanın prezidenti olmuş Boris Tadiçi "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli qarşılayıb və hörmətli qonağa başçılıq etdiyi şirkət, onun həyata keçirdiyi layihələr və "Khazar İslands" haqqında geniş məlumat verib. "Khazar İslands" layihəsi haqqında məlumatlı olduğunu, görülən işlərlə şəxsən tanış olmaq üçün tikinti işlərinin həyata keçirildiyi əraziyə baş çəkdiyini deyən sabiq prezident Boris Tadiç görülən işləri yüksək qiymətləndirib. "Khazar İslands" layihəsi ətrafında "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli ilə müzakirələr aparan sabiq prezident Boris Tadiç layihə ilə bağlı öz fikir və təkliflərini səsləndirib. "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli qonağın təkliflərinin maraqlı olduğunu, layihənin həyata keçirilməsi prosesində onlardan istifadə ediləcəyini qeyd edib. Bundan başqa, Serbiyanın sabiq prezidenti Boris Tadiç "Khazar İslands" layihəsinə Serbiyadan olan iş adamlarının qoşulma imkanlarını, tikintidə serb şirkətlərinin iştirak edə biləcəyini də qeyd edib. "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli Serbiyadan olan iş adamları ilə əməkdaşlığa hazır olduqlarını, Azərbaycanla Serbiya arasında münasibətlərin yüksək səviyyədə olmasının buna geniş imkanlar açdığını qeyd edib. Görüş zamanı "Avesta Konsern"in prezidenti Azərbaycanla Serbiya arasında münasibətlərin yüksək səviyyədə olmasında Boris Tadiçin xüsusi rolu olduğunu qeyd edib və onu Azərbaycanın Avropadakı ən yaxın dostlarından biri adlandırıb. Hacı İbrahim Nehrəmli Azərbaycanla Avropa, o cümlədən Serbiya arasında münasibətlərin yüksək səviyyədə olmasında Azərbaycan prezidenti İlham Əliyevin müstəsna xidmətlərinin olduğunu da qeyd edib. "Avesta Konsern"in prezidentinin fikri ilə həmrəy olduğunu qeyd edən Boris Tadiç Azərbaycana çox böyük marağı olduğunu, Serbiya ilə Azərbaycan arasında münasibətlərə xüsusi önəm verdiyini qeyd edib və bundan sonra "Khazar İslands" layihəsinin həyata keçirilməsini də yaxından izləyəcəyini vurğulayıb.

"Avesta Konsern"in nəhəng "Khazar İslands" layihəsinin reallığa çevrilməyə başlaması yerli və xarici iş adamlarının diqqətini cəlb etdiyi kimi, ölkəmizdə mövcud olan səfirlik və diplomatik nümayəndəliklərin də diqqət dairəsindədir. Son iki ayda İsrail, Səudiyyə Ərəbistanı, Rusiya, Yaponiya və Malayziyanın ölkəmizdəki səfirlərinin "Khazar İslands"a səfər edib, görülən işlərlə yerində tanış olmaları da buna sübutdur. İspaniyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Xose Luis Diez də "Khazar İslands"a səfər edib və "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli ilə görüşüb. "Avesta Konsern"in prezidenti hörmətli qonağa rəhbərlik etdiyi şirkət, onun bu günə kimi həyata keçirdiyi layihələr və böyük marağa səbəb olan "Khazar İslands" haqqında geniş məlumat verib. Xose Luis Diez "Avesta Konsern"inin həyata keçirdiyi "Khazar İslands" layihəsi ilə bağlı məlumatlı olduğunu, layihənin həyata keçirilməsi işləri ilə şəxsən tanış olmaq üçün inşaat işlərinin həyata keçirdiyi əraziyə gəldiyini qeyd edib. İspaniyalı diplomat "Khazar İslands"ı möhtəşəm layihə adlandırıb və gənc müstəqil bir dövlətin iş adamının belə böyük layihəyə imza atmasının təqdirəlayiq olduğunu qeyd edib. "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmli "Khazar İslands" layihəsi çərçivəsində bir çox ölkələrdən olan şirkətlərlə əməkdaşlıq etdiklərini, İspaniya şirkətləri də əməkdaşlığa hazır olduğunu bildirib. Xose Luis Diez ölkəsinin iş adamlarının bu layihədə yer almasının arzu edilən olduğunu, iş adamları arasında münasibətlərin dövlətlərimiz və xalqlarımız arasındakı münasibətlərə də müsbət təsir göstərəcəyini qeyd edib və "Avesta Konsern"in prezidenti Hacı İbrahim Nehrəmlini İspaniyaya səfərə dəvət edib.

❑ **Xəbər xidməti**

# "Mən tam fərqli bir Məclis görmək istəyirəm"

## Nüşabə Sadıxlı: " Səs versələr, seçiləcəyəm"

**Dekabrın 27-də Müsavat Məclisinin növbəti toplantısı keçiriləcək. Həmin gün Məclis sədrliyinə və katibliyə, Divana, MNTK-ya, eləcə də sərbəst Məclis üzvlüyünə boş qalmış yerlərə seçkilərin keçirilməsi nəzərdə tutulur.**



Xəbər verdiyimiz kimi, Müsavat Məclisi sədrliyinə iki şəxs namizədliyini irəli sürüb. Bunlar Müsavat başqanının müavini Nüşabə Sadıxlı və Məclis üzvü Sabir Məmmədlidir. Sərbəst Məclis üzvlüyünə 15-ə yaxın partiya fəalı namizədliyini verib.

Bu barədə musavat.com-a partiyanın **Divan üzvü Razim Əmiraslanlı** məlumat verib: "Namizədlərin qeydə alınması prosesi dekabrın 26-sı saat 14:00-a kimi davam edəcək. Bildiyiniz kimi, Məclis sədrliyi və katibliyə, Divan, MNTK, sərbəst Məclis üzvlüyünə boş qalmış yerlərə seçkilər olacaq. İndiyə qədər iki nəfərin Məclis sədrliyinə namizədliyi qeydə alınıb. Sabir Məmmədli və Nüşabə Sadıxlı. 15 nəfərə yaxın sərbəst Məclis üzvlüyünə iddiasını irəli sürüb. Seçki gününə qədər namizədlərin artacağı istisna deyil".

**Məclis sədrliyinə namizədlərdən Nüşabə Sadıxlı qalib gələrsə, atacağı addımlardan danışdı:** "Mən tamamilə fərqli bir Məclis görmək istəyirəm. Komissiyaların işlədiyi, yeni-yeni komissiyaların artırıldığı, təkamül yolu ilə hakimiyyətə gəlməyin yollarını arayan bir Məclis arzusundayam. Platformam haqqında ayrıca bir açıqlamam olacaq. Mən əsasən Müsavat Məclisinin tərkibini həm xanımlardan, həm gənclərdən, həm də yaşlılardan ibarət görmək istəyirəm. Əsasən gənclərə üstünlük verirəm. Bütün zamanlarda yaşlı nəsil cəmiyyətin düşünən beyni, gənclər vuran qolu, qadınlar iradəsi hesab olunur. Seçilib-seçiləcəyəm müsavatçılardan asılıdır. Səs versələr, Allahın izni ilə seçiləcəyəm. Çox iddialıyam. İddiamın yüksək olmasına səbəb indiyə qədər Müsavat Məclisinə və Divanına keçirilən seçkilərdə qalib olmağımdır. Amma seçilməsəm, faciə olmayacaq mənim üçün. Çünki bir daha müsavatçıların mənə olan inamının sınağına gedəcəm".

Məclis sədrliyinə digər namizəd Sabir Məmmədli ilə də əlaqə saxladıq. O, yaxın günlərdə geniş açıqlama verəcəyini söylədi.

Qeyd edək ki, Müsavat Məclisinə 32 , MNTK-ya 3, Divana isə 4 yer boşdur. Məclis sədri avtomatik Divan üzvü sayılacaq.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 312 (6021) 23 dekabr 2014



# İsveçrə möcüzəsi, Mirqədirovun həyat yoldaşı və...

Əli ƏKBƏR

**İsveçrə haqda bildiklərimi, oxuduqlarımı, müşahidələrimi sistemləşdirib yazmaq planım var. Nə vaxtsa mütləq yazacağam. Özü qədər maraqlı ölkə, bir özüdür deyə, bu ölkənin azərbaycanlılar üçün xüsusi təqdimata ehtiyacı var.**

Srağagün bir xəbər oxudum. Diqqətli oxucular da bilirlər ki, məhbus jurnalist Rauf Mirqədirovun həyat yoldaşı İsveçrədən sığınacaq istəmişdi. Lakin o, İsveçrə oturumunu normal, ənənəvi qaydada yox, Sürix məhkəməsinə müraciət edərək almalı olubmuş. Səliqəli şəkildə, «Turan» informasiya agentliyinə ötürülmüş və yayılmış xəbər də bu haqda idi. Sanki bu xəbərin yayılmasını İsveçrə özü istəmişdi. Ah, necə də tanış dəst-xətdir.

Bəs nədən məhkəmə? Rauf Mirqədirovun həyat yoldaşı, körpələri ilə didərgin düşmüş - Türkiyədən də qovulmuş, Azərbaycanda da arzulanmayan - bir qadın, İsveçrədə niyə oturum ala bilməsin ki?

Səbəb siz düşündüyünüzdən də sadədir. Bakıda İsveçrə səfirliyinə sığınan Emin Hüseynov, iki dost və qardaş ölkə olan İsveçrə ilə Azərbaycan arasında münasibətlərin sərinləməsinə səbəb olub. İsveçrə onu səfirlik binasından çölə ata bilmir, bunu özünə sığışdırmır. Amma Azərbaycan hökuməti ilə də münasibətlərini pozmaq istəmir. Bu durumda İsveçrə nə etməlidir?

Rauf Mirqədirovun xanımı kimi, siyasi sığınacağa ehtiyacı olan insanlara "neqativ" cavab verməli və məsələnin məhkəmə üzərindən həllini onlara məsləhət görməlidir. Əlbəttə, məhkəmə də dərhal oturum haqqını tanıyan qərar çıxarır.

Beləliklə, İsveçrə hökuməti Azərbaycan hökumətinə mesaj ötürür: "Biz əlimizdən gələni etdik. Yox cavabı verdik. Sizinlə dostluğumuza sadiq qaldıq. Biznesimiz, pullarınız bizim üçün çox dəyərlidir. Lakin məhkəmələrimizə sözümüz keçmir, onlar müstəqildir. Keçin günahımızdan, oturumu biz yox, məhkəmə verib. Əfvinizə sığınırıq" filan.

İsveçrə əjdahadır. Dünyanın bir nömrəli oyunçusudur. Pul bu dövlətin hər şeyidir. Mən bəzən bu ölkədə kilsələrin varlığına təəccüb edirəm. Onların yerinə pul məbədləri inşa edilməli və möminlər pula rəsmən sitayiş etməlidirlər. İznizlə fikrimi əsaslandırım.

1940-cı ildə, İsveçrə özünün siyasi kursunu "Avropada yeni oyun qaydalarına adaptasiya" üstündə qurur. Elə belə də adlandırır, təsəvvür edirsiniz? Bu, bilirsiniz nə deməkdir? O deməkdir ki, neytral İsveçrə, Hitler Almaniyasına xammal, təchizat, silah, sursat, elektrik satacaq. Satır da. İsveçrənin dəmir yollarında alman və italyan quru yükləri daşınır. İsveçrə görəndə ki, Hitler uduzur, ABŞ və SSRİ ilə əlaqələr qurmağa başlayır. Qırx beşinci ildə Almaniyaya hərbi yükləri daşımağı dayandırır və alman aktivlərini banklarda dondurur.

1942-ci ildə sərhədləri tam bağladığını elan edir. Ölkə boydan boya tikanlı məftillə hasarlanır. Amma o vaxt artıq, Almaniyadan qaçmış yüzə yaxın sovet hərbi əsiri vardı İsveçrədə. Andelfingendə düşərgədə yaşayırdılar. Müharibənin sonlarına doğru artıq İsveçrədə on mindən artıq sovet əsgər və zabiti vardı. Əsgərləri yol tikintisi və kənd təsərrüfatında işlədirdilər. Hamısı da mütləq tibbi yoxlanışdan keçirdilər. Zabitlər isə hotellərdə, pansionatlarda qalırdılar.

Təsəvvür edin ki, müharibədən sonra İsveçrə SSRİ-yə ödəniş tapşırığı göndərir və hər birindən, ən son qəpiyə qədər, İsveçrəyə sığınmış əsirlərə xərclənən pulları geri alır. Hətta İsveçrədə ölən əsirlərin qəbir daşları üçün xərclənən pulları da. SSRİ-nin Qırmızı xaçından bütün xərclədiyi pulları geri alan yeganə dövlətdir İsveçrə. Bütün kurortlar, mehmanxanalar, pansionatlar müharibəyə görə onsuz da boş qalmışdılar. Amma İsveçrə, hotellərdə, kurortlarda yatırdığı adamların hamısına görə də Moskvadan pul alır.

İsveçrə həmişə, hər bir situasiyadan qalibiyyətlə və qazancla çıxmağı bacarıb. Ona görə mən bu ölkəyə heyranam.

Neytral İsveçrənin Stalinə təhvil verdiyi əsgər və zabitlərin on bir min nəfəri Sibirdə öldülər, ya da güllələndilər. Xeyli əsgər və zabit isə geri qayıtmamaqdan ötrü intihar etməli oldu.

Böyük və gözəl dövlətdir. Böyüklüyü ərazisi ilə ölçülmür əlbəttə. Nə ilə ölçüldüyünü artıq yazmışam.

**Azərbaycanda müxalifət düşərgəsində pərakəndəlik, düşərgənin əsas komponentləri olan Müsavat, AXCP kimi təşkilatlar arasında gərginlik qalmaqda davam edir. Ekspertlər hesab edir ki, 2015-ci il parlament seçkilərinə az qaldığı bir vaxtda demokratik düşərgə arasında inteqrasiya meyllərinin olmaması, yeni birliklər istiqamətində konkret addımların atılmaması bütövlükdə müxalifətin zərərinə işləyir.**

# Pənah Hüseyn müxalifətin yenidən birləşə biləcəyinin anonsunu verdi

## AXP lideri hesab edir ki, hər bir müxalifət təşkilatı doğru hesab elədiyi addımları atmalıdır və bir qədər cəsarətli olmaq lazımdır: "2015-ci ilin parlament seçkiləri ilə əlaqədar müxalifətin konsolidasiyasının getməsi ehtimalı böyükdür"

Qeyd edək ki, əvvəlki illərdə də bu cür hallar müşahidə olunub. Lakin belə situasiyalarda demokratik düşərgənin bir sıra ideoloqları önə çıxıb toparlayıcı təkliflər irəli sürürdülər və birlik yaradılması üçün addımlar atıb, buna nail olurdular. Bu işdə aktivliyi ilə adətən Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn seçilib. Bəs Pənah Hüseynin yaxın dövrlərdə yenidən hansısa birlik təşəbbüsləri irəli sürmək və demokratik düşərgənin əsas qüvvələrinin bir araya gəlməsi üçün addımlar atmaq niyyəti varmı?

**Bu sualla müraciət etdiyimiz Pənah Hüseyn** bildirdi ki, zaman-zaman demokratik düşərgənin bir araya gəlməsi və yeni birliklər formalaşması məsələsini konkret fərdlərin təşəbbüsü ilə bağlamağı o qədər də düzgün saymır. Çünki adətən sosial sifariş olduqda birlik prosesi gedir və birliklər reallaşır. Az və ya çox dərəcədə belə bir sosial sifariş həmişə mövcuddur: "Konkret olaraq indiki situasiyada da müəyyən işlərin getdiyini, əgər diqqətlə baxılsa, görmək mümkündür. Bu, həm 2015-ci il parlament seçkisi ilə bağlı ideyalarda, həm iqtidar-müxalifət münasibətləri ilə bağlı polemikalarda, həm konkret, məsələn, bir həftə öncə bir qrup siyasi partiyanın Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovla görüşü ilə əlaqədar polemikalarda özünü göstərdi və göstərməkdə davam edir. Daha konkret danışsaq, mən hesab edirəm ki, müxalifətin 2015-ci il parlament seçkilərinə münasibətlə əlaqədar konsolidasiyasının getməsi ehtimalı böyükdür. Bunu ən ümumi kontekstdə bu seçkiyə gedənlərin ittifaqı, ümumi koalisiyası kimi təsəvvür eləmək mümkündür. Bunu seçki bloku və ya siyasi bloklarla qarışdırmaq lazım deyil. Mənə elə gəlir ki, 2015-ci ilin əvvəllərindən biz, hər halda, müəyyən proseslərin şahidi olacağıq. Bunun ideoloji, siyasi platforması demək olar ki, müəyyənləşib. Bu, siyasi məhbus probleminə olan münasibət, ölkədə seçki situasiyası ilə bağlı ümumi baxışlar ola bilər. Burada geosiyasi komponentin hansı rol oynayacağını indidən demək çətindir. Amma tamamilə mümkündür ki, müəyyən situasiyada hətta geosiyasi meyllər, məsələn, Avropa Birliyi ilə münasibətlər məsələsi də ciddi şəkildə burda rol oynamağa başlasın. O halda, doğrudur, bu koalisiyanın, ittifaqın sərhədləri xeyli darala bilər, amma təkrar edirəm, bu, ümumi siyasi situasiyanın inkişafından asılı olacaq. Əgər diqqətlə baxsanız müəyyən təşəbbüslərin, hətta müəyyən fəaliyyətlərin olduğunu görmək mümkündür. Bunların hansı dərəcədə, hansı istiqamətdə istifadə ediləcəyi isə yəqin yaxın müddətdə aydın olacaq".



**P.Hüseynə görə, bu bir reallıqdır ki, hələ də müxalifətin birliyi məsələsində Müsavat-AXCP münasibətləri əlahiddə yer tutur. Hazırda bu partiyalar arasında münasibətlər bəlkə də özünün ən pis dövrünü yaşayır:** «Lakin hər halda, bəzi yeni əlamətləri görməmək mümkün deyil. "Azadlıq" qəzeti Müsavat başqanı Arif Hacılının açıqlamalarını verməyə başlayıb. Yada salsaq ki, Müsavat Partiyasının qurultayından sonra bəzi AXCP funksionerləri siyasi etikanın bütün qaydalarının ziddinə qurultayın və onun qərarlarının, onun "legitimliyi" məsələsini hallandırmağa cəhd etmişdilər. Bu, heç də sıradan məsələ sayılmaya bilər. Müsavatın yeni başqanı da ardıcıl olaraq AXCP ilə əməkdaşlıq bəyanatları səsləndirir və müzakirələrə hazır olduğunu bildirir. Nəzərə alınsa ki, Müsavat - AXCP münasibətlərinin gərginləşməsində həm AXCP, həm Müsavat daxilində əsas "təqsirkar" olaraq Arif Hacılını təqdim etməyə çalışırlar, o halda bu da maraqlı gəlişmələr vəd edir. Hər halda, bu məsələdə top AXCP sahəsinə ötürülüb. Son dövrdə AXCP- nin ritorikasında da, dramatik olmasa da, müəyyən dəyişikliklər müşahidə olunur. Əli Həsənovla bir qrup siyasi partiyanın görüşü ilə bağlı polemikada ənənəvi yanaşmanın qorunub saxlanması görünsə də "hakimiyyətlə dialoqun" özündən daha artıq onun formatının tənqidi qabardıldı. Eyni zamanda açıq-aşkar sezilir ki, AXCP -nin ən ehtiyat etdiyi məsələlərdən biri Müsavat da daxil olmaqla, müxalifətin bir hissəsinin iqtidarla "sövdələşmə" ehtimalıdır və görünür ki, AXCP bu "sövdələşməni" istəmir. Odur ki, AXCP-Müsavat münasibətlərində istiləşmənin yalnız nəzəri məsələ olmadığını qəbul etmək doğru olardı. Şübhəsiz, burda Milli Şura problemi var. AXCP Milli Şurada nə qədər üstün mövqeyə malik olsa da, bu həm də onun manevr imkanlarını azaldır və əl-qolunu bağlayır. Aydındır ki, Müsavat yenidən Milli Şuraya qayıtmayacaq. O halda bu problem nə şəkildə həll ediləcək, ciddi sual kimi qalır. Lakin unutmayaq ki, "demokrasidə çarə tükənməz". Həm də daxili münasibətlərindən asılı olmayaraq geosiyasi meyllərinə görə yaxın qüvvələrin - vətəndaş cəmiyyəti təşkilatlarının ciddi zərbə aldıqdan sonra bu müvafiq siyasi partiyalar ibarətdir - yaxınlaşmasında qüdrətli güclərin marağını bura əlavə etsək, maraqlı proseslərin gedə biləcəyini qeydə ala bilərik. Aydındır ki, real həyat daha zəngin və hesaba alınması çətin olan şeydir və çox halda gözlənilənlərdən fərqli nəticələr meydana gətirir.

Sosial-siyasi proseslər elədir ki, özü də yaxın dövrdə baş verəcək gedişatları proqnozlaşdırmaq olduqca çətindir. Hər bir müxalifət təşkilatı doğru hesab elədiyi addımları atmalıdır və bir qədər də cəsarətli olmaq lazımdır".

❑ Etibar SEYİDAĞA

# Aqil Səmədbəylidən Məhəmməd Hatəmiyə etiraz

## "Elçibəylə bağlı Hatəmi bəyə xatırlatmaq istəyirəm ki..."

**Milli azadlıq hərəkatının tanınmış nümayəndələrindən biri, Milli Qurtuluş Partiyasının sabiq lideri Məhəmməd Hatəminin "Yeni Müsavat" qəzetinin 20 dekabr 2014-cü sayına verdiyi müsahibəsi fərqli reaksiyalar doğurub. Tanınmış ictimai-siyasi xadim Aqil Səmədbəyli müsahibədəki bəzi fikirlərə etirazını bildirib və onu facebookda yayıb.**

Öncədən qeyd edək ki, M.Hatəmi ilə müsahibəyə imkan yaratmaqla heç də tarixdə kiminsə zəhmətini, tarixi xidmətlərini azaltmaq niyyətində olmamışıq. Sadəcə, hərəkatda öz yeri olan, ahıl yaşlı, həm də əksəriyyətin canlı əfsanə kimi qəbul etdiyi Hatəminin fikirlərinin bir qismini olduğu kimi dərc etməklə sadəcə tərəfsiz olduğumuzu nümayiş etdirmişik. Yeri gəlmişkən, M.Hatəminin əməkdaşımıza dediklərinin hələ "dörddə birini" yazmamışıq, əgər yazsaydıq, necə deyərlər, "yer yerindən oynayar"dı.

**Dəyərli A.Səmədbəyli isə yazır:** "Millətimiz üçün əməyi keçən hər kəsin, xüsusilə yaşlıların yada salınması, onlardan müsahibələrin alınması təqdirəlayiq hadisədir. Ancaq yaxın tariximizin, həm də bizim içində olduğumuz hərəkatın tarixinin bəzi adamların dilindən saxtalaşdırılmasına şərait yaratmaq heç də yaxşı hərəkət deyil. M.Hatəmiyə milli-azadlıq hərəkatındakı əməyinə görə təşəkkür edirik. Ancaq bəzi məsələləri qarışdırır - bunu da yaşlanması ilə əlaqələndirirəm. Məsələn, M.Hatəmi deyir ki, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ideyası Heydər Əliyevə məxsus idi. 31 dekabrı seçməklə həm azərbaycanlıların bayram etməsini istədi, həm də 1 yanvarda rus yeni il qeyd etdiyi üçün əks-reaksiyanın olmayacağını düşünmüşdü". (Burda xoruzun quyruğu göründü)".

**A.Səmədbəyli ardınca həmin tarixi hadisə barədə bunları bildirib:** "Bu, ağ yalandır - ona görə ki, AXC İdarə Heyətinin üzvlərinin əksəriyyəti həyatdadır və onlar yaxşı xatırlayırlar ki, sərhədlərin məhz 31 dekabr 1989-cu ildə sökülməsi məsələsi AXC İdarə Heyətində müzakirə edilmiş, lakin qərar qəbul edilməmişdir. Bu məsələ ilə bağlı məsuliyyəti öz üzərinə götürən Əbülfəz Elçibəy məhz 31 dekabrda sərhədlərin sökülməsinə qərar vermişdi. M.Hatəmi bəyə xatırladıram ki, həmin dövrdə H.Əliyev ümumiyyətlə Azərbaycanda deyildi, Moskvadaydı. 31 dekabrı da təsadüfən seçməmişdi Bəy.



Həm 31 dekabrı milli bayramla əvəz etmək, həm də həmin gün rus zabitlərinin istisnasız olaraq yeyib-içməkdə olacağına görə sərhədə nəzarətin zəif olacağı səbəbi ilə məhz bu günü seçmişdi Böyük Bəy!"

**A. Səmədbəyli bildirir:** "M.Hatəmi bəy bu müsahibəsində deyir ki, "məni sıradan çıxardıb Neməti yerimə keçirdilər. Sonra da Əbülfəzi, Etibarı ortaya çıxartdılar". Nemətlə bağlı yalnız "Allah qapısını açsın" deyə bilərəm. Ə.Elçibəylə bağlı isə Hatəmi bəyə xatırlatmaq istəyirəm ki, siz 1988-1989-dan danışır və "Elçibəyi ortaya çıxartdılar" deyəndə yəqin yaşlı olmanızdan qaynaqlanan bir əskiklik olmalıdır ki, hələ 1975-ci ildə Bəy tələbələr arasında milliyyətçilik və antisovet təbliğatına görə "KQB" tərəfindən həbs olunduğunu unudubsunuz?! Bir az da geriyə gedək: hələ 1963-1964-cü ildə Əbülfəz bəy Misirdə tərcüməçi kimi işlədiyi dövrdə SSRİ-nin sədri (bu ifadə mənə aiddir) Xruşov Misirə rəsmi səfəri sırasında Əbülfəz bəy Xruşova əl uzatmaqdan imtina etmişdi. Sizcə, bu hadisədə Əbülfəz bəyi kim və ya kimlər ortaya çıxartmışdı?!"

**A.Səmədbəyli M.Hatəmiyə xitab edib:** "Cənab M.Hatəmi! Bir də sizə təvazökarlıqdan uzaq olsa da, bir şey demək istəyirəm - bu mənim araşdırmalarımın nəticəsidir: Lider anadan olanda Lider doğulur, sonradan Liderlik qazanılmır - bu da dünya sosioloqlarının uzun sürən araşdırmalarından sonra gəldikləri qənaətdir! Hələ gəncliyimdən sizi yaxından tanıma imkanım olub - hətta məşhur yanvarın 19-nu 20-nə bağlayan gecə Prezident Aparatının qabağında siz tribunadaydınız, mənsə aşağıda-Xalqın arasındaydım. Sizin haqqınızda deyilənləri - yeni sizin haraya bağlı olduğunuz haqda deyilənləri xalq fərziyyəsi hesab edirdim..."

❑ Hazırladı: E.PAŞASOY

## Hakimiyyət Qərblə cəbhə xəttini genişləndirir

**"İsrail mediası Azərbaycanda insan haqlarının durumunu sərt tənqid edir. İsraildə hökumət-media münasibətlərini nəzərə alaraq bildirmək olar ki, bu, heç də təsadüfi deyil. Xüsusilə rəsmi strukturların bu cür yazılarla bağlı bir dəfə də reaksiya verməməsi yazıların rəsmi sifariş xarakterli olduğunu deməyə əsas yaradır". Bu sözləri "AzərTAc"a açıqlamasında prezidentin mətbuat katibi Azər Qasımov deyib.**



# Azərbaycan iqtidarı İsraillə soyuq savaş elan etdi

### Prezidentin mətbuat xidmətinin rəhbəri ABŞ-ın Yaxın Şərqdəki əsas müttəfiqi olan yəhudi dövlətini hədəf aldı; İsrail mətbuatının insan haqları mövzusunda tənqidi yazıları rəsmi Bakının sərt təpkisi ilə qarşılandı; politoloq Zəfər Quliyev isə hökumətin bu addımını riskli davranış sayır

İsrailin "Haaretz" və "Jerusalem Post" qəzetlərində Azərbaycanla bağlı dərc edilən məqalələrdən danışan Azər Qasımov yazıları olduqca qərəzli, jurnalist etikasından tamamilə uzaq, böhtan xarakterli cəfəngiyyat adlandırıb: "Heç şübhəsiz, bu cür yazılar son zamanlar anti-Azərbaycan kampaniyası aparan qüvvələr tərəfindən maliyyələşdirilir. Xədicə İsmayılovanın hüquqlarını guya müdafiə etmək məqsədi daşıyan bu məqalələr, əslində Azərbaycanda gedən ümumi inkişaf proseslərinə qara yaxır. Yaxşı olardı ki, bu məqalələrin müəllifləri öz ölkələrində insan haqları, söz və vicdan azadlığı, ümumilikdə demokratik prinsiplərin pozulması və digər mənfi hallara diqqət yetirsinlər".

Bu fikirlərin ardından Azər Qasımov son aylarda İsraildə mediaya qarşı basqılarla bağlı konkret faktları sadalayıb.

***

Azərbaycan iqtidarının İsraillə həmişə yaxşı münasibətləri olub. Rəsmi Bakı yəhudi dövləti ilə təkcə yaxşı münasibətlər saxlamayıb, həm də münasibətlərdə maksimum ehtiyatlı mövqe tutub. Zaman-zaman İsrail kəşfiyyatı MOSSAD-la Azərbaycan xüsusi-xidmət orqanlarının birgə əməkdaşlığı haqda xəbərlər dolaşıb. Hətta bəzi dövrlərdə iki ölkə xüsusi-xidmətinin ortaq əməliyyatının keçirildiyinə dair də mediada informasiyalar yayılıb. İsrail Azərbaycan iqtidarının toxunmadığı azsaylı ölkələrdəndir. Hazırkı anti-Qərb ritorikası heç zaman İsrailə aid edilməyib. Son illər YAP hakimiyyətinin ABŞ-a qarşı apardığı əks-təbliğat kampaniyasında Amerikanın Yaxın Şərqdəki forpostu, ən yaxın müttəfiqi İsrail toxunulmaz elan edilib. İsrail Azərbaycan neftinin ən iri alıcılarından biridir. O, neftə olan tələbatının 30 faizini Bakı nefti hesabına ödəyir. İsrail həmçinin Azərbaycandan böyük həcmdə neft məhsulları idxal edir. İsrail Azərbaycan qazını almağa da maraq göstərir. Qeyri-neft sektoru üzrə də bu iki ölkə arasında ciddi ticarət əlaqələri mövcuddur.

Amma heç kimin gözləmədiyi halda rəsmi Bakı İsrailə özünün boz sifətini göstərdi. Nə baş verir? Niyə Azərbaycan prezidentinin mətbuat xidmətinin rəhbərinin dilindən İsrailə qarşı sərt sözlər ünvanlandı? Prezident Administrasiyasından Təl-Əvivə qarşı soyuq müharibənin elan edilməsində hansı ciddi amillər rol oynaya bilər?

Bu suallara cavab tapmaq, pisləşən Azərbaycan-İsrail münasibətlərinin nə ilə yekunlaşacağını öyrənmək üçün politoloq Zəfər Quliyevlə söhbət etdik.

"İsrail heç zaman insan haqları məsələsində nümunəvi ölkə olmayıb. İsrail əslində militarist bir qurumdur. Heç şübhə etmirəm ki, İsraildə insan haqları pozuntuları ilə bağlı ciddi faktlar var. Ancaq Azərbaycan rəsmilərinin bu cür sərt ritorikası olduqca riskli davranış modelidir. Bu tənqidləri hansısa dövlətin rəsmi şəxsləri deyil, beynəlxalq insan haqlarını müdafiə qurumları səsləndirməlidir. Azərbaycan kimi gənc və kiçik ölkə üçün İsraildə, ABŞ-da nöqsanlar axtarmaq yaxşı heç nə vəd etmir". Bu sözləri isə prezidentin mətbuat katibinin açıqlamasını "Yeni Müsavat"a şərh edən politoloq Zəfər Quliyev deyir.

**Politoloq düşünür ki, Azərbaycanın Qərbə qarşı aqressiv davranışlarında Moskva-Bakı və Moskva-Ankara yaxınlaşmasının da rolu var:** "Sanki Azərbaycan iqtidarı öz ritorikasında da, davranışlarında da Rusiyanı təkrarlamağa çalışır. Moskva ABŞ-a, Qərbə qarşı nə deyirsə, həmin arqumentlər, ittihamlar qısa zaman sonra Azərbaycan məmurlarının dilindən də səslənir. Təəssüf və narahatlıq doğuran məqam həm də odur ki, son zamanlar Türkiyə ilə Rusiyanın yaxınlaşması bu ölkələrin proseslərə baxışında və davranışında oxşarlıqları artırıb. Azərbaycan Qərbə yönəlik siyasətində nə Rusiyanı, nə də Türkiyəni təkrarlamamalıdır. Ona görə ki, Azərbaycanın çəkisi fərqlidir. Türkiyə oturuşmuş bir ölkədir, böyük siyasi, hərbi, iqtisadi potensialı var. Türkiyə müəyyən məqamlarda bu cür itkilərə gedirsə öz potensialı hesabına onların yerini tezliklə doldura bilir. Üstəlik, NATO üzvü olan Türkiyənin Qərblə münasibətlərində riskləri o qədər də böyük deyil. Türkiyə Qərblə körpüləri heç zaman yandırmaz. Rusiya isə nüvə ölkəsidir, iqtisadi problemlər yaşamasına baxmayaraq qüdrətini qoruyur. Yaxın keçmişdə Rusiyanın dəqiq manevrlər hesabına Qərblə münasibətləri normallaşdıra bilməsilə bağlı bir neçə örnək var. Azərbaycan üçün isə Qərbə savaş açmaq bir neçə önəmli məqama görə böyük təhlükə daşıyır. Azərbaycan ərazisi işğal edilib, hələlik geosiyasi seçimini açıqlamayıb, bir çox məsələlərdə xarici faktorlardan asılı durumdadır. Bu səbəbdən Azərbaycanın Qərbə qarşı bu cür aqressiyası qətiyyən başa düşülən deyil".

**Qərb liderləri Azərbaycanı dəfələrlə Avropanın enerji təhlükəsizliyi üçün önəmli ölkə olduğunu bildiriblər. Politoloq bildirir ki, Azərbaycan özünü enerji potensialına həddən artıq güvənir və bu səbəbdən baş verənləri düzgün dəyərləndirə bilmir:** "Azərbaycan enerji məsələsində önəmini həddən artıq şişirdir. Görünür, iqtidara elə gəlir ki, Rusiya ilə Avropa arasında təbii qazın ixracı ilə bağlı gərginlik yaranması Azərbaycanın önəmini artırıb. Azərbaycanın bu cür arxayınlığına Qərb liderlərinin mövqeyi də təsirsiz deyil. Sentyabrda təbii qazı Avropaya daşıyacaq cənub dəhlizi məsələsi müzakirə edilərkən Avropa Komissiyasının sədri Joze Manuel Barrozo demişdi ki, Azərbaycan heç zaman Qərbə bu qədər yaxın, doğma və önəmli bir ölkə olmayıb. Görünür, bu cür açıqlamalar rəsmi Bakının eyforiyaya düşməsinə səbəb olub və düşünürlər ki, hansı mövqe tutmalarından asılı olmayaraq dünya üçün, Avropa üçün vacib ölkə olaraq qalacaqlar. Ancaq bu, son dərəcə yanlış mövqedir. Azərbaycan-Qərb münasibətlərinin gərginləşməsinin kökündə dayanan məsələ insan haqları problemlərindəki durum yox, rəsmi Bakının Kremlə yaxınlaşması, Kremlin siyasi xəttini təkrarlamasıdır. Bunun üçün də yetərində əsaslar var".

**Zəfər Quliyevin fikrincə, Azərbaycanın bu cür yanaşmaları sanksiyaların tətbiqi prosesinə təkan verə bilər:** "Bu gün Qərblə Rusiya arasında faktiki soyuq savaş bərpa olunub. Belə bir şəraitdə Azərbaycan öz neytrallığını qorumalı, tərəf olmamalıdır. Burada emosional amilin təsirini də unutmaq olmaz. İndiyə qədər bir neçə dəfə Azərbaycan rəsmi şəxslərinin Qərbin addımlarına emosional münasibətinin şahidi olmuşuq. Rəsmilər bəzən özlərini əsəbiləşmiş, incimiş tərəf kimi aparırlar. İndi də ola bilər, Azərbaycan hakimiyyəti Qərbə göstərmək istəyir ki, bu cür aqressiv davranışın səbəbi Qərbin addımlarıdır. Ancaq bir daha deyirəm ki, bu sözlərin rəsmilərin dilindən səslənməsi doğru qərar deyil. İndiyə qədər bu fikirləri YAP liderləri, iqtidara yaxın mediada politoloqlar, deputatlar səsləndirirdi. Qərb bu yanaşmaya xeyli dözümlü yanaşır. Ancaq son zamanlar Qərbin tənqidlərinə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev xüsusi məqalə ilə cavab verir, Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənov, prezidentin mətbuat katibi Azər Qasımov münasibət bildirir. Bu şəxslər dövləti təmsil etdiyi üçün səslənən fikirlər dövlətin mövqeyi kimi qəbul olunur. İndi artıq Qafqaz Müsəlmanları Ruhani İdarəsinin rəhbəri Hacı Allahşükür Paşazadə də Qərbi tənqid edir. Həm dövlət rəsmilərinin, həm dini rəhbərin Qərbi sərt ifadələrlə tənqid etməsi Azərbaycana problemlər yarada bilər. Doğrudur, ABŞ-ın Azərbaycanla münasibətləri pozmaqda, ya da ölkəmizə qarşı sanksiyalar tətbiq etməkdə maraqlı olduğunu düşünmürəm. Ancaq bu cür davranış davam edəcəksə, Rusiya ilə yaxınlaşma artıq daha dərin xarakter alacaqsa, sanksiyalar gündəmə gələ bilər".

**Politoloq Qabil Hüseynli isə hesab edir ki, indiki vaxtda ABŞ-ın Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edəcəyi inandırıcı deyil. Çünki ABŞ regionda bu qədər gərginliyin, problemlərinin olduğu vaxtda işi-işə qatmaz:** "Ən azından bu saat ABŞ-ın başı Rusiya ilə bağlı, İŞİD-lə bağlı problemlərə qarışıb. Belə bir şəraitdə regionun mühüm dövlətlərindən biri olan Azərbaycanla münasibətləri kökündən korlayacaq addım atmaq, müxtəlif sanksiya qanunlarını Azərbaycan siyasi elitasına tətbiq yerinə düşməzdi. Heç bunun əsası da olmazdı".

**Politoloqun fikrincə, Amerika Azərbaycanla münasibətləri düzəldəcək. Bu münasibətlərin düzəlməsi üçün lazım olan nə varsa hamısı ediləcək.**

❑ **Aygün MURADXANLI**

# İlahiyyatçının həbsi ilə bağlı hər hansı açıqlama verilmir

### Ötən həftə həbs olunan ilahiyyatçı Elşən Mustafaoğlu ilə bağlı MTN, ilahiyyatçının ailəsi, vəkili və Şeyx susur, bir qrup ilahiyyatçı Şeyxə müraciət edərək, ondan kömək istəyib



Elşən Mustafaoğlu

**Qəzetimizin ötən sayında tanınmış ilahiyyatçı Elşən Mustafaoğlunun həbsi ilə bağlı məlumat vermişdik. Məlumatda qeyd olunur ki, ötən həftə MTN-də 3 gün saxlanılan ilahiyyatçının barəsində Səbayel Rayon Məhkəməsi tərəfindən 4 aylıq həbs-qətimkan tədbiri seçilib.**

Hələlik ilahiyyatçının hansı maddə ilə ittiham olunduğu rəsmi məlum deyil. Həftənin ilk iş günündə E.Mustafaoğlunun həbsi ilə bağlı rəsmi məlumatın yayılacağı gözlənilsə də, dünən hər hansı açıqlama olmadı.

Qeyd edək ki, Elşən Mustafaoğlu ictimaiyyətdə kifayət qədər tanınmış, nüfuzlu ilahiyyatçı olub, Elmlər Akademiyasında çalışıb və uzun müddət İTV və ANS telekanallarında veriliş aparıcısı olub. Son iki ildə Norveçdə elmi araşdırmalarda çalışan E.Mustafaoğlu ilin əvvəlində ölkəyə qayıdıb. Bir neçə aydır ki, QMİ-də işə götürülən Elşən Mustafaoğlunun qəflətən həbs olunması və gələn məlumatlara görə, barəsində ağır maddə hesab olunan Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə ittiham olunaraq barəsində həbs-qətimkan tədbirinin seçilməsi müəmmalara səbəb olub.

Ötən gün E.Mustafaoğlunun saxlanılması ilə bağlı bəzi təfərrüatlar məlum olub. Əldə etdiyimiz məlumata görə, ötən həftənin əvvəllərində Elşən Mustafaoğlu MTN-ə dəvət olunub. Lakin ilahiyyatçı dindirilmədə saxlanılıb və 3 gündən sonra onu Səbayel Məhkəməsinə çıxararaq barəsində ittiham elan ediblər. E.Mustafaoğlunun vəkili olmayıb, prosesdə onu dövlət orqanlarının təyin etdiyi Könül adlı vəkil müdafiə edib. Ötən gün vəkillə danışmağa çalışsaq da, bu mümkün olmadı. Bildirildi ki, vəkil E.Mustafaoğlunun yaxınlarına hazırda işlə tanış olduğunu və əlavə heç nə deyə bilməyəcəyini bildirib. Eyni zamanda ailəsi mətbuatda Elşən Mustafaoğlu haqda yazılardan narahat olduğunu bildirir və onun həbsinin hansısa anlaşılmazlıqlar üzündən baş verdiyini, yaxın günlərdə azad ediləcəyinə inandıqlarını bildiriblər.

Qeyd edək ki, E.Mustafaoğlu son bir neçə ay ərzində QMİ-də işləyib və bu səbəbdən də dini idarənin öz əməkdaşının həbsinə münasibət bildirəcəyi gözlənilsə də, dünən bu da baş vermədi. İdarənin mətbuat katibi Rəhimə Dadaşova əvvəlcə tədbirdə olduğunu və çıxdıqdan sonra əlaqə saxlayacağını bildirsə də, sonradan telefonlarını söndürdüyü üçün onunla ümumiyyətlə, əlaqə saxlamaq mümkün olmadı. Görünür ki, Şeyx MTN-in rəsmi bəyanatı elan olunmamışdan əvvəl hadisəyə münasibət bildirmək istəmir.

Qeyd edək ki, ötən gün İranın Qum şəhərində təhsil alan bir qrup tələbə QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadəyə müraciət edib. Müraciətdə ilahiyyatçı tələbələrin Elşən Mustafaoğlunun həbsindən narahat olduğu və QMİ sədrindən onun azadlığa çıxmasına yardım etməsi xahiş olunur.

"Cənab Allahşükür Paşazadə! Biz, Elm hövzəsinin bir qrup tələbələri ictimai xadim, ilahiyyatçı-alim, fəlsəfə elmləri doktoru Elşən Mustafaoğlunun barəsində yayılan naməlum xəbərlərə görə dərin narahatlıq hissi keçiririk. Xatırladırıq ki, dr. Elşən Mustafaoğlunun bütün ictimai fəaliyyəti uzun illərdir xalqımızın gözü önündədir. Mənəviyyat adamı olan Elşən Mustafaoğlunun xalqımızın İslam əxlaqına və milli dəyərlərə yiyələnməsində, ölkədə dini zəmində sabitliyin yaranmasında və qorunmasında əməyi danılmazdır. Xalqına, millətinə olan dərin sevgisi və məhəbbəti onun uzun illərdən bəri işıq üzü görən məqalələrində, çıxışlarında və dərc olunan kitablarında açıq şəkildə öz əksini tapır. Nəinki ölkəmizdə, hətta ölkəmizdən kənarda da böyük hörmətə malik olan dr. Elşən Mustafaoğlu bu etibar və məhəbbəti öz səmimiyyəti və dərin zəkası hesabına əldə etmişdir. Bu və digər müsbət keyfiyyətləri ardı-arası kəsilmədən sadalamaq olar. Sonda, Sizdən xahiş edirik ki, Elşən Mustafaoğlunun sərbəst buraxılmasına yardım edəsiniz. Uca Allahdan bu işdə Sizə uğurlar arzu edirik!"

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 312 (6021) 23 dekabr 2014

**Azərbaycan milli-azadlıq hərəkatında olanlar, Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti illərini xatırlayanlar Mehdi bəyi yaxşı tanıyır. Tanımayanlar isə gözlərinin önündə bitməz-tükənməz enerjisi ilə daim hərəkətdə olan, milli məsələ söhbət mövzusu oldumu, ən qaynar, ən təhlükəli yerlərdə olmağı özünə borc bilən, başından saysız qəzalar, bəlalar, macəralar keçən bir şəxsi gətirsin.**





# "Axtardığımı tapacam"

## Mehdi Mehdiyev: "İndiyə qədər oğlumla ürəkdolusu söhbət edə bilməmişəm..."

*O, kimlər üçünsə tələbə hərəkatının lideri, kimlər üçünsə Qarabağ könüllülərinin öncülü, kiminçünsə bələdiyyə polisinin rəisidir. Bugünündən nə özü, nə dostları məmnundur. Gözləri el üçün ağlayıb kor olan gözlərin yanındadır. Tükənməyən bircə ümidi, gümanı, millətin öz dəyərlərinə, torpağına, milli kimliyinə sahib çıxacağı düşüncəsidir. "İnsan öz dilinin altında yatır", deyiminə inanıb tanıdığımız Mehdi Mehdiyevi bir də öz dilindən eşidək.*

***- Mehdi bəy, sizi tanıyandan qaçaraq görürük. Gah şəhərdə, gah hava limanında, gah dost məclisində qarşılaşırıq, həmişə də qərarsızsız, tələskənsiz. Hara qaçırsız, nə axtarırsız?***

- Bir az eləyəm. Axtarıram. Yəqin axtardığımı tapanda dayanacam. Mənimki pozitiv axtarışlardır. Əminəm ki, tam olmasa da müəyyən mənada nəticələr olacaq.

***- Oğlunuz neçə yaşındadı?***

- Altayın 15 yaşı olacaq. Pis oğlan deyil, vətənpərvərdi. Özüm kimi arıq, uzun oğlandı.

***- Dostsunuzmu oğlunuzla? Sizin ona danışacağınız çox şeylər var. Söhbətiniz tutur?***

- Açığı, həyat elə gətirib ki, biz onunla az təmasda olmuşuq. Oğlum 2000-ci ildə doğulub, mən 2003-cü il oktyabrın 16-dan 2006-cı il sentyabrın 12-nə qədər axtarışda olmuşam - 2 il 11 ay. Altayın 3 yaşından 6 yaşına qədər ailəmlə 2-3 dəfə görüşə bildik. Ardınca 1 il həbsxanada yatdım. Ondan sonra Bakıda kirayələrə məhkum olduq. 2011-ci il aprelin 17-dən bu günə qədər də yenə az təmasda oluruq. Mən Bakıda oluram-olmuram, kəndə gedirəm, ya ümumiyyətlə Azərbaycanda olmuram. Mənzil problemimizə görə bir yerə yığışa bilmirik. Siyasi həbslərdən sonra məni Azərbaycanda elə böyük və qorxunc düşmən elan ediblər ki, bir işin qulpundan yapışıb ailəmi bir araya toplamağım müşkülə dönüb. Hətta kirayə qaldığım evlərin sahiblərini də incidirlər. Bax bu səbəblərə görə də Altayla hələ ürək dolusu söhbət edə bilməmişik.

***- Siz 88-ci ildən hərəkata qoşulmusunuz. Sizi hərəkata gətirən, qığılcım rolunu oynayan nə oldu?***

- İrəvan Politexnik İnstitutunda oxumuşam. Biz 3-cü kursda oxuyanda münaqişə başladı. Bakıda oxuyan erməniləri Ermənistan qəbul etdi, yerləşdirdi, hətta köçmək üçün kompensasiya da verdi. Bizi isə Azərbaycan Təhsil Nazirliyi qəbul eləmədi. Faktiki olaraq bizə yiyə durmadılar. Sonradan min çətinliklə o zamankı Politexnik İnstitutuna bərpa elədilər. Bakıda "Çənlibel" adlı dərnək yaradıldığını eşitdim, az sonra onlara qoşuldum, institutdakı milli düşüncəli dostlarımı da ardımca ora apardım. Meydan hərəkatı başlayanda biz öndə olduq, Qarabağda döyüşdük. İrəvanda oxuyanda mən ermənilərin bizə qarşı necə kin bəslədiyini dəfələrlə görmüşdüm. Qarabağ problemi Qarabağdan başlamayıb ki... 88-də yaşananlar artıq türklərin Ermənistandan üçüncü deportasiyası idi. Baş verənləri görüb kənarda sakit dayanmaq, seyrçi olmaq mümkün deyildi. Bir vətəndaş kimi, bir tələbə kimi, ən sonda da millətini sevən dəliqanlı kimi mən orda olmalıydım. Sentyabrın 2-də instituta bərpa olundum; noyabrda artıq "politexnikdə" tələbə hərəkatı yaratmışdım. Biz institutun çayxanasına yığışırdıq, ora böyük bir samovar gətirmişdim. Digər institutların tələbələrindən də bizə qoşulanlar vardı. Ab-hava, tələbələrin baxışları indikindən çox fərqli idi. Milli düşüncə insanlara hakimi idi.

***- Batalyon yaratmaq ideyası necə yarandı?***

- Ermənilər ruslardan aldıqları silahlarla kəndlərə basqın edirdilər. Bakıda bu xəbərləri eşitmək və məsələyə müdaxilə etməmək mümkün deyildi. Biz o zamankı Azərbaycan Dövlət Universitetinin tələbələri ilə bir yerdə batalyon yaratmaq qərarına gəldik. O zaman artıq universitetin batalyonu var idi, onlar Qubadlının, Laçının kəndlərini qoruyurdular. Əli Kərimli *(o zaman Kərimov idi)*, Qorxmaz İbrahimli, Kərim Kərimov və mən batalyon yaradılmasına təşkilatçılıq elədik, qısa zamanda xeyli tələbə toplandı, getdik Zəngilana. Yüzlərlə tələbə bizə dəstək verirdi. Bu işdə əsl ziyalılar olan fədakar müəllimlərimizin rolu da çox böyük oldu. Oqtay Qasımov, Kərim Kərimov, Etibar Cəfərov və digər dostlardan ibarət 33 nəfərlik dəstə yaratmışdıq.



**"Məni indiki gündə bədgüman olmağa qoymayan bir məsələ var - Qarabağ məsələsində Azərbaycan cəmiyyətində parçalanma yoxdur və proseslər göstərir ki, yuxarıdan bir göstəriş olsa, işğal olunan torpaqları azad etmək üçün minlərlə insan yenə səfərbər olar. Millət hələ təpərini itirməyib - bu, çox vacibdir"**



**"Rus zabitlərindən silahı pulla alırdıq. Bu məsələnin maliyyə tərəfini təşkil edən İsgəndər Həmidov idi"**

***- Silahı necə tapırdız?***

- Zəngilana gedəndə 3 ov tüfəngimiz var idi. Politexnik İnstitutunda bir dekan vardı - rəhmətlik Vilayət müəllim. Çox vətənpərvər insan idi. O məni çağırdı, ov tüfəngi üçün 16 patron verdi. Kimin nəyə gücü çatırdı, əsirgəmirdi. İnstitutun həmkarlar təşkilatının rəhbəri Zahid müəllim döyüşçülərə bir maşın ərzaq göndərmişdi. Qənimət Zahidin vasitəsilə Becan Fərzəliyevlə tanış olmuşdum, ona dedim ki, bizə uzunboğaz çəkmə lazımdır. Dedi ola bilər, Dram Teatrında, səhnə geyimlərinin içində ola, gedək Turabovun yanına. Onda Həsən Turabov Dövlət Dram Teatrının direktoru idi. Həsən müəllim bizə xeyli rəqqas çəkməsi tapdı, amma biz dedik ki, bunlar bizim işimizə yaramaz, nazikdirlər. Həsən müəllim sürücüsünü çağırıb dedi ki, get mənim evdə geymədiyim təzə bir çəkməm var, onu gətir. O çəkmə 2 il ayağımdan çıxmadı. Ayaqqabının adı da elə "Turabovun saposhkiləri" idi... Hərdən fikirləşirəm, o zamankı tələbə hərəkatını nə ilə müqayisə etmək olar, sonra qərara gəlirəm ki, heç nə ilə. Bilirsiz, qızlı-oğlanlı bütün tələbələr, müəllimlər, rektorluq, universitetlərin texniki heyətləri hər kəs ümumi iş üçün nələrsə etməyə çalışırdı. Hətta hökuməti qıcıqlandırmamaq üçün bəzən sərt davrananlar belə əslində üzdə özlərini elə göstərirdilər, sonda bütün qərarlar ümumi mənafeyə uyğun verilirdi. Çox təəssüf, Azərbaycan cəmiyyəti çox parçalanıb. Bir zaman bir yerdə, çiyin-çiyinə olan insanlar bir-birinə düşmən kəsilib. Ancaq məni indiki gündə bədgüman olmağa qoymayan bir məsələ var - Qarabağ məsələsində Azərbaycan cəmiyyətində parçalanma yoxdur və proseslər göstərir ki, yuxarıdan bir göstəriş olsa, işğal olunan torpaqları azad etmək üçün minlərlə insan yenə səfərbər olar. Millət hələ təpərini itirməyib - bu çox vacibdir. O gün kənddən Bakıya gələndə yol boyu düşünürdüm ki, hansı dəyərləri bugünə gətirib çıxara bilmişik. Gördüm elə saxlaya bildiyimiz, içimizdə qalan ancaq torpaq sevgisidir.

***- Mehdi bəy, dostlarınızdan eşitmişəm, indiki Şəhidlər Xiyabanının "təmizlənməsində" də sizin rolunuz olub.***

- Ora Dağüstü Park idi, gənclərin görüş yeri idi. 20 Yanvar şəhidlərinin 40-ı hələ çıxmamışdı, ordaydım, gördüm 2 yaşlı qadın yanlarında da bir kiçik uşaq gəlir. Çox ağlamışdılar, üz-gözləri şiş idi. Qadınlardan biri yana baxıb başını buladı və yenə ağlamağa başladı. O baxan səmtə baxanda gördüm bir qızla bir oğlan oturub. Şəhidlər dəfn edilən yerdən bir qədər aşağıda idilər. Onların yanına gələndə gördüm daha bir neçə cütlük var. Qayıtdım politexnikə, 7-8 tələbə götürdüm, döndüm xiyabana. Yaxınlaşdıq, oradakı 19 cütlüyə kiminə xoş, kiminə zor başa saldıq ki, bura artıq şəhidlər uyuyan müqəddəs məkandır, görüş yeri deyil. 2-3 dəfə də reyd keçirdik, ondan sonra daha gələn olmadı.

***- Rəhmətlik Əbülfəz Elçibəyin mühafizəsində də olmusuz, deyəsən...***

- Bəli, mən, Gəncə qiyamında həlak olan rəhmətlik Tahir Məmmədov, o cümlədən Paşa Mərdanov, Oqtay Qasımov Bəyin yanında idik. AXCP-nin "Sovetski"dəki qərargahına hücum olanda bizim hamımızı həbs etmişdilər. O zaman bizi həbsdən Tamerlan Qarayevgil çıxardılar. Tamerlan bəy onda Ali Sovetin deputatı idi. Əbülfəz bəy başından yaralanmışdı. O, evində müalicə olunurdu, bizi çağırıb dedi ki, İsa Qəmbərin yanında olun. Rəhmətlik Tahirlə, bir də Basqallı Əmirağa ilə 3 aydan çox İsa bəyin mühafizəsini təşkil etmişik.

***- Mehdi bəy, siz həm də AXC hakimiyyətində daxili işlər naziri olan İsgəndər Həmidova yaxınlığınızla tanınırsız. Bu yaxınlıq necə başladı?***

- Mən institutu bitirəndən sonra artıq AXC-də strukturlaşma gedirdi. Qarabağ və sərhəd məsələləri üzrə sədr müavini İsgəndər bəy idi. Xüsusi şöbə yaradılmışdı, mən də həmin şöbədə idim. Bütün günümüz döyüş bölgəsinin ehtiyaclarını ödəməyə sərf olunurdu. Silahdan ərzağa, geyimə qədər çalışırdıq ki, ön cəbhənin əsgərinin ehtiyacı olanı tapaq göndərək.

***- Artıq o zaman sovet qoşunları Azərbaycandan çıxırdı. Siz hərbi hissələrdən silah əldə edə bilirdizmi?***

- Döyüşə - döyüşə ordu formalaşdırmaq son dərəcə çətin məsələdir. Silah əldə etmək üçün daha nə planlar qurmurduq... Donanmada hərbçilərlə danışıqlar aparırdıq, bütün rayonlardakı hərbi hissələri, poliqonları gəzirdik. Bir dəfə Kürdəmirdə hərbi təyyarədən çıxarılan pulemyotu 130 minə almışdım. Rus zabitlərindən silahı pulla alırdıq. Bu məsələnin maliyyə tərəfini təşkil edən İsgəndər Həmidov idi. Dəfələrlə olub ki, İsgəndər bəy toplanan pulları mənə verib, gətirib əlbəəl vermişəm AXC-nin mühasibinə... İndi çox yüksək vəzifədə olan bir imkanlı kəlbəcərliyə dedim ki, silah üçün pul ver, öz kəndin Ağdaban təhlükədədir, 1 qəpik də vermədi. İndi milyonlara sahibdir. Mən heç inanmıram ki, onlar torpaq təəssübü çəkir. Çəkən torpaq təhlükədə olanda bacardığını edərdi. AXC-nin həmin strukturunda 15 milyon 734 minlik silah almışdıq. Hardan nə qədər pul tapırdıq, hamısını silaha verirdik. O puldan heç kim 1 qəpik götürüb şəxsi işlərinə xərcləyə bilməzdi, heç çörək də ala bilməzdi. Onda 7-8 nəfər "Xəzər" univermağının yanında yaşayırdıq. Həm kompakt olurduq, həm də kirayə pulu aramızda bölünürdü. Bir dəfə evə üstümdə 840 min manatla gəldim. Evdə yemək yox idi, amma heç birimizin ağlından da keçmirdi ki, o puldan 5 manat götürək ərzağa verək. Gördüm yemək yoxdu, qayıtdım Qara Qarayevə *(o zaman "Avrora" metrosu adlanırdı)* dostum Əfruzgildə badımcan yedim, təzədən qayıtdım evə. Zəhləm gedir badımcandan, ancaq o pula toxunmaq olmazdı... Biz belə yaşamışıq. İsgəndər bəy haqqında çox şayiələr yaydılar. Ancaq onun haqqını bu millət itirməməlidir. Bu gün kimsə bizi kasıb görə bilər, ancaq biz çox pullar görmüşük. Sadəcə, millətin puluna göz dikməyi, əl uzatmağı ağlımızın ucundan keçirməmişik, bunu kişilikdən saymamışıq.

***- AXC hakimiyyəti illərində siz bələdiyyə polisinin rəisi təyin edildiz. Cəbhə bölgəsi üçün aktiv işləyən biri kimi Bakıda qalmağa necə razı sala bildilər sizi?***

*(ardı gələn sayımızda)*

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 312 (6021) 23 dekabr 2014

# Ümid sədri toplantı keçirdi

**Dekabrın 22-də Ümid Partiyasının Mərkəzi Qərargahında partiya sədri, millət vəkili İqbal Ağazadənin sədrliyi, bələdiyyə seçkilərində partiyanın səlahiyyətli nümayəndələrinin iştirakı ilə toplantı keçirildi. Toplantıda namizədlərin qeydiyyatında yaranan problemlər, qeydiyyata alınmış namizədlər, təbliğat kampaniyasında görülən işlər, seçki günü görüləcək işlər müzakirə olundu və iş bölgüsü aparıldı. Partiya sədri funksionerlərə və səlahiyyətli nümayəndələrə tapşırıq və tövsiyələr verdi.**












**Seçkilər müasir demokratik cəmiyyətin əsas göstəricisi, demokratiyanın bərqərar olmasının mühüm formasıdır. Xalq hakimiyyətinin təmin edilməsi seçkilər nəticəsində ortaya çıxır. Seçkilər hakimiyyətin xalq etimadını və müdafiəsini əldə etməsinin ən təsirli və sınanmış vasitəsidir. Seçkilər və referendum zamanı faktiki olaraq hakimiyyət seçki məntəqələrinə gedərək xalqın səs verdiyi nümayəndələrin əlinə keçir. Bu mühüm vasitə cəmiyyəti ədalətsizlikdən və diktatura təhlükəsindən qoruyur.**



**Həcər ABBASLI**
**Ümid Partiyası Gender Bərabərliyi şöbəsinin müdiri**

# Seçkilərin azad və ədalətli keçirilməsi üçün bir sıra mühüm şərtlər tələb olunur

Dekabrın 23-də ölkədə növbəti bələdiyyə seçkiləri keçirilir. Azərbaycan vətəndaşları növbəti beş il ərzində yaşadıqları ərazi üzrə məntəqələrində öz namizədlərini seçəcəklər. Bu yerli özünüidarəetmə orqanı yaranmasından 15 il ötməsinə baxmayaraq, hələ də özünü tam təsdiq edə bilməyib. Bu baxımdan digər seçkilərlə müqayisədə bələdiyyə seçkilərinə maraq azdır. Bəs, cəmiyyətin müxtəlif təbəqələrinin bələdiyyələrə marağının az olmasının səbəbi nədir?

Hər şeydən öncə bələdiyyələrlə icra qurumları arasında səlahiyyət bölgüsünü tənzimləyən bir qanun olmalıdır. Bu qanunlar olsa, bələdiyyələrin işinə müdaxilələr az olar və nəticədə onlar öz seçicilərinin problemlərini həll edə bilərlər. Buna görə də bələdiyyənin real yerli özünüidarəetmə orqanına çevrilməsi, qanundakı boşluqların aradan qaldırılması üçün dövlət proqramı hazırlanmalıdır. İcra qurumları ilə bələdiyyələr arasındakı səlahiyyət bölgüsü dəqiqləşdirilməli və onların bir-birinin fəaliyyətinə müdaxilələrin qarşısı alınmalıdır. Bunlar yerinə yetirilsə bələdiyyələrə etibar artıra bilər. Digər əsas səbəblərdən biri isə ölkəmizdə bələdiyyələrin statusunun faktiki az olmasıdır. Məhdud olan səlahiyyəti isə icra orqanları həyata keçirməyə imkan vermir. Hətta bələdiyyələrin səlahiyyətlərində olan torpaq sahələrinin satışına belə icra nümayəndələri nəzarət edir. Bələdiyyədə olan kadr potensialı maliyyə azlığı ucbatından əhali ilə işləyə bilmir. Təsəvvür edin, şəhər və ya rayon mərkəzlərinin abadlaşdırılması bələdiyyələrə tapşırılır. Bələdiyyə əhalidən vergi şəklində yığdığı vəsaiti icra hakimiyyəti rəhbərinin tapşırığı ilə bələdiyyə ərazisindən uzaqda yerləşən hər hansı bir parkın abadlaşdırılmasına yönəldir. Halbuki bu vəsait bələdiyyənin öz ərazisindəki problemin həlli üçün nəzərdə tutulub. Belə olan halda bələdiyyə seçkilərində vətəndaşların iştirak etmə faizi aşağı düşür.

Hazırkı mövcud mühit seçkilərin azad və ədalətli keçirilməsinə imkan vermir. Seçkilərin azad və ədalətli keçirilməsi üçün bir sıra mühüm şərtlər tələb olunur. Bunlar ölkədə müstəqil medianın olması, müstəqil seçki komissiyalarının formalaşdırılması, toplaşmaq azadlığının reallaşdırılması və digər hüquqlarla bağlıdır. Bu hüquqlar təmin edilmirsə, hətta seçki günü heç bir saxtakarlığa yol verilməsə belə, seçkiləri ədalətli saymaq olmaz. Çünki qeyri-bərabər mühitdə qarşı-qarşıya duran tərəflər və yaxud iqtidar və müxalifət partiyalarının imkanları qeyri-bərabərdir. Hakim partiya istənilən vaxt, istənilən yerdə toplantı keçirə, istənilən vaxt televiziyalarda çıxış alaraq iqtisadi, hüquqi, sosial sahədə apardıqları siyasəti təbliğ edə bilir, dövlət büdcəsindən istənilən qədər vəsaiti istənilən şəxslərə, kəsimlərə, qruplara ayıra bilir. Digər rəqiblərə isə bu imkanlar tanınmır. Bütün bu baş verənlər insanları seçki prosesindən kənarda saxlayır.

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Daş atılan gölün seçkiləri

Zamin HACI
zaminhaci@gmail.com

**Yapistlər belə baxanda istədiklərinə nail olublar: Azərbaycan bu gün müstəqillik dövrünün ən sakit seçkisini keçirdir. Əslində qeyri-iş günü elan edilməsə camaatın çoxunun 23 dekabrda bələdiyyə seçkiləri qayırılmasından heç xəbəri yoxdur. Hətta bir tanış var, məndən soruşdu ki, 23 dekabr niyə bayram günü elan olunub, dedim yadındadırmı, bir-iki il qabaq dünyanın sonu çatmalı idi, ancaq çatmadı - onu qeyd eləyirik. Zarafatımız yoxdur, o üzdən adam az qala inanmışdı.**

Bələdiyyə, yerli özünüidarə vətəndaş cəmiyyətinin, demokratiyanın əsas sütunlarından biridir və yapistlər bu sütunu darmadağın ediblər. Cəmiyyətin bələdiyyəyə marağının itməsi həm də bu səbəbdəndir. Bu yaxında bir saatsazın intervüsünü oxudum, adam deyirdi ki, oğlum işsiz idi, paytaxtda küçədə gedəndə prezidenti gördüm, ondan xahiş elədim oğluma iş versin, minnətdaram, prezident Vaqif Axundovu çağırıb tapşırdı, indi oğlum yol polisində çalışır. Yəni, kiminsə işə düzəlməsi də ancaq prezident səviyyəsində mümkündürsə, bələdiyyəni çürük qoz yerinə qoyan olmayacaq. Bu ayrı məsələdir ki, gərək camaatın özünün də yerli özünüidarəyə marağı olardı, bu azadlığı əldə etmək, qorumaq üçün savaşaydı. Bir növ, toyuq və yumurta məsələsindəki kimi vəziyyət yaranıb: hakimiyyət bələdiyyənin inkişafına imkan vermir, eyni zamanda bələdiyyə özü də inkişaf edib hakimiyyətin mərkəzləşmiş totalitar mexanizmindən çıxmaq istəmir. O məşhur kinomuzda deyilən kimi, siz haçan lotereya aldınız, uduş olmadı?

Namizədlərin əhali ilə görüşləri sıfır səviyyəsində, əsas müxalifət partiyaları seçkilərə qatılmayıb, telekanalizasiya və qəzetlərdə pullu-pulsuz reklam materialları da yoxdur. Yalnız Məzahir müəllimin qəssab dükanlarına yapışdırdığı absurd məzmunlu "seçki dəvətnaməsi" plakatları və iki cüt bir tək namizədin şablon təbliğat plakatları seçkidən xəbər verirdi.

MSK-nın dəvət plakatlarını ona görə absurd adlandırıram ki, Məzahir müəllim onlara bələdiyyənin qanunla səlahiyyətlərinə dəxli olmayan min cür şey soxuşdurmuşdu. Örnək üçün, bir plakatda guya bizim səs verməyimizlə təhsilin inkişaf edəcəyi yazılmışdı, halbuki, təhsilə bələdiyyənin heç bir dəxli yoxdur. Başqa plakatda isə Məzahir müəllim hətta kosmosa uçan peykimizin də bələdiyyə ilə əlaqəsini kəşf etmişdi!

Namizədlərin plakatlarına gələndə, burada daha gülməli durum yaranmışdı. Mən bir neçə dairənin ərazisində bu namizədlərin şüarlarına baxdım. Maraqlıdır ki, hamısı "davamlı inkişaf", "əhalinin rifahını yaxşılaşdırmaq" kimi məqsədləri olmasını yazmışdılar. Əgər bunlar hamısı YAP-istlər olsa anlaşılardı, ancaq tamam ayrı-ayrı qurumların namizədləri, çoxu isə guya "müstəqil" namizədlər idilər. Aydın məsələdir ki, bu plakatların hamısı eyni inzibati mərkəzdən - Prezident Administrasiyasından göndərilən sxemlə hazırlandığından eyni burundan fırt eləyib düşmüş kimi görünürdülər.

Üstəlik, bu namizədciklərin bizim guya sosial rifahımızı yüksəltməyə çalışacağı iqtidarın siyasətini ifşa edirdi. Çünki hökumətin dediyinə görə biz analoqu olmayan şəkildə inkişaf etmişik, işsizlik ləğv edilib, qeyri-neft sektoru Amerikanın 2 dəfə ötüb, bir dəfə də döngədə Yaponiyanın böyründən qoyub aşırdıb, ən ucqar kənddə belə diaqnostika mərkəzi, gənclər klubu, veteran skameykası, uşaq bağçası açılıb, Soğanverdilər-Dəliməmmədli-Aşağı Aybasanlı avtomobil yolunun 200 metrlik hissəsində müasir işıqlandırma sistemləri qayırılıb, şair Mazan Qazanxanlı prezident təqaüdü, aktrisa Gülməşəkər Dümbülbəyli xalq artisti adı alıb. Daha siz bələdiyyə olub nə qayıracaqsınız? Bizim sosial rifahımız, davamlı inkişafımız çox yaxşıdır, gedin ayrı yerdə otlayın.

Yazını da elə bu nikbin notlarla bitirirəm.

# İŞİD daxilində kütləvi edamların pərdəarxası

## Son aylarda aldığı ağır zərbələrdən sonra qruplaşma daxilində fərarilik halları getdikcə artır

**"İslam Dövləti" terror təşkilatı Suriyanın ər-Riqqa əyaləti ərazisində tərkibində olan 4 azərbaycanlı üzvünü, silahlı üsyana cəhd etmək, qaçmaq, təşkilat üzvlərini qətlə yetirmək, Əbu Bəkr əl-Bağdadiyə ittihamlar ünvanlamaqda təqsirləndirib. Bu xəbəri ötən gün interaz telekanalı İŞİD terror təşkilatı üzvlərinin twitter səhifəsinə istinadla xəbər verib. İŞİD yaydığı videoda 4 nəfərin ifadələri yer alıb.**



Əbuzər, Əbu-Məryəm, Əbu-Yaqub və Ömər ləqəbli Elvir İŞİD liderinə qarşı çıxmalarının səbəblərini qeyd edirlər. İfadə verən 4 nəfərdən ikisi Azərbaycan dilində, ikisi isə rus dilində danışır, onların hamısının azərbaycanlı olması ehtimal edilir. Videolentin sonunda səsləndirilən Quran ayəsi 4 nəfərin edama məhkum olunması ilə bağlı iddialara səbəb olub.

Qeyd edək ki, bu, son bir ayda İŞİD-in edama məhkum etdiyi yüzlərlə döyüşçülərindən bir neçəsi ilə bağlı faktlardır. Bir neçə gün əvvəl qruplaşma 100 nəfər xarici ölkə vətəndaşı olan döyüşçüsünü edam edib. Bu barədə "The Financial Times" nəşrinin xəbərində deyilir ki, İŞİD-in qeyri-rəsmi paytaxtı olan Suriyanın Rəqqa şəhərindən qaçmaq istəyərkən yaxalanan əcnəbi İŞİD-çilər edam ediliblər. Gələn bəzi məlumatlara görə, bu döyüşçülərin bir qismi İraqda kürd peşmərgələrinin Sincar dağını azad etməsi əməliyyatı zamanı kürdlərlə döyüşdə məğlub olaraq döyüş meydanından qaçan İŞİD üzvləridir.

Qəzet Suriyada Britaniyaya bağlı mənbələrə istinadən yazır ki, İŞİD hərbi polis yaradıb. Onlar əcnəbi döyüşçülərə xüsusi diqqət edirlər. Onların evlərində mütəmadi axtarışlar aparılır. Şübhəli bilinənlər dərhal həbs olunur. Artıq Qərb ölkələrindən gələrək İŞİD-in sıralarında döyüşmüş əcnəbilərin arasında xeyli insan məyus durumdadır. Onlar İŞİD-dən ayrılmağa cəhd göstərirlər. Belə cəhdlərsə edamla nəticələnir.

Britaniya mediası iddia edir ki, oktyabr ayında 5 britaniyalı, 3 fransalı, 2 almaniyalı və 2 belçikalı İŞİD-ə etiraz edib. Onlar deyiblər ki, biz Suriyaya Bəşər Əsədə qarşı vuruşmaq üçün gəldik. Digər mücahidlərlə vuruşmaq fikrində deyilik. Bu cür düşünənlər İŞİD tərəfindən dərhal həbs olunur. Eyni zamanda o da bildirilir ki, 30-50 nəfər arasında britaniyalı geri dönmək istəsə də, onlar bunun çox təhlükəli olduğunu başa düşürlər.

Ancaq bu, İŞİD-in edam etdiyi döyüşçülərin tam siyahısı deyil. Dekabrın əvvəlində Türkiyə mediası Suriyanın Deyr əz-Zor şəhəri yaxınlığında hökumət qüvvələri ilə döyüşdə məğlub olaraq qaçan 200 döyüşçüsünü Rəqqada edam edib.

Bəzi ekspert və yerli mənbələrin məlumatına görə, son dövrlərdə İraq və Suriya cəbhəsində dalbadal ağır itkilər verən, zərbələr alan İŞİD döyüşçüləri arasında ruh düşkünlüyü yaranıb. Dalbadal ağır zərbələrdən və eləcə də davamlı savaşlardan, liderlər arasında fikri ayrılıqları səbəbindən hazırda bir çox əsasən Qərb ölkələrindən gələn İŞİD-çilər geri qayıtmağa çalışır. Hətta bir qədər əvvəl Avropadan gələn bir döyüşçünün tabletini bəhanə gətirərək geri qayıtmaq istəməsi ilə bağlı xəbər yayılmışdı. Bütün bunlar İŞİD-in bir neçə ay əvvəl İraqdakı uğurlu əməliyyatlar zamanı yaradılmış cazibəsinin artıq olmadığını, uzun müddətli, yorucu müharibənin əsasən də Qərb ölkələrindən gələn "cihadçıları" qane etmədiyini göstərir. Eyni zamanda bir neçə cəbhədə müharibə aparan İŞİD komandanlığı daxili nizam-intizamı artırmaq, fərariliyin qarşısını almaq üçün özlərinə xas qəddar üsullara əl ataraq fərariləri edam edirlər. Əslində müharibə dövründə geniş yayılmış fərariliyə ağır cəzaların verilməsi nadir hadisə deyil.

İŞİD-in döyüşçü sayının azlığı problemi ilə üzləşməsinin daha bir əlaməti isə indiyə qədər əsasən könüllü döyüşçüləri, "cihad" həvəskarlarını cəlb edən qruplaşmanın son həftələrdə nəzarət etdiyi yaşayış məntəqələrində ailələrdən əsgər toplamağa başlaması faktı da təsdiqləyir. Ötən həftə yerli mənbələr İŞİD-çilərin Mosul şəhərində ev-ev gəzərək hər ailədən bir döyüşçü yığdıqları ilə bağlı xəbərləri mediaya ötürdülər. Bu da təbiidir, çünki İŞİD son 6 ayda eyni vaxtda həm Suriya ordusu, "ən-Nusra", digər islamçı qruplaşmalar, Azad Suriya Ordusu, kürd yaraqlıları ilə və həmçinin İraqda yenə hökumət qüvvələri, könüllü hərbi dəstələr və kürd muxtariyyətinin silahlıları (peşmərgə) ilə döyüşüb. Son 3 ayda isə koalisiya aviasiyası İŞİD mövqelərini bombalayıb. Bu isə qruplaşmaya böyük itkilər verib, xüsusən də Kobani döyüşlərində bombardmanlar İŞİD-in böyük itkilər verməsinə səbəb olub.

❑ **KƏNAN**

# Türkiyəyə Qarabağ üçün "yaşıl işıq" - şərh

## Moskva-Ankara yaxınlaşması ermənilərin yuxusunu qaçırıb; işğalçı ölkə iki regional gücün münasibətlərində növbəti dəfə "xırda pul"a çevriləcəyindən narahatdır; Putinin Türkiyə haqda hansı fikri düşməni rahatsız edib?

**Putinin Türkiyəyə son səfəri hələ də Ermənistanın siyasi və ekspert dairələrində ciddi müzakirə mövzusu olaraq qalır. Erməni tərəfini xüsusən də uydurma "soyqırımın" yaxınlaşan 100 illiyi ərəfəsində belə bir ziyarətin baş tutması, üstəlik, səfər çərçivəsində regionun iki böyük dövləti arasında əldə edilmiş mühüm anlaşmalar ciddi şəkildə narahat edib.**



Sirr deyil ki, bədnam 100 illik tədbirlərini həm də Rusiyada reallaşdırmaq planlaşdırılıb. Ancaq Moskva-Ankara əlaqələrinin keyfiyyətcə yeni fazaya keçməsi aydındır ki, belə təxribatçı törənlərin effektini minimuma endirəcək. Ən azı ona görə ki, Rusiya dövlət səviyyəsində bunda maraqlı olmayacaq - baxmayaraq ki, Dövlət Duması saxta genosidi tanıyıb.

Lakin istisna deyil ki, Ermənistan və erməni lobbisi Fransadakı kimi Rusiyada da "soyqırımı danmağa görə cəza" nəzərdə tutan sənədin qəbuluna çalışsın. Fəqət, qeyd edildiyi kimi, Rusiya-Türkiyə münasibətlərinin hazırkı durumu və dinamik inkişafı buna artıq imkan verməz.

İşğalçı tərəfi əndişələndirən yeni reallıqlardan biri də sanksiyalardan sıxılan Rusiya üçün Türkiyə ilə əlaqələrin böyük önəm daşımasıdır. Bundan əlavə, İrəvan Ankara-Moskva yaxınlaşmasını Dağlıq Qarabağ məsələsinin öz xeyrinə həlli önündə təhlükəli amillərdən hesab edir. Bunu son vaxtlar erməni mətbuatı açıqca yazır.

Erməni nəşrlərindən biri Putinin Türkiyədə Ərdoğanla birgə keçirdiyi mətbuat konfransında Kreml başçısının söylədiyi belə bir fikrə məxsusi diqqət yönəldir: **"Putin demişdi ki, Rusiya və Türkiyənin üst-üstə düşən çoxlu regional maraqları var və Ankaranın fəal iştirakı olmadan bölgənin problemlərini yoluna qoymaq mümkün deyil".**

Regional problemlərdən biri və birincisi isə 20 ildir həllini tapmayan Dağlıq Qarabağ ixtilafıdır. Erməni təhlilçilər isə Putinin bu ifadəsi altında artıq "1 nömrəli strateji müttəfiqləri" Rusiyadan şübhələnməyə başlayıblar. Onların qənaətincə, Rusiya Qarabağ nizamlanmasında həqiqətən Türkiyənin yaxından iştirakını arzulayır və bu istək Kremlin strateji maraqlarından qaynaqlanır. Sitat: **"Rusiya üçün Güney Qafqazda problemləri Türkiyə ilə tandemdə həll eləmək daha məqbuldur, nəinki ABŞ və Avropa ilə, çünki Moskva hesab edir ki, bu tandemdən o, qalib kimi ayrılacaq, ona görə ki, Türkiyə ilə qüvvələr uyğun və bərabər işarəlidir. Qərblə Böyük oyunda isə Kremlin şansı praktik olaraq sıfıra bərabərdir".**

*****

Beləliklə, bir sıra digər analitiklərin də təsdiqlədikləri kimi, Qarabağ probleminin yoluna qoyulmasında, nəhayət, qardaş ölkənin yaxından iştirakı ilə mühüm irəliləyişin əldə olunması üçün unikal şans yaranıb. Həmin şansı Türkiyədə yaşayan azərbaycanlı politoloq, Ankara Universitetinin doktorantı Orxan Qafarlı belə qiymətləndirir: **"Moskva və Ankara arasında erməni məsələsi və Qarabağ münaqişəsi ilə bağlı uğurlu bir dialoq prosesi başlayıb".**

Ekspert Putinin Türkiyəyə rəsmi səfərindən sonra yaranmış vəziyyət, Türkiyə-Rusiya münasibətlərinin yaxınlaşmasının bütövlükdə Cənubu Qafqaz regionuna təsirini təhlil edərək vurğulayıb ki, Ankara-Moskva yaxınlaşması Cənubi Qafqazda önəmli dəyişikliklərə gətirəcək: **"Artıq biz Azərbaycan, Türkiyə və Rusiya münasibətlərinin yaxınlaşmasından söz edə bilərik. Türkiyə Rusiya arasında yaxınlaşmanın ilk əlamətlərini Cənubu Qafqaz regionu hiss edəcək. Moskva və Ankara arasında erməni məsələsi və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı uğurlu bir dialoq prosesi başlayıb. Əgər bu siyasi dialoq baş tutarsa, 2015-ci ildə biz bunun nəticələrini görə bilərik".**

Yeni Qarabağ şansının maraqlı cəhətlərindən biri də odur ki, o, məhz indi - konkret zaman kəsiyi üçün aktualdır, qüvvədədir. Bir azdan Rusiya iqtisadi cəhətdən əhəmiyyətli şəkildə zəifləyəndən sonra Moskva bundan məhrum ola bilər. O zaman söz sahibliyi xeyli dərəcədə qardaş ölkədə keçmiş olacaq.

Bu mənada ermənilərin və erməni lobbisinin əndişəsində motiv ikiqat əsaslı görünür. Onlar Rusiyanın Türkiyəyə Qarabağ üçün "yaşıl işıq" yandırdığı qənaətindədir. Ermənilər habelə, yaxın tarixdə bir neçə dəfə təkrarlandığı kimi, yenə də iki böyük dövlətin - Türkiyə və Rusiyanın münasibətlərində, siyasi bazarlığında yenidən "xırda pul"a çevrilə biləcəklərini real saymağa başlayıblar.

❑ **Siyasət şöbəsi**

# YAP "Azərbaycan"ın anti-ABŞ yazısının məsuliyyətini üzərinə götürmədi

**ABŞ-Azərbaycan münasibətlərindəki son bir neçə ayda müşahidə olunan gərginlik yüksələn xətt üzrə davam edir. Prezident Barak Obamanın Azərbaycandakı vətəndaş durumunun vəziyyətinə dair tənqidi fikirlər səsləndirməsindən sonra iki ölkə arasında "soyuq müharibə" elementləri daha çox müşahidə olunmaqdadır ki, bu da arzuolunan hal deyil. Dekabrın 19-da rəsmi dövlət qəzeti "Azərbaycan"da ABŞ-Azərbaycan münasibətlərinə dair dərc olunan məqalədə rəsmi Vaşinqton 2005-ci ilin oktyabr hadisələrinə görə sərt şəkildə ittiham olunub.**

**Məqalədə deyilir ki, 9 il öncə ABŞ-ın Azərbaycandakı səfiri Rino Harnişin rəhbərliyi ilə ölkədə dövlət çevrilişinə cəhd göstərilib:** "Mövcud müxalifətin heç bir işə qadir olmadığını özü üçün aydınlaşdıran ABŞ strateqləri hakim komandanın daxilində müxalifət formalaşdırmaqla onun radikal qruplarla əlaqəli şəkildə fəaliyyətini təmin etməyə çalışdılar. Radikal müxalifət başçılarının, konkret cinayət əməllərinə görə Azərbaycanda məsuliyyətə cəlb olunmuş və beynəlxalq axtarışa verilmiş, uzun illərdir ABŞ-da yaşayan Rəsul Quliyevin və "hakimiyyətdaxili müxalifət" olan keçmiş iqtisadi inkişaf naziri Fərhad Əliyevin hakimiyyətə gətirilməsi planı da məhz ABŞ-a məxsus idi. Yalnız Azərbaycan dövlətinin qətiyyətli mövqeyi nəticəsində bu məkrli çevriliş ssenarisinin qarşısı alındı. Azərbaycan qazanan, ABŞ və onun ölkəni tələm-tələsik tərk edən səfiri Rino Harniş isə məğlub tərəf oldu".

**Bu məqalənin rəsmi qəzetdə dərci, görünür, sabiq nazir Fərhad Əliyevi də narahat etdiyi üçün məsələyə ciddi yanaşıb və mövqeyini ifadə edib. 2005-ci ildə tutularaq 10 il müddətinə azadlıqdan məhrum edilmiş və 9 ildən sonra əfv olunan eks-nazir "Mediaforum"a deyib ki, hansısa səfirin və ya diplomatın Azərbaycanda dövlət çevrilişi etmək imkanına malik olmasına inanmır. F.Əliyevin bir fikri xüsusilə diqqət çəkir:** "Ən xırda məsələlərə münasibət bildirən Amerika kimi nəhəng dövlətin Azərbaycanda dövlət çevrilişi etmək istəyi barədə ittihamlara da cavab verməməsi təəccüb doğurur".

Doğrudan da, okeanın o tayından "çevriliş ittihamına" reaksiyanın necə olacağı maraq doğurur. Hər halda, parlamentin rəsmi orqanında dərc olunan yazı təsadüfən ortaya çıxmayıb. Düzdür, parlamentdə vaxtaşırı Qərbə ünvanlı sərt çıxışlar olur və spiker Oqtay Əsədov da sonuncu iclasların birində Azərbaycana qarşı qərəzli münasibətlərə operativ münasibət bildirməyin zəruri olduğunu deputatlara tövsiyə etmişdi.

Ancaq "Azərbaycan" qəzetində dərc olunan məqaləni, yəni illər öncənin olaylarının yenidən dövriyyəyə buraxılmasını son vaxtlar ABŞ-da Azərbaycan hökumətinə yönəlik tənqidlərə cavab reaksiyası da saymaq olar. Amerika mətbuatı son vaxtlar ardıcıl şəkildə Azərbaycan iqtidarını vətəndaş cəmiyyəti və mətbuata təzyiqlərə, həyata keçirilən həbslərə görə ittiham edib. Vaşinqtonda Amerika Azərbaycanlıları Demokratiya Uğrunda (AZAD) təşkilatının forumunda "ABŞ-ın sanksiyaları Azərbaycan dissidentlərinə kömək edə bilərmi?" adlı forum da keçirilmişdi. ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Riçard Kazlariç, "Freedom House" təşkilatının keçmiş rəhbəri, hazırda Makkeyn İnstitutunda insan hüquqları və demokratiya üzrə baş direktor vəzifəsini tutan David Kramer Bakıya təzyiqləri artırmağa çağırmışdılar.

Bunun ardınca ABŞ dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə yardımçısı Tom Malinovski AzadlıqRadiosunun rusdilli "Nastoyaşeye Vremya" televiziya proqramına müsahibəsində Azərbaycandakı repressiv vəziyyət, o cümlədən jurnalist Xədicə İsmayılın həbsi barədə də suallara sərt dillə cavab vermişdi. "Vətəndaş cəmiyyətini boğmaq ABŞ-la münasibətləri təhlükə altında qoyur", - deyə dövlət katibinin yardımçısı bildirib. Ardınca əlavə edib ki, ABŞ tərəfdən növbəti addımın necə olacağı Azərbaycan hakimiyyətinin əlindədir. "Azərbaycan" qəzetinin bütün bunlara reaksiyası isə xeyli sərt olub. Söhbət dövlət çevrilişi kimi ağır ittihamda suçlamaqdan gedir.



**Siyavuş Novruzov:** "Sadəcə, qəzetdə bir analitik qrup öz təhlilini ictimaiyyətə təqdim edib"



**Sərdar Cəlaloğlu:** "2003-cü ildə hökumət özü bəyanat vermişdi ki, Amerika səfiri deyib bunları həbs edin, biz də həbs etmişik"

**Politoloq Ərəstun Oruclu rəsmi Bakının Qərblə münasibətlərdə sərt ritorikaya üstünlük verməsini təhlükəli sayır:** "Bir neçə gün bundan əvvəl Vaşinqtonda Karnegi Fondunun təşkilatçılığı ilə Qarabağ münaqişəsinin həlli mövzusunda ekspertlər səviyyəsində dinləmələr oldu. Bunu Vaşinqtonun mesajı kimi qəbul etmək lazımdır. Artıq bu yolda bir qədər diqqətli olmaq tələb olunur. Unutmayaq ki, müasir dünyada çox qəribə hadisələr baş verir. Məsələn, 6 ay əvvəl dünyada heç kim düşünməzdi ki, Avropa ölkələri İsrail faktorunu nəzərə almadan Fələstin dövlətinin müstəqilliyini tanıya bilərlər. Bu gün bu, artıq baş verir. Bunu nəzərə almaqla Qərb dövlətləri, ümumiyyətlə, beynəlxalq birliklə belə sərt, ittihamedici ritorika ilə danışmaqdan imtina etmək lazımdır. Çünki bu, heç bir halda yaxşı istiqamətə, yaxşı nəticəyə aparan yol deyil. Qərbi ən müxtəlif cinayətlərdə, əməllərdə, çevriliş cəhdlərində və s. ittiham etmək hamısı boş söhbətlərdir". **Ə.Oruclu bir məqama da diqqət çəkdi:** "Fərhad Əliyev konkret olaraq korrupsiyaya görə mühakiməyə olunub və bu, Azərbaycan məhkəmə instansiyalarının aşağıdan-yuxarı hamısının hökmlərində, qərarlarında əksini tapıb. Aydın deyil ki, belə bir cəhd olmuşdusa, onda Fərhad Əliyev niyə dövlət çevrilişi cəhdinə görə mühakimə olunmayıb? Hərçənd ki, o, həmin ittihamlarla həbs olunmuşdu, bunu hamımız yaxşı xatırlayırıq. Bu gün həmin fakt bəyanat, mətbuat yazıları və s. şəklində də qalmaqdadır. Yəni ümumiləşdirərək onu demək istəyirəm ki, rəsmi Bakının siyasətində bir çaşqınlıq görünür. Bu çaşqınlıq da ona gətirib çıxarıb ki, bu gün Rusiya kimi nəhəng bir dövləti çökdürən Qərbə, ABŞ-a belə meydan oxunur. Bunun fəsadları haqqında düşünmək və bir qədər soyuqqanlı olmaq lazımdır".

**Politoloq deyir ki, Vaşinqton rəsmi Bakı ilə qarşıdurmaya getmək istəmir:** "Amma eyni zamanda rəsmi Bakı ilə ünsiyyətə meylli də görünmür. ABŞ dövlət katibinin müavini də sonuncu bəyanatında insan haqlarından, həbslərdən danışdı. Əslində bunun özü də bir jest sayıla bilər. Vaşinqton göstərmək istəyir ki, Azərbaycanla danışa biləcəyimiz mövzu budur. Bakı isə bunu istəmir. İstəmirsə, deməli, hələlik normal münasibət olmayacaq".

**ADP sədri Sərdar Cəlaloğlu ABŞ-a ünvanlı ittihamı ciddi qəbul etmir:** "2003-cü ildə bizim həbs olunmağımızla bağlı hökumət özü bəyanat vermişdi ki, Amerika səfiri deyib bunları həbs edin, biz də həbs etmişik. İndi necə oldu ki, bundan iki il sonra Amerika burda dövlət çevrilişi etmək istədi? Belə bir ciddi ittiham varsa, ortalığa fakt qoyulmalıdır. Özü də Amerika ilə bu ildə danışmaq Azərbaycana baha başa gələ bilər". **S.Cəlaloğlu dedi ki, Azərbaycan elə bil hansısa bir qüvvə Rusiyaya qarşı olan təzyiqləri Azərbaycanla bölüşdürmək istəyir:** "Mənə məlum olanlara görə deyə bilərəm ki, Amerika heç vaxt Azərbaycanda dövlət çevrilişinə cəhd etməyib. Əksinə, biz həmişə Amerikanı tənqid etmişik ki, Amerika Azərbaycandakı demokratikləşməyə kifayət qədər dəstək verməyib".

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov isə məsələyə fərqli prizmadan yanaşmağın tərəfdarıdır. Deputat dedi ki, "Azərbaycan"ın dərc etdiyi məqalə rəsmi mənbənin, yaxud dövlət rəsmisinin verdiyi məlumat deyil:** "Sadəcə, qəzetdə bir analitik qrup öz təhlilini ictimaiyyətə təqdim edib. Amma dövlətin hər hansı nümayəndəsi, tutaq ki, Xarici İşlər Nazirliyi, MTN, digər rəsmi qurumun nümayəndələri belə bir bəyanatla çıxış etməyib. Təbii ki, "Azərbaycan" dövlət qəzetidir, parlamentin orqanıdır. Amma bununla yanaşı, orda müxtəlif yazılar çap olunur, müsahibələr gedir, hər kəs fikir və rəylərini ifadə edir. Bu yazı da hansısa bir qrupun fikir və rəyidir. Müxtəlif qəzetlərdə olduğu kimi, Azərbaycan qəzetində də müxtəlif səpkili yazılar gedir. Redaksiya bu yazılara görə cavabdehlik daşımır".

**Bəs YAP funksioneri özü necə, ABŞ-ın Azərbaycanda dövlət çevrilişi hazırlaması ilə bağlı planlarının olduğunu təsdiqləyə bilərmi? S.Novruzov yalnız bunu bildirdi:** "Məndə belə bir məlumat yoxdur. Məlumatım olmadığı məsələyə münasibət bildirmək istəmirəm".

Lakin maraqlısı budur ki, ABŞ-ın Bakıdakı səfirliyi hələlik ittihamlara cavab vermir. Dekabrın 22-də səfirliyin mətbuat xidmətinə suallar ünvanlasaq da, cavab olmadı.

❑ **E.PAŞASOY**

# ABŞ Azərbaycan hakimiyyətinə sanksiyalar hazırlayır?

## Qabil Hüseynli: "ABŞ regionda bu qədər gərginliyin, problemlərinin olduğu vaxtda işi işə qatmaz"




Qabil Hüseynli

**Son günlər ABŞ-la Azərbaycan hakimiyyəti arasında soyuq münasibətlərin müşahidə olunması bir sıra dairələrdə prosesin Azərbaycan hakimiyyətinə sanksiyalar tətbiqinə gətirib çıxarmaq üzrə olduğu rəyini yaradıb. Məsələn, dünən "Azadlıq" qəzeti ABŞ-ın Azərbaycan hakimiyyətinə qarşı sanksiyalarının hazır olduğunu yazıb. Yazıda bildirilir ki, ABŞ yaxın vaxtlarda qərarın icrasını elan edə bilər. Qəzet diplomatik mənbələrə istinadən yazıb ki, Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar artıq qətiləşib: "Azərbaycan hakimiyyətinin anti-ABŞ isterikasının səbəbi də budur.**

Yəni artıq YAP iqtidarı da sanksiya ilə bağlı qərar verilməsindən xəbərdardır. Mənbə bildirib ki, Vaşinqtonda Azərbaycan hakimiyyətinə qarşı sanksiyaların müzakirəsindən sonra ABŞ dövlət katibinin sabiq köməkçisi David Kramerin açıqlamasına diqqət yetirmək kifayətdir ki, Azərbaycan hakimiyyətini nələrin gözlədiyi barədə təsəvvür yaransın. Qeyd edək ki, David Kramer müzakirələrdən sonra "Amerikanın səsi"nə bildirib ki, ABŞ Azərbaycandakı repressiv siyasətdən narahatdır. Onun fikrincə, ABŞ Konqresi yanvar ayında fasilədən qayıtdıqdan sonra orada Azərbaycanla bağlı dinləmələr olacaq. ABŞ-ın təzyiqləri artacaq və Bakıya səfərlər zamanı insan haqları məsələsi başlıca yer tutacaq.

Sanksiyalara gəlincə, David Kramer bu barədə əminliklə danışıb. O deyib ki, sanksiyalar ünvanlıdır və insan haqlarının pozulmasında məsul olan məmurlara tətbiq olunacaq. Bura viza qadağası və bank hesablarının dondurulması daxildir.

ABŞ dövlət katibinin keçmiş köməkçisinin açıqlamalarından belə aydın olub ki, Azərbaycan hakimiyyətinə sanksiyalar təkcə "Maqnitski aktı" ilə məhdudlaşmayacaq. Hakimiyyət isə siyasi məhbusları azad etmək əvəzinə ABŞ-a qarşı hücumları davam etdirir. Bu baxımdan mümkündür ki, Vaşinqton yaxın vaxtlarda sanksiya qərarının icrasını elan etsin".

**Bəs deyilənlərin reallaşması ehtimalı varmı? ABŞ-ın Azərbaycan hakimiyyətinə sanksiyalar tətbiq etməsi realdırmı?**

**Politoloq Qabil Hüseynli bildirdi ki, indiki vaxtda ABŞ-ın Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edəcəyi inandırıcı deyil. Çünki ABŞ regionda bu qədər gərginliyin, problemlərinin olduğu vaxtda işi işə qatmaz:** "Ən azından bu saat ABŞ-ın başı Rusiya ilə bağlı, İŞİD-lə bağlı problemlərə qarışıb. Belə bir şəraitdə regionun mühüm dövlətlərindən biri olan Azərbaycanla münasibətləri kökündən korlayacaq addım atmaq, müxtəlif sanksiya qanunlarını Azərbaycan siyasi elitasına tətbiq etmək yerinə düşməzdi. Heç bunun əsası da olmazdı".

**Politoloqun fikrincə, Amerika Azərbaycanla münasibətləri düzəldəcək. Bu münasibətlərin düzəlməsi üçün lazım olan nə varsa hamısı ediləcək:** "Çünki Azərbaycan-ABŞ münasibətlərinin o qədər də uzaq olmayan keçmişi yaxın dostluq və strateji əməkdaşlıq tellərinə əsaslanırdı. İndi münasibətlər bir qədər souyuyub və müəyyən qarşıdurma elementləri müşahidə olunur. Amma bəzən bu, mediada həddən artıq şişirdilmiş şəkildə təqdim olunur. Mən güman edirəm ki, hər halda, Azərbaycan tərəfi də müəyyən kompromislər yolu seçməklə bu münasibətlərin normal məcraya yönəlməsinə çalışacaq. ABŞ tərəfi də sözsüz ki, Azərbaycanla münasibətlərin sanksiyalar tətbiqi səviyyəsinə qədər pisləşməsini istəməz".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 312 (6021) 23 dekabr 2014



# Hamının "sevimlisi" olmağı bacarırsansa...

Hüseynbala SƏLİMOV

**Bəli, illər də uşaqların böyümək həvəsini, böyüklərin isə qocalmaq tələşını duya-duya ötüb keçməkdədirlər. Adama elə gəlir ki, adamlar kimi illər də ölür. Ən yaxşı halda hər birimizin həyatında altmış-yetmiş il "ölür" ki, biz də bu dünyaya "əlvida!" deyək...**

Bəlkə də hər ilin ən böyük yekunu elə odur ki, hər bir il uşaqları bir il də böyüdür, böyükləri isə bir il də qocaldır. Hər bir il bizi sona - yekuna doğru bir addım yaxınlaşdırır...

Ona görə də məndən "Ötməkdə olan il nələrlə yadda qaldı?" soruşanda dərhal deyirəm ki, ən böyük nəticə odur ki, ömürdən bir il də getdi...

Adam uşaqlıqda vaxtın tez keçməsini istəyir. Amma elə ki, yaşlanırsan və elə ki, qocalırsan, onda vaxtın uzanmağını, əcəl zənginə qədərki zamanın bir az da artmasını arzulayırsan...

İnsan ən böyük mətləbləri fəlsəfədə ifadə etməyə alışıb. Bu mənada fəlsəfə sualların sualı haqqında elmdir. Bəli, prinsip etibarilə demək olar ki, il Ukraynada baş verən meydan hadisələri ilə yadda qaldı. Amma ən böyük və ən ali nəticə məhz o deyilmi ki, Maydan tərəfdarları və əleyhdarları - onların hamısı daha bir il qocaldı? Yatsenyuk da bir il qocaldı, Yanukoviç də. Sanki hamı bir yerdə, bir ünvanda görüşmək üçün tələsir...

Təbii ki, adi siyasət, politologiya fəlsəfədən çox aşağıdadır. Politologiya heç düşünmür də ki, V.Putin də bir il qocaldı.

Ruslar onu "ilin adamı" elan edəndə heç ağıllarına da gəlmirdi ki, bəs bu adam da fatal sonluğa doğru daha bir addım atdı.

Bəlkə də bu dünyada ən böyük labüdlük ölümdür. Ölüm labüddür. Doğuluş labüd deyil. Adam doğulmaya, heç dünyaya gəlməyə, hətta ana bətnindəcə ölə də bilər.

Amma ölüm labüddür. Canı olan və həyatı olan hər bir can sahibi bir gün bu canı təhvil verməlidir...

Mən bilmirəm, başqa insanlar fəlsəfəyə nə qədər meyllidirlər. Onu sevən də var, ona istehza edən də. Amma fəlsəfə həm də varlıq və yoxluq haqqında bir elmdir.

Bəlkə də varlıq, var olmaq yoxluq kimi ümmanda bircə damladır. Ona görə də gəlin nəzərlərimizi ən böyük mətləblərə - fəlsəfəyə yönəldək. Din Allahdan gəlib, amma fəlsəfəni insanlar yaradıblar - özlərini, bu dünyadakı yerlərini və missiyalarını və təbii ki, bir də Allahı dərk etmək üçün...

İnsan həyatı haqq dünyası ilə müqayisədə bir damla olduğu kimi siyasət də bu həyatda bir damladır. Siyasət niyə yaranıb? Düşünürük ki, insan kamil olmadığı üçün, hətta bir qədər naqis olduğuna görə siyasəti yaradıb...

Siyasəti həmişə bir qədər fərqli rakursda təsəvvür etməyə çalışmışıq. Amma ha çalışırsan, görürsən ki, siyasət Kosmosdan uzaq olduğu qədər də Yerə yaxındır.

Həm də siyasət ona görə lazımdır ki, biz bu dünyadakı böyük hesabla mənasız həyatımıza bir nizam verək. Müəyyən qədər nizam digər canlıların da həyatında var. Biz də bu nizamsız keçinə bilmirik...

Ona görə də bir barmağımız televizorun, kompüterin düyməsindədir. Elə hey tələsirik ki, bu dünyada nə olduğunu, nə baş verdiyini biləк.

Bu mənada siyasət də həyatımızın ayrılmaz hissəsidir. Müşahidəm göstərir ki, ən çox siyasət haqqında düşünən siyasətlə məşğul olmadıqlarını deyənlərdir. Onların siyasəti inkar etməsinin səbəbi də elə siyasətdir...

İstəmirlər ki, yapdıqları siyasəti digərləri görsün, istəmirlər ki, kimsə onların davranışını təhlil etsin...

Bəlkə də ən sadəlövh adamlar "Mən siyasətlə məşğul oluram" deyənlərdir. Onlar bunu aşkar edir və digər adamların da bunu müşahidə etməsinə imkan yaradırlar...

Amma o kəslərdən qorxun ki, mən siyasətlə məşğul olmuram deyirlər. Onların vaxtının böyük hissəsi siyasətin alt qatında - intriqalarda keçir...

Real siyasətin, bəzən buna realpolitks də deyirlər, böyük bir hissəsini məhz bu intriqalar təşkil edir - intriqalar bir və hətta bir neçə ölkənin siyasətçilərinin arasında cərəyan edir.

O, real siyasətdir. Biz onu görməməyə çalışırıq. Ona görə də siyasət haqqındakı təsəvvürlərimiz bəsit alınır. Bəlkə də ona görə də bizim siyasətlə bağlı yazdıqlarımız, danışdıqlarımız bir qədər istehza ilə qarşılanır.

Bir də görürsən ki, hansısa yazıçı, ədib "Özümü hamıdan böyük siyasətçi hesab edirəm!" deyir. Haqlıdırmı? Təbii ki, haqlıdır. Ən azı ona görə ki, bu adamlar özlərini peşəkar siyasətçi hesab edənlərin hamısını bir-bir yola salır və hətta onların hamısının "sevimlisi" olmağı da bacarır...



# Bu gün bələdiyyə seçkiləri keçirilir

## 37 min 100 nəfərdən çox namizədin adı bülletenlərə daxil edilib; demokratik düşərgə seçkiqabağı mühitdən narazıdır

**Bu gün ölkəmizdə bələdiyyə seçkiləri keçiriləcək. Bu müstəqil dövlətçiliyimiz tarixində sayca 4-cü bələdiyyə seçkisidir. İlk dəfə 1999-cu ilin 12 dekabrında ölkəmizdə bələdiyyə seçkiləri keçirilib. Seçki Məcəlləsinin 75.2 maddəsinə əsasən, seçkiqabağı təşviqat aparılması səsvermə gününə 23 gün qalmış başlanır və səsvermənin başlanmasına 24 saat qalmış başa çatır.**

**Elman Fəttah:** "Müsbət nəsə demək mümkün deyil"
**Ənvər Ağazadə:** "Əvvəlki seçkilərdən heç də fərqlənməyəcək..."
**Sərdar Cəlaloğlu:** "Bunu seçki kimi dəyərləndirmək olmaz"
**Samir Əsədli:** "Namizədlərimizin seçilmə şansları daha yüksəkdir"
**Xəzər Teyyublu:** "Seçkilərdə əsas problemlərdən biri məntəqələrdə qohumları olan şəxslərin namizəd olmalarıdır"

22 dekabrda səhər saat 8:00-dan etibarən bütün ölkə ərazisində namizədlərin təbliğat-təşviqat kampaniyası rəsmən başa çatıb. Seçkiqabağı təşviqat aparılması mərhələsi noyabrın 30-da başlanmışdı.

Təbliğat-təşviqat kampaniyası qeydə alınmış namizədlər, onların vəkil təyin edilmiş şəxsləri, səlahiyyətli nümayəndələri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları tərəfindən aparılıb.

Qeyd edək ki, Seçki Məcəlləsinin 8.2. maddəsinə əsasən səsvermə günü seçki (referendum) keçirilən ərazidə iş günü hesab olunmur. Seçki Məcəlləsinin bu tələbinə əsasən dekabrın 23-də Azərbaycan ərazisində qeyri-iş günüdür.

Ümumilikdə bələdiyyə seçkiləri işğal altındakı 7 seçki dairəsi istisna olmaqla, 118 seçki dairəsini əhatə edəcək. Bu seçki dairəsinin 1607 bələdiyyəsinə 15 min 35 üzv seçilməlidir.

MSK bəyan edib ki, bələdiyyə seçkiləri üçün 4 milyon 976 min 302 seçki bülleteni çap edilib. 37 min 100 nəfərdən çox namizədin adı bülletenlərə daxil edilib. Bu, keçən bələdiyyə seçkilərindəki namizədlərdən 7 min nəfər artıqdır.

Keçən seçkilərdə orta hesabla hər bələdiyyə üzvlüyünə 2 namizəd vardısa, bu il orta hesabla 2,5 namizəd var. 300 nəfərə qədər namizəd qeydə alınandan sonra namizədlikdən imtina edib. İndiyə qədər 10 minə qədər müşahidəçi qeydə alınıb. Hər məntəqə üzrə 3 müşahidəçinin olacağı gözlənilir. Ümumilikdə 30 partiya seçkilərdə iştirak edir. Ən çox namizədi qeydə alınan partiya YAP-dır.

Aparıcı müxalifət partiyaları seçki prosesindən kənarda qaldılar. Müsavat və Milli Şura rəsmi şəkildə seçkilərdə iştirak etmədilər. Amma bununla belə, üzvlərinə sərbəstlik verdilər. Çoxlu sayda partiya fəalları imza vərəqələri almaqda və qeydiyyat prosesində ciddi qanun pozuntuları ilə üz-üzə qaldılar. Hətta namizədliklərini geri götürmək üçün təzyiqlərə məruz qaldılar. Nəticədə yüzlərlə namizəd iddiasından geri çəkildi. Bütün bunlara görə seçki abu-havası sıfıra bərabərdir.

**Müsavat başqanının müavini, partiyanın seçkilərdəki səlahiyyətli nümayəndəsi Elman Fəttah seçkiqabağı mühitin bərbad vəziyyətdə keçdiyini söylədi:** "Təbliğat kampaniyası biabırçı vəziyyətdə keçdi. Lövhələrin yapışdırılmasında ciddi problemlər oldu. Xüsusilə bu hal rayonlarda özünü daha çox büruzə verdi. Asılan lövhələr əhalinin yaşayış yerindən çox uzaqlarda idi. Seçki yerli icra nümayəndələrinin tam nəzarəti altında gedir və bu şəkildə də yekunlaşacağına şübhə yoxdur. Partiyamızın müşahidəçi bloku artıq formalaşıb. Hər rayon təşkilatı DSK-dan müəyyən sayda müşahidəçi sənədi əldə edib. Yüzlərlə müşahidəçimiz seçkini müşahidə edəcək. MSK-dan 30 yaxın müşahidəçimiz ümumrespublika üzrə qeydiyyatdan keçib. Mən 9 saylı Binəqədi seçki dairəsində müşahidə aparacam. Bizim bu dairədən namizədimiz Şamil Beydulladır. Seçki günü, seçkidən öncə baş verənlərlə bağlı hesabatla çıxış edəcəyik. Seçkilərdə 12 namizədlə təmsil olunuruq".

Ümid Partiyasının sədr müavini Ənvər Ağazadə seçkiqabağı mühitdən narazı qaldıqlarını dedi: "Seçki ilə bağlı proses başlayan kimi namizədlərimizə qarşı total şəkildə hücuma keçdilər. Xeyli sayda namizədimiz qeydə alınmadı. Bu seçkilərdən heç bir gözləntimiz yoxdur. Əvvəlki seçkilərdən heç də fərqlənməyəcək. 2004-2009-cu illərdəki seçkilərə bənzər bir proses olacaq. Bu prosesi kifayət qədər müşahidə edəcək üzvlərimiz olacaq. Bundan sonra ümumiləşmiş şəkildə partiyamızın mövqeyi olacaq".

**ADP sədri Sərdar Cəlaloğlunun bu seçkilərdən gözləntiləri yoxdur. Partiya sədri hesab edir ki, əvvəlkilərdən fərqlənməyən bir seçki olacaq:** "Seçki rəqabət deməkdir. O seçkidəki müxalifət yoxdur, demək mənasızdır. Bu seçkilərdə demək olar ki, tam alternativ yoxdur. Əhalinin 1 və ya 2%-i gələ-gəlməyə. Bunu seçki kimi dəyərləndirmək olmaz. Bir neçə üzvümüz seçkidə iştirak edir. Çoxlu sayda üzvümüzə imkan verilmədi. Müşahidəçimiz yoxdur. Müşahidə o zaman ola bilər ki, seçki gününə kimi hər şey qanuni olar. Əgər seçkilər formal keçirilirsə, müşahidə etməyin heç bir mənası yoxdur. Mətbuatda da var idi ki, hansı bələdiyyənin sədri artıq məlum olub, nə qədər pul verib. Qeydiyyat proseslərində partiyalar qanun pozuntuları ilə üzləşdilər. Bütün bunlar sonrakı prosesləri izləməyi mənasızlaşdırır".

**VHP bu seçkilərə 181 namizədlə qatılır. Partiyanın İcra Aparatının rəhbəri Samir Əsədli seçkilərə inamlarının yüksək olduğunu bildirdi:** "181 namizədimiz qeydə alınıb. Təbliğat-təşviqat kampaniyasını partiya şəklində aparmadıq. Namizədlərin özü təbliğatlarını qurdular. Ümid edirik ki, seçki şəffaf və demokratik keçəcək. Namizədlərimizin seçilmə şansları daha yüksəkdir. Onlara etimad göstərmişik. Respublika üzrə 76 nəfər müşahidəçimiz qeydiyyatdan keçib. Hansı dairədə namizədimiz varsa, həmin yerdə müşahidəçilərimiz olacaq".

**Seçkilərdə aktiv şəkildə iştirak edən partiyalardan KXCP sədrinin müavini Xəzər Teyyublu namizədlərin özlərini təqdim etmələrində problemlərin yaşadığını qeyd etdi:** "Mən Nərimanov ərazisindən namizəd oldum. Müxalif partiyalardan yeganə namizədəm. Təbliğatımı mümkün qədər yüksək səviyyədə qurdum. 57 namizəd 19 yer uğrunda mübarizə aparır. Seçkilərdə əsas problemlərdən biri məntəqələrdə qohumları olan şəxslərin namizəd olmalarıdır. Bu, ciddi qanun pozuntusudur. Müşahidəçilərimizi müəyyənləşdirmişik. 500-ə yaxın namizəd bu seçkilərdə irəli sürdük. Yüzdən çoxunun qeydiyyata alınmasına nail olduq. Bir çoxları üzləşdikləri təzyiqlər nəticəsində geri çəkildi. Maneçilik olmazsa, namizədlərimizin əksəriyyətinin qalib gələcəyinə inanıram".

**Qeyd edək ki, seçkilərin nəticələrinin elan olunması 2015-ci il yanvarın 17-də başa çatacaq.**

Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 312 (6021) 23 dekabr 2014

# Bakı oliqarxlarının böyük toqquşması başlayıb

## Hakimiyyət mənsubları arasında müşahidə edilən gərginlik artıq partlayış həddinə çatmaqdadır; hər kəs savaş baltasını çəkib…

**Xəbər verdiyimiz kimi, nəqliyyat naziri Ziya Məmmədovla keçmiş şəriki "Bağlan Group"un sahibi Hafiz Məmmədovun ("Hafka") münasibətləri düşmənçilik həddinədək pisləşib. Bu ilin yayında "Hafka" ilə Məmmədovlar klanı arasında əsl səbəbləri hələ də tam açıqlanmayan nifaq daha da gərginləşib və nazir oliqarxla olan bütün mal-mülk bağlantılarını kəsməli olub.**




"Hafka"ya məxsus obyektlərə Məmmədovlar sahiblənməyə başlayıblar. Bu isə "Bağlan Group"un sahibini daha da qəzəbləndirib. İndi bütün ölkə Hafiz Məmmədovun Anar Məmmədova qarşı təhdid və qəzəb bəyanatından danışır.

Göründüyü kimi, artıq məmurlarımız açıq qarşıdurmaya başlayıblar. Nəzərə alsaq ki, ayrı - ayrı məmurlar kiçik silahlı dəstələrə malikdirlər, bunun nə ilə sonuclanacağını ehtimal etmək mümkündür. Bir sözlə, siyasi müstəvidə yeni mübarizə başlayıb və bu savaşda hər kəs öz adı ilə döyüşə atılır.

Əslində iqtidardaxili savaşın açıq müstəviyə keçəcəyi bəlli idi. Z. Məmmədovun və bənzərlərinin aqressivliyi bu döyüşü daha da şiddətli edir.

Azərbaycan hakimiyyətinə xarici və daxili təzyiqlərin artdığı bir zamanda, iqtidarın ən önəmli simalarının da savaş baltalarını havada yelləməsi, artıq savaşın kim-kimi məsələnə çevrildiyinin göstəricisi kimi dəyərləndirilə bilər. Şübhə yoxdur ki, hakimiyyət binalarında oturan və bu savaşı dərinləşdirənlər bütün bu proseslərin mərkəzi iqtidarı laxlatdığını gözəl dərk edirlər. Lakin sağlam məntiq onu deməyə əsas verir ki, heç kəs əyləşdiyi ağacın budağını kəsmək istəməz. Deməli, hədəfdə daha böyük məqsədlər var. Ehtimal etmək olar ki, bu hədəf qarşıdan gələn parlament seçkiləridir. Vertikal sui-qəsdin həyata keçirildiyi də ehtimal oluna bilər. İstisna deyil ki, hakimiyyətdəki müəyyən qrupun Milli Məclis sədri postuna öz namizədi ola bilər. Maraqlıdır ki, adıçəkilən bu savaş ən amansız formada aparılır. Ziya Məmmədov və Hafiz Məmmədov arasındakı son qalmaqal artıq onu deməyə əsas verir ki, həddən ziyadə şişən nazir Məmmədov özünü artıq ölkənin ikinci şəxsi hesab edir.

Belə anormal münasibətlərlə iqtidar növbəti seçkilərə gedir. Əvvəlki seçkilərlə müqayisədə bu dəfə hakimiyyətdaxili muxtar komandalar daha artıq iddialarda bulunurlar. Onların hədəfində spiker postundan tutmuş, baş nazir, nazirliklərin bölüşdürülməsi, siyasi və iqtisadi sferanın tam ələ keçirilməsi kimi məsələlər var. Qruplardan birinin maraqlarını təmin etmək digərlərinin narazılığı və təpkisi ilə nəticələnə bilər. Bu isə hakimiyyət üçün son dərəcə ağır sonuclar verər.

Vurğulayaq ki, indiyə qədər daha güclü qruplar nisbətən zəif qruplaşmaları sıradan çıxartmaqla məşğul idi. İndi isə siyasi müstəvidə təqribən eyni gücə malik qruplar mübarizə aparır və bu mübarizədə qələbə anlayışının özü də nisbi ola bilər.

Yaranmış vəziyyət ölkədə kadr islahatlarının aparılmasını zəruri edir. Belə komanda ilə seçkiyə getmək, uğur qazanılacağı təqdirdə belə, ciddi problemlər deməkdir.

Düzdür, yaranmış vəziyyətdə hakimiyyətdaxili qruplaşmaların hamısını eyni zamanda zərərsizləşdirmək də siyasi hakimiyyət üçün təhlükəli ola bilər. Bu baxımdan, adıçəkilən qrupların "xaç ataları"nın cəzalandırılması, qrupların maraqlarının nisbətən saxlanılması çıxış yolu kimi dəyərləndirilə bilər. Lakin məsələ heç də kiminsə "qırmızı vərəqə" almasında da deyil. Söhbət "artıq yüklər"dən azad olmaqdan gedir. Əks təqdirdə, hakim elita özü bütövlükdə iflas olar.

Nəzərə alsaq ki, seçkilərin vaxtı yaxınlaşdıqca daxili savaş daha da qızışacaq, qabaqlayıcı tədbirlərin görülməsi qaçılmaz görünür. Bu baxımdan, siyasi hakimiyyətin islahatlara başlaması ən optimal variant kimi dəyərləndirilə bilər.

Əks təqdirdə, Azərbaycanda siyasi proseslərin taleyi küçələrdə həll edilə bilər. Hakimiyyətdaxili gərginlik münasibətlərin "reketsayağı" həllinə səbəb olmaqdadır. Artıq vaxtaşırı narazı qrupların şəhər küçələrində, əyləncə mərkəzlərində "qanlı razborka"larının şahidi oluruq. İqtidarın çox qürrələndiyi sabitliyin artıq qoxusu belə qalmayıb. Proseslər isə artan xətt üzrə inkişaf etməkdədir. Nəzərə alsaq ki, cəmiyyətdə cəzasızlıq sindromu yaşanmaqdadır və qisasçılıq əsas məqsəd sayılır, yaxın zamanlarda nələrin baş verə biləciyini ehtimal etmək o qədər də çətin deyil. Bir sözlə, Z. Məmmədov və bənzərləri artıq hakimiyyətin baş ağrısına çevriliblər və onlarla vidalaşmaq zamanı çatıb...

❑ **Azər RƏŞİDOĞLU**

# Yasamal İcra Hakimiyyətində qandonduran olay

## İcra başçısı İbrahim Mehdiyev müəllimin ölümündən sonra heç nə olmamış kimi iclası davam etdirib

**Yasamal Rayon İcra Hakimiyyətində dekabrın 19-da baş verən ölümlə bağlı məlumat vermişdik. Həmin məlumatda bildirilirdi ki, Yasamal Rayon İcra Hakimiyyətinin binasında keçirilən iclas dekabrın 23-nə təyin olunmuş bələdiyyə seçkiləri ilə bağlı olub. İclas icra başçısı İbrahim Mehdiyevin sədrliyi ilə baş tutub. Başçı çıxışına başlayandan az sonra rayon ərazisindəki fizika və riyaziyyat təmayüllü liseyin müəllimi, 1949-cu il təvəllüdlü Allahverdi Məmmədovun ürəyi sıxılıb. Ətrafdakılar müəllimə yardım etmək istəsələr də, buna nail olmayıblar.**

Yeni məlumat isə ondan ibarətdir ki, müəllim vəfat etdikdən sonra onun meyitini balkona qoyaraq (!?) iclası davam etdiriblər.

Qaynağımız bildirib ki, müəllim iclasdan əvvəl özünü pis hiss edib. Lakin ona evə getməyə icazə verilməyib, iclasda iştirakının vacibliyi diqqətinə çatdırılıb.




Aldığımız məlumatı dəqiqləşdirmək üçün Yasamal Rayon İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar şöbəsinin müdiri Zöhrab Cəfərovla əlaqə saxladıq. Z.Cəfərov məsələ ilə bağlı anspress-ə və digər mətbuat orqanlarına açıqlama verdiklərini bildirdi. Şöbə rəisi həmin məlumatı "kifayət qədər ətraflı məlumat" adlandıraraq suallarımızı cavablandırmaqdan imtina etdi.

ANSPRESS-ə verilən məlumat "Yeni Müsavat"a daxil olan məlumatı dolayısı ilə təsdiq edir.

"Allahverdi Məmmədovun əvvəllər də ürəyində problemlər vardı. Dəfələrlə deyirdik ki, get müalicə olun. Toplantıya 15-20 dəqiqə qalmış iclasa gəldi. Rəngi ağarmışdı. Halı yaxşı deyildi. Bir neçə dəqiqə sonra vəziyyəti daha da pisləşdi. İclasa gələnlər arasında tibbi bilikləri olanlar da vardı. Onlar kömək etməyə başladılar. Təcili yardım həkimi çağırdıq. Amma heç bir xeyri olmadı. Həkimlər gələnə qədər Allahverdi müəllim dünyasını dəyişdi. Çox yaxşı insan idi" deyə, Yasamal Rayon İcra Hakimiyyətindən bildirilib.

Bu məlumatdan müəllimin ürəyində problemlərin olması haqda iclası keçirən icra başçısının məlumatlı olması qənaəti formalaşır.

**Mövzuya qayıdacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bir mandat da xanım Seyidcahanın olsun



**Samir SARI**

**Əsas odur ki, icra başçıları adama deputat olmağı təklif etsin. Əsas seçici onlardır. Bir icra başçısı kiməsə deputat görmək istəyirsə, deməli, həmin şəxsin deputat olması artıq 50 faiz civarında baş tutub. Yerdə qalan 50 faiz isə İH başçısının təklifini müsbət qiymətləndirən mandatverənlərdən asılıdır.**

Bundan daha yaxşısı hansısa nazirin adama deputat mandatı söz verməsidir. Bu halda adamın mandat ala bilməsi ehtimalı artıq 75 faizdir.

Hələ bir ranq da var. Deputat olmaq istəyən şəxsə mandat vədini oliqarx-nazirlər, yəni ölkədə sözü keçən beş nazirdən biri versə, adam getsin özünə köməkçi götürsün, seçiciləri ilə görüşmək üçün ofis kirayələsin, hansı xarici ölkənin parlamenti ilə dostluq qrupuna daxil olmaq istəyirsə, seçsin və s. Çünki o nazirlərin sözü yerə düşməz, onların əlində hansısa simsar adama deputat mandatının peşkəş edilməsinə nail olmaq su içim asanlığındadır.

Amma ən hörmətli-izzətli İH başçısının kiməsə mandat vədi verməsi bir az risklidir. Sövdə alınmaya bilər. Ona görə ki, hazırda İH başçıları mandat bölüşdürülməsi kimi dövlət əhəmiyyətli işlərə çox yaxın buraxılmırlar.

Bu baxımdan tanınmış müğənni-bəstəkar-şairə Elza Seyidcahana hansı icra başçısının, yaxud da başçılarının deputat olmağı təklif etməsi müəmmalıdır. Güman ki, Elza xanım indən belə onların adını heç açıqlamayacaq. Sarayda belə şeylərə pis baxırlar. İH başçısının müğənni xanıma mandat düzəltdiyi deyil, ara yerdə öz kreslosunu da itirmək təhlükəsi qarşısında qala bilər.

Hələ onu da deyək ki, sənətçilərin deputat olmaq istəməsi presedenti ilk deyil. Parlamentin əvvəlki çağırışlarında da müxtəlif sənətçilər deputat olmaq fikrinə düşmüşdülər. Güman ki, onlara da bu təklifi İH başçıları, yaxud da nazirlər vermişdilər. Amma belə alındı ki, bəzi sənətçilər mandat alıb parlamentə düşə bildilər, bəziləri isə seçilmədilər. Güman ki, İH başçılarının namizədləri nazirlərin namizədlərinə uduzdular.

Bu iş məsləhətlə olmalıdır. Xanım Seyidcahan özü bu barədə deyib ki, əgər dövlətimiz məsləhət görərsə, millət vəkilliyinə öz namizədliyini verəcək. Yəni dövlət, müstəqil Azərbaycan Respublikası məsləhət görməsə, o, namizdəliyini irəli sürməyəcək.

Burada deyilə bilər ki, bəs xalq, bəs seçicilər, bəs elektorat, onların namizəd irəli sürmək, deputat seçmək hüququ yoxdurmu. Prinsipcə, belə bir söz hər dəqiqə deyilə bilər, amma onu deyənə ya ağır cavab verərlər, ya da heç nə deməzlər, bir gün dolaşdırıb tutarlar.

Deyim ki, bəstəçi xanım hazır deputatdır, hətta diplomatdır. Bunu isə ona İH başçıları yox, ölkəmizin xaricdəki səfirliklərinin işçiləri deyiblər. Hər nə niyyətlə deyiblər, Allah qəbul eləsin.

Özü də seçkilər zamanı onun seçilmə ehtimalı daha çoxdur. Çünki bölgələrdə hər kəs onu sevir. Zarafat deyil, neçə illərdir ki, Azərbaycanın rayonlarını qarış-qarış gəzib, istedad sorağına çıxıb. Bölgələrdə yaşayan xalqımızın ona qarşı olan istək və rəğbətini özü görüb. (Bunlar hamısı sitatdır).

Xanımın yerinə kim olsa, gedib xaricdə yaşayar, çünki oradan çoxlu təkliflər gəlir. Amma Elza xanım xalqımızı, vətənimizi və dövlət başçımızı sevdiyi üçün başqa ölkədə yaşamağı özünə rəva görmür. Bunları da qəzetçilərə xanım özü deyib.

2015-in payızına nə qalıb ki? 11 ay. Ola bilər, gələn il bu vaxt biz parlamentdə onu da görəcəyik. Yəni nəzəri baxımdan mümkündür. Niyə də olmasın?

Tam səmimiyyətlə, inana-inana yazıram ki, Elza Seyidcahan parlamentin indiki tərkibinin ən azı yarısından yaxşı deputat olar. Arada çıxış-zad da edər. İllərlə ağzını açmayan, yaxud yaralı barmağa ilk tibbi yardım göstərməyən onlarla deputat var, nəinki şeir yaza bilmirlər, heç əzbərləməyi də bacarmırlar.

Ona görə də qoy media əhli xanımın mandat eşqini şairlik sevdası kimi hoydu-hoyduya götürməsin, rişxənd eləməsin.

Əsl rişxənd edilesi adamlar hələ ortada görünmür. Bir azdan peyda olacaqlar. Özü də onlara mandatı İH başçıları yox, daha yüksək vəzifə yiyələri söz veriblər.

YENİ MÜSAVAT
N 312 (6021) 23 dekabr 2014



## Ermənistana məcburi eniş edən azərbaycanlılarla bağlı ilginc detal

### Hikmət Cavadov: "AZAL-da qiymətlər yüksək olduğundan tələbələr Kiyev-Tiflis reysindən istifadə edir"

### Məhərrəm Səfərli: "Bu, subyektiv yalandır"

**Xəbər verdiyimiz kimi, "Ukrayna Hava Yolları"na məxsus Kiyev-Tiflis reysini həyata keçirən təyyarə nasazlıq səbəbindən İrəvana məcburi eniş edib. Bu zaman təyyarədə 25 azərbaycanlı da olub. Aeroportda təyyarədən düşmək istəməyən azərbaycanlılar sonradan gözləmə zalına aparılıblar.**

Burada onlara sərhəd-keçid məntəqəsində pasportlarına möhür vurularaq quru yolu ilə Gürcüstana getmək təklif olunub. Azərbaycanlıların israrından sonra onlara təyyarənin təmirini gözləmək məsləhət görülüb. Uzun müddət aradan sonra onlar təyyarə ilə Tiflisə yola salınıb.

Təyyarədəki 25 azərbaycanlının əksəriyyəti tələbə olub. Bunu anspress-ə açıqlamasında Ukraynadakı Azərbaycan diasporunun sədri Hikmət Cavadov deyib. O, məcburi eniş edən uçaqda diaspora nümayəndəsinin də olduğunu söyləyib. Hikmət Cavadov qeyd edib ki, Yeni il ərəfəsi olduğundan, azərbaycanlı tələbələr Azərbaycana getməyə başlayıb: "AZAL-da qiymətlərin baha olması və bilet tapmaq çətinliyi yarandığı üçün tələbələr Kiyev-Tiflis reysindən istifadə edirlər. 25 həmyerlimiz İrəvan aeroportunda bir müddət gözləməli olub və daha sonra uçuş həyata keçirilib".

**"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin xidmət rəisi Məhərrəm Səfərli isə "Yeni Müsavat"a açıqlamasında baş vermiş hadisədə AZAL-dakı qiymətlərin bahalığı faktorunun qabardılmasını doğru saymadığını söylədi:** "Bu barədə deyilən fikir subyektiv yalandır. Mən qiymətlərin bahalığı ilə bağlı iddialara elə sizin qəzetiniz vasitəsilə cavab vermişəm. Bildirmişəm ki, qiymətlərin yüksək olmasının səbəbi dünya aviabazarında şirkətlər arasında rəqabətin getməsidir. Səbəb odur ki, "Azərbaycan Hava Yolları"nın təyyarələrində servis çox yüksək səviyyədədir. İkinci səbəb isə odur ki, təyyarələrimiz təzədir, Avropa istehsalıdır, təhlükəsiz və komfortludur. Ola bilər ki, başqa ölkələrdə köhnə təyyarələrlə daha ucuz uçuşlar həyata keçirilsin, orada servis günün tələblərinə cavab vermir. Elə aviaşirkətlər var ki, orada uçuş zamanı bir stəkan su da istəsən, pulunu verib, içməlisən. Amma bizdə xidmət, qida pulsuzdur, yüksək səviyyədə təmin olunur. Məsələn, Gürcüstanda uçan təyyarələr AZAL-ın təyyarələri ilə keyfiyyət və təhlükəsizlik baxımından müqayisə edilə bilməz. "Azərbaycan Hava Yolları" yüksək xidmət göstərməsinə görə beynəlxalq sertifikat alıb. Digər tərəfdən, bizim şirkət aşağı büdcəli bir şirkət deyil. Yəni az büdcə ilə işləmirik, AZAL fullservis şirkətidir. Biz təyyarələrdə qida, sərinləşdirici içkilər, əyləncə, kino və baqaj xidməti göstəririk. Üstəgəl, airbus 319/320 təyyarələrində sərnişinlərimizə "Narmobile" xidməti göstəririk. Sərnişinlər istənilən hündürlükdə dünyanın istənilən nöqtəsi ilə danışa bilərlər".

**Müsahibimiz dedi ki, baş vermiş məlum qəza ilə bağlı AZAL-ın hər hansı öhdəliyi yoxdur:** "O sərnişinlər bizim şirkətlə uçmayıblar. Onların taleyi ilə bağlı Xarici ölkələrdə yaşayan azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi maraqlanmalıdır".

"Yeni Müsavat" isə xatırladır ki, analoji hal bu ilin avqust ayında da baş verib. 26.08.2014-cü il tarixində Dubaydan Moskva reysi ilə uçan "Aeroflot" aviaşirkətinin təyyarəsi Ermənistanın paytaxtı İrəvanda eniş edib. Buna səbəb təyyarədəki Azərbaycan vətəndaşının - sərnişinin sərxoş olması və digər sərnişinlərlə kobud rəftar etməsi olub. İrəvana enən təyyarə 2 saat yarım orada qalıb. Sərxoş şəxsi Ermənistan hakimiyyətinə təhvil vermək istəsələr də, yerli hakimiyyət orqanları bundan imtina edib. Ermənistan polisləri onun əllərini yalnız qandallamaqla kifayətlənib. Təyyarənin ekipaj üzvləri hadisə yerinə çağırılan təcili tibbi yardım həkimlərinə həmin adamı sakitləşdirmək üçün ona yuxugətirən iynə vurmağı məsləhət görüblər. Əlləri qandallanan şəxsə iynə vurulub və o yuxuya gedəndən sonra təyyarə Moskvaya uçub. Azərbaycanlı Moskvada polisə aparılıb.

Ekspertlər isə xatırladır ki, Azərbaycanın da qoşulduğu beynəlxalq konvensiyalar bu sayaq halların yaşanmasına imkan vermir. Belə ki, faktiki müharibə şəraitində olan iki ölkənin vətəndaşlarına qarşı belə davranışı qadağan edir. İndiki halda isə Azərbaycan hökuməti, eləcə də azərbaycanlı sərnişinlər "Ukrayna Hava Yolları"ndan məhkəməyə şikayət edə bilər.

❑ **Sevinc TELMANQIZI**

## Əfv siyahısı hazırdır, İşçi Qrup ad çəkmək istəmir...

### Komissiyaya göndərilən siyahıya 27 siyasi məhbusun adı salınıb

**İlk sona yaxınlaşdıqca, yenidən əfvlə bağlı müzakirələr gündəmə gəlir. İmzalanması gözlənilən sərəncamda hansı siyasi məhbusların adlarının olacağı vətəndaş cəmiyyətini düşündürür. Bir neçə ay əvvəl fəaliyyətini bərpa edən İşçi Qrupun bu istiqamətdə hansı nəticələrə nail olacağı da diqqətlə izlənilir.**



**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı musavat.com-a açıqlamasında qrupun hər hansı siyahısının olmadığını deyib:** "İşçi Qrupunun ötən dəfəki iclasında müzakirə oldu, NİDA-çıların, xəstə məhbusların, barəsində Avropa Məhkəməsinin qərarı olanlar haqda məsələ qaldırmışıq, onların problemləri qaldırılıb. Bəlkə də onlarla bağlı siyahı hazırlanıb, ancaq mən bundan xəbərsizəm. Biz müzakirə etdiyimiz məhbusların sənədlərini Əfv Komissiyasının katibliyinə vermişik. Ad çəkib, ailələri ümidli etmək istəmirəm".

**Arzu Abdullayeva isə bildirib ki, İşçi Qrupu bir aydan çoxdur ki, yığışmır:** "İndi hüquq müdafiəçiləri, özümüz təşəbbüs göstəririk ki, İşçi Qrupu yığışsın və ötən dəfə qaldırdığımız problemlərin həlli ilə maraqlanaq. Amma ayrı-ayrılıqda müxtəlif instansiyalarla - Ədliyyə Nazirliyi, Baş Prokurorluq və digər instansiyalarla görüşlərimiz olub, onların da cavabını gözləyirik. Əfv gözlənilir. Biz siyahıda kimlərin olacağını deyə bilmərik, ancaq müzakirə etdiyimiz şəxslər ki var, onların adlarının həmin siyahıya salınmasını xahiş edirik".

**Hüquq müdafiəçisi qeyd edib ki, onlar həmkarları olan hüquq müdafiəçilərinin, İntiqam Əliyevin, Rəsul Cəfərovun, Leyla və Arif Yunusların, Hilal Məmmədovun, İlqar Məmmədovun, Tofiq Yaqublunun, Yadigar Sadıqovun, həmçinin NİDA-çı gənclərin məsələsini qaldırıblar:** "Hələ ki Əfv Komissiyası yığışmayıb. Ancaq Komissiya ilə işimizi aparırıq, katibi ilə danışıqlarımız, müzakirələrimiz olub. Ümidliyik".

**İşçi Qrupun deputat üzvü Çingiz Qənizadə də qeyd edib ki, hazırladıqları siyahıdakı şəxslərin adlarını çəkə bilməz:** "Heç nə deyə bilmərəm. Ancaq düşünürəm ki, heç kəs diqqətdən kənarda qalmayacaq. Biz ictimai-siyasi həyatda olan insanlarla bağlı müzakirə aparmışıq, fərdi müraciətlər var, onları da müzakirə etmişik. Nəticədə tövsiyə xarakterli müraciət hazırlamışıq və Əfv Komissiyasına göndərmişik. Biz də ümid edirik ki, əfv verilərkən İşçi Qrupunun siyahısındakı şəxslər, hüquq müdafiəçilərinin müraciəti nəzərə alınacaq".

**Novella Cəfəroğlu bildirib ki, İşçi Qrupunun hazırladığı siyahı yekunlaşmaq üzrədir:** "Hələ dəqiq deyə bilmərəm həmin siyahıda kimlər olacaq. Bütün bunlar qrupun iclasında müzakirə olunacaq və yekun siyahı prezidentə göndəriləcək". **N.Cəfəroğlu hazırladıqları siyahıya 27 nəfər siyasi məhbusla yanaşı, əfv üçün müraciət edən sadə vətəndaşların da adının daxil edildiyini bildirib:** "Bizim siyahıda 27 siyasi məhbus adı var. Digərləri üçün isə qeyd etmişik ki, məhkəmə olsun, buraxsınlar. Biz siyahımıza 100 nəfərin olduğu siyahıda olan bəzi şəxsləri də salmışıq. Burada kriteriyaları Avropa Şurasının siyasi məhbus normalarına uyğun olanları götürmüşük".

**Öz növbəsində hüquq müdafiəçisi Səidə Qocamanlı deyib ki, mətbuatda müzakirə olunan "100 nəfərlik siyahı"nın onlara aidiyyəti yoxdur:** "Bizim siyahıda əfv ərizəsi yazan, xəstə, cəzasının üçdə birini çəkənlərin adı qeyd olunub. İndi onlardan kimlərin düşəcəyi bəlli deyil. Biz də böyük ümidlə gözləyirik. Bizim sonuncu iclasımız noyabrda olub, siyahı da onda hazırlanıb".

**Monitorinq Qrupunun üzvü Səadət Bənəniyarlı isə İntiqam Əliyev, Leyla Yunus, Arif Yunus, Anar Məmmədli, Rəsul Cəfərov və daha bir neçə şəxsin adının siyasi məhbus siyahısına salınmadığını deyib:** "Biz İşçi Qrupunun iclasından sonra kimlərin məsələsinə və hansı müstəvidə toxunduğumuzu müəyyən etmişik. İntiqam Əliyev, Leyla Yunus və digər həbs olunanlar haqda həbs-qətimkan tədbirinin dəyişdirilməsi üçün müraciət etmişik. Çünki onlar haqda məhkəmə hökmü olmadığı üçün əfv müraciətinin müzakirəsinə ehtiyac yox idi. Amma barələrində məhkəmə qərarı olan NİDA-çılar, İlqar Məmmədov, Tofiq Yaqublu, Əli İnsanov və digərləri üçün əfv müraciəti edildi. İntiqam müəllimgil haqda məhkəmə qərarı olmadığından adları 27 nəfərin olduğu siyasi məhbus siyahısına salınmadı. Onlar üçün etdiyimiz həbs-qətimkan tədbirinin dəyişdirilməsi haqda müraciətimizə cavab gözləyirik".

❑ **Röya RƏFİYEVA**

## Regional qaz idarəsi müdirinə şok korrupsiya ittihamı

### İdarə müdiri üç rəisin əmək haqqı kartını mənimsəyib; sahibkarlar dilə gəldi: "140 manat rüsum əvəzinə bizdən 1000-1500 manat alдırır"

**Salyanın Qarabağlı kəndinin qışın ortasında qazsız qoyan rayon Qaz İdarəsinin müdiri Xəyyam Rzayev yenidən mətbuatın gündəminə gəlib. 2009-cu ildə bir mübahisə zəminində bütöv bir kəndin - Qarabağlının qazını kəsdirən müdir mətbuatın məsələyə diqqətindən sonra bir müddət işdən uzaqlaşdırılıb. İndi məlum olur ki, həmin vaxt uşaqlaşdırılma müvəqqəti xarakter daşıyıb. Üstəlik, X.Rzayevin vəzifəsini böyüdüblər. Onu yeni yaradılan Salyan Regional Qaz İdarəsinə müdir təyin ediblər.**




Rayonun Qarabağlı, Kərimbəyli, Qaraçala kəndlərindən "Yeni Müsavat"a daxil olan məlumatda qeyd olunur ki, X.Rzayev qanunsuz əməllərini ARDNŞ-də müşavir işləyən əmisi Ağasəf Rzayevə güvənərək həyata keçirir.

Son məlumata görə, X.Rzayevin göstərişinə əsasən, Salyanın kəndlərində sayğac əməliyyatı həyata keçirilir. Qaraçala, Qarabağlı və Kərimbəyli kəndlərində Teymur Həsənov və Ceyhun Abışov adlı şəxslər istixanalara qaz sayğacı quraşdırmaq üçün sahibkarlardan 1000-1500 manat pul tələb edirlər.

Rasim adlı istixana sahibi qaz idarəsinin qeyri-rəsmi işçisi Teymur Həsənova etiraz etsə də, sonda 1000 manat ödəyib. 140 manata olan sayğaca görə ondan 1000 manat alındığını bilincə sahibkar "Azəriqaz" QSC sədri Əkbər Hacıyevə şikayət edib.

Sahibkarlar bildirirlər ki, X.Rzayev qaz sahə rəislərinin, idarə müdirlərinin yerini tez-tez dəyişməklə həmin şəxsləri özündən asılı vəziyyətə salır. **"Azəriqaz" QSC-nin əsasnaməsinə görə, regional qaz idarəsi müdirinin xidmət üzrə 7 müavini olmalıdır:** "Müavinlərin hər biri 7 rayondan birinin müdiri təyin olunmalıdırlar. Sabirabad rayonuna Roman adlı keçmiş elektrik şəbəkəsində bir yerdə işlədiyi həmkarını, İmişliyə Vasif adlı şəxsi xidmət üzrə müavin təyin etmək üçün bütün səylərini birləşdirib. Xəyyam Rzayev artıq Anar adlı öz əlaltısını Şirvan Qaz İdarəsinə rəis təyin edib.

Akif adlı şəxsin Salyan rayonu üzrə müavin təyin olunmasına baxmayaraq, həmin adamı işə buraxmır. Anar, Roman, Vasif və digər şöbə müdirlərinin əmək haqqı kartları aylardır ki, Xəyyam Rzayevdədir.

Xəyyam Rzayev yaxın adamlarına deyib ki, regional idarəyə rəis vəzifəsinə əmisi Ağasəf Rzayev onu təyin etdirsə də, 80 min manat xərci çıxıb. Sələmlə borc pul götürüb. Hətta bir dəfə sələm sahibləri pulu gecikdirdiyi üçün qaz idarəsində hay-küy salıblar".

**Sahibkarlar deyirlər ki, X.Rzayev 2 avtomobilini sataraq sələmçilərə faizini ödəyib:** "Xəyyam Rzayev ətrafında olanlara deyib ki, regional idarəyə müvəqqəti təyin edilib. Əmisi Ağasəf Rzayev ona söz verib ki, Əkbər Hacıyevin təbii qazın satışı və istismarı üzrə müavini Qamət Məmmədovun yerinə təyin etdirəcək".

❑ **E.HÜSEYNOV**

***P.S.*** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

# Cəzaçəkmə müəssisəsinə qoşun yeridilib

**14 saylı cəzaçəkmə müəssisəsində məhkumların qiyamı baş verib. Bu barədə "Yeni Müsavat"a daxil olan məlumata görə, məhbuslar cəzaçəkmə müəssisəsindəki dözülməz şəraitə, müəssisə rəhbərliyi və əməkdaşlarının kobud rəftarına etiraz ediblər. Vəziyyətin nəzarətdən çıxdığını görən müəssisə rəhbərliyi yuxarı instansiyaya müraciət edib və nəticədə ora xüsusi təyinatlı qoşun hissələri yeridilib.**



# 14-cü "zon"da dustaq öldü, qiyam qalxdı

## Məhbuslardan birinin işgəncə ilə öldürülməsindən sonra məhkumlar ayağa qalxıb; Penitensiar Xidmət olayla bağlı rəsmi məlumat yayıb; bir neçə il əvvəl də bu "zon"da dustaqlar qiyam etmişdi; 3 siyasi dustağa görə əndişə var...

İstiqamet.com-un yaydığı məlumatda isə qeyd olunur ki, narazılığa səbəb həmin müəssisədə cəza çəkən 22 yaşlı Bakı sakini Adil adlı şəxsin (soyadını biz də dəqiqləşdirə bilmədik) ölümüdür. Məhbuslar bildirirlər ki, məhbus aldığı işgəncələrdən sonra ölüb. Müəssisədə məsul post tutan mayor rütbəli Firdovsi adlı şəxs, rejim rəisi, baş leytenant Faiq adlı şəxs bir neçə xidmətçi ilə birlikdə məhbusa qarşı kobud rəftara yol veriblər. Məhbusun meyiti bu gün (dekabrın 22-də) cəzaçəkmə müəssisəsindən çıxarılıb. Məhbuslar işgəncəyə etiraz olaraq ayağa qalxıblar.

Müəssisənin ətrafına çoxsaylı post-patrul xidməti maşınları yerləşdirilib. Siyasi məhbuslar Yadigar Sadıqov, Qurban Məmmədov, jurnalist Sərdar Əlibəyli də orada saxlanılır. 14 saylı cəzaçəkmə müəssisəsində əsasən az ağır cinayətlərə görə məhkum olunan, ilk dəfə məhkumluq həyatı yaşayan şəxslər saxlanılır. Buna baxmayaraq, müəssisə məhbuslar üçün ən ağır müəssisələrdən biri kimi tanınır. Qaradağ rayonu, Qızıldaş qəsəbəsi ərazisində, daş karxanalarının yaxınlığında yerləşən 14 saylı cəzaçəkmə müəssisəsi küləkli havada vəziyyət dözülməz olur.

**Penitensiar Xidmətin mətbuat xidməti məsələ ilə bağlı sorğumuzu yazılı şəkildə cavablandırıb. Həmin cavabı təqdim edirik:** "22.12.2014-cü il səhər saat 10 radələrində 14 saylı cəzaçəkmə müəssisəsində bir neçə məhkum daxili intizam qaydalarını kobud surətdə pozaraq, digər məhkumların həyat və sağlamlıqlarına təhlükə yarada biləcək hərəkətlərə yol veriblər. Ədliyyə Nazirliyinin rəhbərliyinə hadisə barədə məruzə edilib. Müəssisənin ətrafına aidiyyəti qurumların əməkdaşları cəlb olunublar. Penitensiar Xidmətin Baş İdarəsinin rəhbər əməkdaşları müəssisəyə daxil olaraq, daxili intizam qaydalarını pozmağa cəhd edən məhkumlara qanunun tələblərini izah edib və qısa zaman ərzində cəzaçəkmə müəssisəsində sabitlik bərpa edilib. Cəzaçəkmə müəssisənin ətrafına gətirilmiş xüsusi qüvvələr dislokasiya yerlərinə qaytarılıb. Penitensiar Xidmət rəhbərliyi bir daha bəyan edir ki, cəzaçəkmə müəssisələri daxilində əmin-amanlığı pozmağa yönələn hərəkətlərin qarşısı qanun çərçivəsində qətiyyətlə alınacaqdır".

Qeyd edək ki, 2012-ci il sentyabrın 9-da da 14 saylı "zon"da qiyam baş verməişdi.

❑ E.MƏMMƏDƏLİYEV




# Polis rəislərinin dəyişdirilməsi xəbəri təsdiqlənmir

**Bakı Şəhər Baş Polis İdarəsinin rəisi general-mayor Mirqafar Seyidovun təqdimatı ilə daxili işlər naziri Ramil Usubov Bakının 4 rayonunun polis rəislərinin dəyişdirilməsi barəsində əmr imzalayıb. Aznews.az xəbər verir ki, əmrə əsasən Nizami, Xətai, Nərimanov və Səbayel rayonlarının polis idarələrinin rəisləri vəzifələrindən azad edilərək, yeni vəzifələrə təyin olunublar. Nizami RPİ-nin rəisi Nofəl Məhərrəmov Səbayel RPİ-yə, Səbayel RPİ-nin rəisi İlqar Mahmudov Xətai RPİ-yə, Xətai PRİ-nin rəisi Əkbər İsmayılov Nərimanov RPİ-yə, Nərimanov RPİ-nin rəisi Muradəli Babayev isə Nizami RPİ-yə rəis təyin edilib.**

"Yeni Müsavat" yayılan məlumatı dəqiqləşdirmək üçün qeyd edilən polis idarələri ilə əlaqə saxlayıb. Maraqlıdır ki, adları çəkilən idarələrdə rəislərin yerdəyişməsindən məlumatsızdırlar. Rəislərə bu haqda əmr elan olunmayıb. Hazırda hər bir rəis tutduğu vəzifənin icrasını davam etdirir. Daxili İşlər Nazirliyindən isə belə bir əmrin verilməsi haqda məlumatsız olduqlarını bildiriblər.

❑ E.HÜSEYNOV

# Wikileaks yenidən meydana qayıdır?

## Arzu Nağıyev: "Siyasi manevrlərlə bağlı bu məlumatların qəsdən sızdırılması da istisna edilə bilməz"

**Wikileaks olaylarının 4 ili tamam olur. 4 il əvvəl, 2010-cu ilin dekabrında dünya mediasına bomba kimi düşən Wikileaks olayları ABŞ hökumət orqanları, eləcə də bir çox ölkələri siyasi və hərbi xadimləri üçün ciddi problem yaratdı. Avstraliyalı jurnalist Culian Assancın rəhbərlik etdiyi şəbəkə ABŞ hökumətinin məxfi yazışmaları, eləcə də kəşfiyyat məlumatları, siyasi, diplomatik görüşlər və iqtisadi sahəyə aid bir çox mühüm məlumatlar üzə çıxarılaraq yayıldı.**

Wikileaks məlumatları sayt üzərindən dünyanın nüfuzlu qəzet və agentliklərinə göndərilir və burdan da ən çox diqqət cəlb edən, sensasiyalı materiallar tirajlanırdı. Sonradan bütün bu məlumatlar ictimaiyyət üçün açıq oldu və əksər media orqanları, həvəskar araşdırmaçılar bu fayllara baxıb araşdırma apara bilirdilər.

ABŞ hökumətinin məxfi sənədlərinin yayılması Vaşinqtonun siyasi etibarını xeyli dərəcədə zəiflətdi. ABŞ rəsmilərinin müxtəlif ölkələrin siyasi, diplomatik rəhbərləri ilə keçirilən görüşləri yazı şəklində Vaşintona göndərməsi, eləcə də müxtəlif, əslində demək olar ki, bütün dünya ölkələrindəki səfirliklər vasitəsilə toplanan bilgilər, hesabatların Vaşinqtona göndərilməsi, məxfi görüşlərin yazıya alınması dünyada ciddi narahatlıqla qarşılandı. Hətta Vaşinqton rəsmi açıqlama ilə çıxış edərək dünya ölkələri ilə əməkdaşlığı davam etdirməyə çağırıb.

Bundan başqa, həm Culian Assanc, həm də məxfi məlumatların ötürülməsini təmin edən ABŞ ordusunun əsgəri Bredli Menninq barəsində həbs qərarı çıxarılsa da, yalnız ikincisi həbs olunaraq hərbi məhkəmədə mühakimə olundu. Assanca qarşı bir sıra iddialar qaldırılsa da, onu həbs edib mühakimə etmək mümkün olmadı.

Bugünlərdə isə Wikileaks ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) hava limanlarının gömrük xidmətlərindən, o cümlədən Avropa Birliyi ölkələrinə saxta pasportlarla qanunsuz keçilməsi haqda iki məxfi məruzəsini dərc edib. Belə ki, məxfi sənədlər məmur adı altında gizlənən MKİ agentlərinə bütün dünya üzrə pasport yoxlanışından yan ötməyə kömək etməyi nəzərdə tutur. Sənədlər sərhədlərin keçilməsi və viza qaydaları, elektron sistemlərin həcmi və məzmunundan, sərhəd qoşunlarının protokol hərəkətlərindən və s. ətraflı bəhs edir. Təlimatlarda habelə sərhədçilər tərəfindən şübhələrin yarandığı təqdirdə sorğu-suala daha yaxşı necə hazırlaşmaq və ondan necə keçmək haqda tövsiyələr əksini tapıb.



Arzu Nağıyev

**Politoloq, keçmiş təhlükəsizlik orqanı əməkdaşı Arzu Nağıyev deyir ki, açıqlanan sənəddə hər bir praktik xüsusi xidmət orqanı zabitinə öz peşəkar fəaliyyətində istifadə etdiyi və xidməti istifadə üçün nəzərdə tutulan təlimatlardan başqa elə bir gizli məsələ ortaya çıxarılmayıb:** "Maraqlısı da odur ki, məlumatlar əsasən ABŞ-ın diplomatik korpusu və MKİ-nin yazışmasından əldə edilənlərdir. Aydındır ki, hər bir diplomatik korpus və orada fəaliyyət göstərən diplomatlar, öz necə deyərlər, xətlərinə uyğun olaraq olduqları ölkə haqqında analitik materiallar hazırlayır və bunun nəticəsində müəyyən proqnozlar verilir. Əsas məqam isə bu məlumatların bilərəkdən və ya düşünülmüş formada sızdırılıb-sızdırılmamasından gedir. Bütün bu proseslər təbii ki, sıravi vətəndaş üçün maraq doğurur".

**Ekspert deyir ki, əslində açıqlanan məlumatlar bir dünya gücü olaraq ABŞ-ın kəşfiyyat xidmətinin fəaliyyət taktikasından bəhs edir ki, burda da təəccüblü heç nə yoxdur:** "Əgər WikiLeaks-in son məlumatlarına nəzər salsaq görərik ki, MKİ agentlərinin dünya aeroportlarında təhlükəsizlik sistemlərinə "ilişmə"dən keçə bilməsindən bəhs edilir və bu 2011-ci ilin materiallarıdır. Məlumdur ki, dünyanın bütün ölkələrinin xüsusi xidmət orqanları başqa dövlətlərin ərazisində müəyyən kəşfiyyat və əks-kəşfiyyat tədbirləri həyata keçirir. Ancaq bunun necə keçirilməsi çox dar çərçivəyə məlum ola bilər. Bunların açıqlanması isə dövlətin maraqlarının açıqlanması deməkdir. Məhz bunun marağında olan qurumlar isə Culian Assanjın rəhbəri olduğu Wikileaks-in məlumatlarından yararlanırlar".

**A.Nağıyev deyir ki, bu tip məlumatların yayılması təcrübəsi bəzi hallarda bu məlumatların bilərəkdən yayıldığını göstərir. Bu mənada ekspert bu məlumatların 4 ildən sonra dövriyyəyə buraxılmasının məqsədli ola biləcəyini düşünür:** "Söhbət ABŞ-dan gedirsə, məlumdur ki, bu gün ABŞ dünyanın demək olar ki, bütün ərazilərində, suda, quruda, havada, kosmosda, yeraltı və yerüstü sahələrində hərbi və ya kəşfiyyat fəaliyyəti ilə məşğuldur. Eyni zamanda dünyanın bir sıra qaynar nöqtələrində hərbi əməliyyatlarda iştirak edir. Bu fəaliyyəti nəticəsində müəyyən məxfi forma və metodlardan da istifadə edir, dezinformasiya və digər metodlarla işləyir. Yəqin ki, insan haqları məsələsi də mühüm rol oynayan amillərdən olduğu üçün istənilən məlumatın sızması dövlət üçün qalmaqala səbəb ola bilər. Məhz buna görə də məxfiliyin qorunması birinci şərt kimi qoyulub və buna da böyük vəsaitlər sərf edilir. Digər tərəfdən isə siyasi manevrlərlə bağlı bu məlumatların qəsdən sızdırılması da istisna edilə bilməz"...

❑ KƏNAN




## İranda facebook fəalı 20 il həbsə məhkum edilib

**İranda gənc facebook fəalı Məsud Seyid Talibi 20 illik həbsə məhkum edilib. "Media forum" saytı xəbər verir ki, Tehran məhkəməsi sosial şəbəkələrdəki tənqidi yazılarına görə 2013-cü ilin oktyabr ayından zindanda saxlanan 21 yaşlı tələbə Məsud Seyid Talibini facebook-da paylaşdığı yazılarda ölkənin milli təhlükəsizliyinə qarşı çıxmaqda, sistemə qarşı təbliğat aparmaqda və ölkənin dini liderini təhqir etməkdə təqsirli bilib.**

Məsud Seyid Talibi ittihamları rədd edir.

## Göyçayda iş adamını qətlə yetirən şəxs tutulub

**Bu ilin avqust ayında Göyçay rayonunda törədilən qətl hadisəsinin üstü açılıb. APA-nın yerli bürosunun xəbərinə görə, rayonun Alpoud kənd sakini, 1958-ci il təvəllüdlü Sahib Sabir oğlu Abbasovu öldürən şəxs tutulub.**

Məlum olub ki, hadisəni həmin kənd sakini, 1956-cı il təvəllüdlü Ələsgər Xudu oğlu Xudiyev törədib. Dünən o, yaşadığı evdə tutularaq Göyçay rayon Polis Şöbəsinə gətirilib. O, hadisəni törətdiyini etiraf edib. Ələsgər Xudiyev sahibkarlıq fəaliyyəti ilə məşğul olan mərhum Sahib Abbasovun Alpoud kəndindəki çörək sexində həyat yoldaşı ilə birgə işlədiyini və hadisədən 4 gün əvvəl işdən çıxarıldıqlarını bildirib. Ə.Xudiyev əmək haqqını almaq üçün çörək sexinə getdiyini və müdiri Sahib Abbasovun onu təhqir etdiyini bildirib. O, avqustun 14-də axşam saatlarında ov tüfəngi ilə Sahib Abbasovu öldürdüyünü bildirib.

Qeyd edək ki, sahibkarın meyiti Alpoud kəndində yolun kənarındakı elektrik transformatorunun yanından tapılıb. Əvvəlcə onun elektrik cərəyanı vurması səbəbindən ölməsi güman edilib. Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları baxış keçirib və meyit Respublika Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Göyçay rayon şöbəsində müayinə edilib. Ekspertizanın rəyinə əsasən 4 uşaq atası olan Sahib Abbasovun odlu silahdan açılan atəş nəticəsində güllə yarası aldığı və bu səbəbdən dünyasını dəyişdiyi müəyyən olunub.

Faktla bağlı Göyçay Rayon Prokurorluğu tərəfindən cinayət işi açılıb, araşdırma aparılır.

## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

## Adı kütləvi davada hallanan şəxs 16 gündən sonra öldürüldü

**Bir neçə gün əvvəl adı kütləvi davada hallanan şəxs bıçaqlanaraq öldürülüb. Binəqədi Rayon Polis İdarəsindən "Trend"ə verilən məlumata görə, dekabrın 19-u saat 22 radələrində 1981-ci il təvəllüdlü Ağayev Nurlan Vaqif oğlu kəsilmiş-deşilmiş xəsarətlərlə Əjdər Məlikov adına 6 saylı Birləşmiş Şəhər Xəstəxanasına yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq, o aldığı xəsarətlərdən xəstəxanada ölüb.**

Hadisəni törətməkdə şübhəli bilinən 1959-cu il təvəllüdlü Yusifov Bərxudar Çərkəz oğlu saxlanılıb.

Faktla bağlı Cinayət Məcəlləsinin 120.1-ci (Qəsdən adam öldürmə, yəni digər şəxsi qəsdən həyatdan məhrum etmə) maddəsi ilə cinayət işi açılıb, araşdırma aparılır.

Qeyd edək ki, Ağayev Nurlan Vaqif oğlu üç dostu ilə birlikdə dekabrın 3-də saat 20 radələrində sərxoş halda Bakının Binəqədi rayonundakı "909 gecə" adlı kafedə kütləvi davanın iştirakçısı olub.

Onlar kafenin inzibatçısı - 1980-ci il təvəllüdlü Rüstəmov Səməndər Nihat oğlunu, musiqiçiləri və gözdən əlil sintezator ifaçısını döyüb, sintezatoru isə sındırıblar.

## Daha iki nəfər qazdan boğuldu

**Bakıda ölümlə nəticələnən bədbəxt hadisə baş verib. Lent.az-ın məlumatına görə, Suraxanı rayonu Bülbülə qəsəbəsində kirayədə yaşayan 1976-cı il təvəllüdlü Hacızadə İlham Sabir oğlu dəm qazından boğulub. O, yaşadığı evin həyətindəki hamamda qazdan zəhərlənib və hadisə yerindəcə keçinib.**

Oxşar hadisə Qaradağ rayonunda da qeydə alınıb. Dekabrın 22-nə keçən gecə Lökbatan qəsəbə, 1-ci yaşayış massivində yaşayan 1990-cı il təvəllüdlü Həsənov Amil Qazıbek oğlu hamam otağında dəm qazından boğulub. 24 yaşlı oğlanın meyiti yaxınları tərəfindən aşkarlanıb və hüquq-mühafizə orqanlarına məlumat verilib.

Hər iki faktla bağlı araşdırmalar aparılır.

## Bakıda Əsədovlar ailəsinə hücum

**Dekabrın 21-də saat 01:00 radələrində Bakının Sabunçu rayonunda bir ailənin üzvləri döyülüblər. Vesti.az xəbər verir ki, Sabunçu Rayon Polis İdarəsinin məlumatına görə, Elvin və Səbuhi adlı şəxslər Sabunçu qəsəbə sakini Zakir Əsədov (1956-cı il təvəllüdlü), onun həyat yoldaşı Zəminə (1961-ci il), oğlu Zaur (1982-ci il) və qızı Tünzaləni (1985-ci il) döyüblər.**

Məlumata görə, Elvin və Səbuhi içkili olublar.

Saat 01:00 radələrində onlar Əsədovun evinə gələrək, qalmaqal yaradıblar və bu zaman onun həyat yoldaşı ilə qızını döyüblər.

Hazırda istintaq cinayətin motivini araşdırır.

## Bakıda qadına ağır cəza

**Bakı Ağır Cinayətlər Məhkəməsində narkotikin maddələrin qanunsuz dövriyyəsində təqsirli bilinən Bakı şəhər sakini, 1970-ci il təvəllüdlü Rəna Abdullevanın cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Lent.az-ın məlumatına görə, hakim Rahib Salmanovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub. Hakimlər kollegiyasının qərarı ilə R. Abdullayeva 8 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.**

Qeyd edək ki, Nəsimi rayonunun polis əməkdaşları şəhər sakini, 1970-ci il təvəllüdlü Rəna Abdullayevanı şübhəli şəxs kimi saxlayıblar. Onun üzərində və evində aparılan axtarış zamanı külli miqdarda narkotik maddə aşkarlanaraq götürülüb. Faktla bağlı Cinayət Məcəlləsinin 234-cü maddəsi ( qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını hazırlama, istehsal etmə, əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma) ilə cinayət işi açılıb.




## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

Azercell

## «Azercell»in dəstəklədiyi «MilliNet» müsabiqəsinin qalibləri bəlli oldu




**"Azercell Telekom" MMC-nin artıq 6 ildir ki, baş sponsoru olduğu Azərbaycanın ilk və yeganə peşəkar internet mükafatı olan MilliNet-in qalibləri bəlli oldu. Mükafatın qaliblərinin təqdimat mərasimi dekabrın 19-da keçirildi. Mərasimdə bəlli oldu ki, bu il mükafata 322 sayt təqdim edilib, lakin onların sırasından qaydalara uyğun olan 272 sayt səsverməyə çıxarılıb. Səsvermənin 1-ci mərhələsinin yekununda 14 nominasiya üzrə 272 sayt arasından ən yaxşılar olan 78 sayt nominant statusu alıb. Azərbaycan İnternet Forumunun 3 istiqamət üzrə formalaşdırdığı münsiflər heyəti 2-ci səsvermə prosesində 78 nominant arasından ən yaxşılarını seçib.**

**Təqdimat mərasimində «Azercell» şirkətinin Korporativ Ünsiyyət Bölümünün rəhbəri Nigar Şıxlinskaya çıxış edərək «MilliNet» müsabiqəsinin ölkədə internetin və bütövlükdə İKT sahəsinin inkişafında mühüm rol oynadığını qeyd edib. O, gələcəkdə də internetin inkişafı istiqamətində atılan addımlara dəstək verəcəklərini bildirib.Sonra qaliblərə Mükafatların təqdim edilməsinə start verilib. Mükafatların təqdim edilməsində internet ictimaiyyətinin, İKT sahəsində fəaliyyət göstərən dövlət və özəl sektorun , təhsil müəssisələrinin nümayəndələri, MilliNet təşkilatçıları iştirak edib.**

**Beləliklə, Korporativ saytlar nominasiyasında http://www.bakisigorta.az, İctimai-sosial- http://www.fotobank.az, Media və İnformasiya - http://interaztv.com, Mədəniyyət, incəsənət və turizm - http://raufabdullayev.com, Ailə, uşaq və sağlamlıq -http://saglamolun.az, Asudə vaxt, idman və əyləncə-http://idol.az, Elektron hökumət - http://www.cbar.az, Xidmət (Servis) - http://xercim.az, Qarabağla bağlı-http://www.qam.az saytları qalib olublar.**

**Nominasiyanın hər biri üzrə qalib gələnlərə Milli Net-in tuncdan hazırlanmış xüsusi mükafatı - hörümçək toru əks olunan buta təqdim olunub.**

**Məlumat üçün bildirək ki, Azərbaycan internetinin inkişafına təkan vermək, ən yaxşı milli internet resurslarının yaradılmasını stimullaşdırmaq, onları üzə çıxartmaq və populyarlaşdırmaq məqsədilə keçirilən müsabiqəyə cari ilin sentyabr ayında start verilib.**

**Qeyd edək ki, «Azercell» Azərbaycanda yaradıcılığın, peşəkar fəaliyyətin və informasiya mübadiləsinin yeni bir sahəsi olan internet sektorunun inkişafına xidmət edən layihələri daim dəstəkləyir. «Azercell» Azərbaycan dilinin internetdə tətbiqinin genişləndirilməsinə yardım edən, milli internet resurslarının yaradılmasını stimullaşdıran belə təşəbbüslərin tərəfdarı kimi çıxış edib.**

**Ölkənin lider mobil rabitə operatoru «Azercell» Telekom öz öhdəliyinə sadiq qalaraq bundan sonra da bu cür layihələrə öz dəstəyini göstərməkdə davam edəcək.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ailto:news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell» Telekom MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell Ekspres» ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. Hal-hazırda «Azercell» abunəçilərinin sayı 4,6 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell» 3G, 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır.**

# Avtomobillər ucuzlaşır...

**Dünya bazarında gedən iqtisadi proseslər, neftin bahalaşması, rus rublunun dəyərdən düşməsi artıq Azərbaycan iqtisadiyyatına da təsir göstərir. Ölkədə müxtəlif sahələrdə, xüsusən də biznes sahələrində, daşınmaz əmlak bazarında, iri ticarət mərkəzlərində durğunluq müşahidə olunur, əhalinin alıcılıq qabiliyyəti zəifləyib. Ekspertlər bu durumun səbəbini Rusiyada yaşayan soydaşlarımızın gəlirlərinin azalması və Azərbaycana, ailələrinə göndərdikləri vəsaitlərin azalmasında görürlər.**

## Bakının maşın bazarlarında durğunluq hökm sürür






Bəs görəsən, bu iqtisadi proseslər avtomobil bazarına necə təsir edib? Avtomobil ticarəti ilə məşğul olanlar, şəxsi avtomobillərini satmaq və maşın almaq istəyənlər üçün bazarda vəziyyət necədir?

Bu suallara cavab tapmaq üçün "Yeni Müsavat"ın əməkdaşı Bakıda həftəsonu təşkil olunan maşın bazarına üz tutub.

Avtomobil bazarında son durumu öyrənmək üçün Yasamal rayonunda yerləşən Bakı Avtomobil Satışı Mərkəzinə yollandıq. Yalnız həftənin bazar günü təşkil olunan avtomobil bazarında durğunluq hökm sürür. İlk baxışdan alıcıdan çox satıcı gözə dəyir. Burada istədiyiniz markadan, istədiyiniz rəngə və görünüşə malik avtomobil tapa bilərsiniz. Ucsuz-bucaqsız maşın bazarında köhnə Rusiya buraxılışı olan maşınlar və yeni, xarici markalı avtomobillər gözə dəyir. Satıcılar maşınlarında əyləşib müştəri yolu gözləyirlər.

### Bazarda satıcı çox, alıcı yox

**Bazarın girişində bir neçə satıcı ilə həmsöhbət olduq. Avtomobilini artıq ikinci həftədir satışa çıxaran Musa Eminov deyir ki, bazara alıcı gəlmir:** "Avtomobilimi çox sərfəli qiymətə satıram. 2010-cu ilin "Volkswagen" markalı avtomobili 8900 manata verirəm. Real alıcı olsa aşağı da verərəm, təki sata bilim".

Bazarda bir neçə avtomobilin qiyməti ilə maraqlandıq. 2011- ci il, Rusiya istehsalı olan VAZ 21 07 markalı maşını 6700 dollara satılır.

"Saipa" markalı İran maşını ilkin ödəniş 1250 manat olmaqla, 36 ay 250 manatdan kreditə verilir.

"Daewo" markalı avtomobili ilkin ödənişi 2300 manat, ay ayda 363 manat olmaqla 53 ay müddətinə kreditlə almaq mümkündür.

2013-cü il Rusiya istehsalı olan "Niva"ları ilkin ödənişi 5000 azn, aylıq 350 manatdan 20 ay müddətinə kreditlə ala bilərsiniz.

Avtomobillərin qiymətində nəzərəçarpacaq dərəcədə ucuzlaşma olmasa da, satıcılar deyir ki, real alıcı olduğu zaman istənilən qədər endirim edirlər ki, avtomobili sata bilsinlər.

**Satıcılar bildirir ki, bazara hər maşın üçün 10 manat yer haqqı ödəyirlər. Maşın alveri ilə məşğul olan Əsgər Cavadovun sözlərinə görə, bazara üç avtomobil çıxarıb, ancaq alıcı tapılmır:** "Belə çətin vəziyyətdə bizə güzəşt olunmur. Sata bilməsəm də hər dəfə 30 manat yer haqqı verməliyəm, hər maşın üçün 10 manat. Elə vaxt olur ki, beş həftə sata bilmirəm. Maşının xərci borcunu ödəmir".

### Rusiyadan gələn maşınlar

**Rusiyada baş verən iqtisadi böhran, rublun dəyərdən düşməsi bazara da təsir göstərib. "Niva" markalı rus maşını satan Yavər Cumayev deyir ki, Rusiyadan gələn maşınlar bazarda ucuzlaşmaya səbəb ola bilər:** "Ancaq bunun nə zaman baş verəcəyi bəlli deyil. Qiymətlər olduğu kimi qalır, biz oradan ucuz ala bilmirik. Qiymət həmişəki kimi qalır".



**Maşın bazarında durğunluq yaranmasının bir səbəbi də avtomobil saytlarının bazara müdaxiləsidir. Satıcılar deyir ki, biz burada soyuqda gözləyib müştəri gözləyirik, onlar gəlib 4-5 şəkil çəkib internetə qoyurlar, daha çox satırlar:** "Bu dəqiqə maşın bazarına gələn yoxdur. Hamı avtomobil saytlarına girib maşın axtarır. O saytlardan fotoqraflar gəlib burada fotoları çəkirlər, sonra sayta qoyub satırlar. Həm daha ucuz, həm də daha əziyyətsiz başa gəlir".

Biz bazarda müşahidə apardığımız zaman bir neçə saytın fotoqrafının çəkiliş apardığının şahidi olduq. Elçin adlı gənc fotoqraf deyir ki, bir maşının çəkiliş və elan qiyməti 5-7 manat arasında olur.

### "Gömrük rüsumu avtomobildən baha başa gəlir"

Satıcılar deyir ki, Azərbaycanda avtomobilin gömrük rüsumu həddindən artıq yüksək olduğundan xaricdə maşın ucuzlaşsa belə, bizə baha gəlib çıxır.

**Satıcı Əsgər Cavadov da təsdiqlədi ki, gömrük rüsumu avtomobilin qiymətindən daha yüksəkdir:** "2006-cı ilin "Opel" markalı avtomobilini Gürcüstanda 1500 dollara alırıq, 3000 manat gömrük haqqı verib ölkəyə gətiririk.

2008-2009-cu il istehsalı olan "Mercedes Panorama" markalı avtomobili 11 min dollara alırıq, gömrük haqqı yüksək olduğu üçün 26 minə satırıq".

Bütün bu səbəblər maşın bazarında qiymətlərə təsir edir. Ancaq alıcılıq olmadığından qiymətin necə olması satıcılar üçün önəm kəsb etmir. Söhbət zamanı satıcıların növbəti il üçün də ümidsiz olduğunu gördük. Əhalidə nağd pul olmadığından maşın almaq istəyəndən çox satmaq istəyən var. Bu durum avtomobil alverçiləri üçün əlverişsiz olsa da, maşın almaq istəyənlər üçün yaxşı fürsətdir. Əgər belə bir fikriniz varsa, gələn həftənin bazar günü yolunuzu maşın bazarından salın.

❑ **Məğrur SALMANOV**
**Fotolar müəllifindir**

# Mağazalarda saxta düyülər satılır?

**Vahid Məhərrəmov:** "Saxta düyü əldə etmək üçün digər dənli bitkilərin dəni üyüdülür və düyü formasına salınır"

**Eyyub Hüseynov:** "Sarı və qızılı düyülərin GMO məhsulu olması birmənalı şəkildə təsdiqlənmiş məsələdir"





**Marketlərdə saxta düyülərin satılması ilə bağlı xəbərlər yayılıb. Məlum olub ki, belə düyülərin əksəriyyəti təbii yolla yetişdirilmir. Biz də bazarımıza bu məhsulların hansı ölkələrdən gətirildiyini və qiymətini öyrənmək üçün bir neçə marketə baş çəkdik.**

Araşdırmamız zamanı bəlli oldu ki, satışda yerli düyülərlə yanaşı, Pakistanda, Hindistanda, Rusiyada və İranda istehsal olunan düyülər satılır. Qiymətlərə gəlincə isə "Tamaşa" düyüsünün 1900 qramlığı 4 manat 39 qəpik, "King risa" 3 manat 59 qəpik, "Muhabbet" düyüsü 4 manat 10 qəpik, "Mümtaz" 4 manat 63 qəpik, "Şahənşah" düyüsü 4 manat 12 qəpiyə idi.

Satıcı Afaq Əliyevanın sözlərinə görə, əhali daha çox yerli düyülərə üstünlük verir. Ancaq Hindistandan gətirilmə düyülərin də alıcılarının az olmadığını deyən satıcı düyülərin saxta olmağı ilə bağlı söhbətləri eşitməyini bildirdi: **"Ən çox Hindistan düyüsü alınır. Mağazamızda ən bahalı düyü də elə Hindistanındır. Ən ucuz düyü isə yerli düyülərdir".**

Alıcılar isə düyülərin qiymətində cüzi də olsa artım olmasından gileylənirdilər. Alıcı Şəlalə xanım deyir ki, o həmişə "Tamaşa" düyüsündən istifadə edir, dadından da razıdı: **"Adətən yerli düyülər alıram. Bayram qabağı qiymətləri artıracaqlar deyə indidən lazımi ərzaqları alıram".**

Alıcı Şəfa Baxşəliyeva isə Hindistan düyülərinin daha dadlı olduğunu söylədi: **"Mən həmişə plovları Hindistan düyüləri ilə bişirirəm. Yerli düyülərdən də istifadə edirəm".**

***

**Kənd təsərrüfatı mütəxəssisi Vahid Məhərrəmov isə qəzetimizə açıqlamasında saxta düyülərin necə əldə edildiyi haqda danışdı:** "Saxta düyü əldə etmək üçün digər dənli bitkilərin (qarğıdalı) dəni üyüdülür və sonradan ekstruderlə düyü formasına salınır. Bu yolla əldə edilən düyü orqanizm üçün ziyanlı deyil. Sadəcə olaraq, bəzi orqanizmlər üçün allergik ola bilər".

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bəzi düyülərin Genetik Modifikasiya Olunmuş (GMO) düyülər olduğunun təsdiq edilmiş bir məsələ olduğunu söylədi:** "Sarı və qızılı düyülərin Genetik Modifikasiya Olunması birmənalı şəkildə təsdiq edilmiş bir məsələdir. Xüsusən də Pakistandan gətirilən qızılı düyülər GMO məhsuludur. Bu düyülər insan həyatı üçün təhlükəlidir və gələcəyi məlum olmayan nəticələrə gətirib çıxara bilər. Qanunda var ki, bu tip düyülər ölkəmizə buraxılmamalıdır. Dövlət orqanları bu istiqamətdə iş aparmalıdır. İstehlakçı hüquqlarını qoruyan qanunlar kompleksi, bunu yerinə yetirən dövlət orqanlarının fəaliyyəti həddindən artıq zəifdir. Ona görə də ölkə bazarlarında bu cür təhlükəli mallar çoxdur".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Qızıl daha da ucuzlaşacaq

**Ekspert:** "Dünya bazarında dollar bahalaşanda qızıl ucuzlaşır"

**Dünya bazarında bir qayda olaraq dolların dəyərinin artması qızılın ucuzlaşmasına səbəb olur. Hazırda neftin ucuzlaşması səbəbindən iqtisadi çətinliklərlə üzləşən ölkələr qızıl ehtiyatlarını valyutaya çevirmək istədiyindən qızıl dəyərdən düşür. Ekspertlər qızılın ucuzlaşmasının növbəti ildə də davam edəcəyini bildirirlər.**

"Yeni Müsavat"a açıqlama verən iqtisadçı **ekspert Samir Əliyev** deyib ki, qızılın bir unsiyası 850 dollara qədər ucuzlaşa bilər: "Qızıl tarix boyu ən etibarlı aktiv olub. Sonuncu qlobal iqtisadi böhran zamanı hər kəs qızıl ehtiyatını artırmağa çalışırdı. Çünki neft ucuzlaşırdı, dollar sabit deyildi, bu zaman daha çox qızıl almağa çalışırdılar. Qızılın qiyməti bu zaman kəskin sürətdə artdı, 1900 dollara qədər qalxdı. 2013-cü ildən başlayaraq qızılın qiyməti düşməyə başlayıb. 2014-cü ilin əvvəllərində nisbətən qiymət artımı olsa da, mart ayından sonra yenidən ucuzlaşdı".

**Ekspert deyir ki, qızılın ucuzlaşmasının səbəbi hazırda dolların bahalaşması ilə bağlıdır:** "Dünya bazarında bir qayda olaraq, dollar bahalaşanda qızıl ucuzlaşır. Noyabr ayında qızıl bir qədər ucuz idi. Hazırda qızılın bir unsiyasının qiyməti 1196 dollar təşkil edir. İndi yenidən ucuzlaşma gedir. Hətta növbəti ilin əvvəllərində qızılın bir unsiyasının 850 dollara qədər ucuzlaşacağı gözlənilir. Çünki bir çox ölkələr valyuta qıtlığı ilə üzləşirlər və ehtiyatlarında olan qızılı satışa çıxarırlar. Rusiya artıq bu varianta əl atıb, bu haqda məlumatlar yayılmaqdadır".

**Samir Əliyevin fikrincə, dünya bazarında qızılın ucuzlaşması Azərbaycana da təsir edəcək:** "Çünki Azərbaycanda qızıl çox az miqdarda istehsal olunur və onu da Mərkəzi Bank alıb öz ehtiyatlarına daxil edir. Zinət məqsədilə istifadə üçün qızıl Azərbaycanda istehsal olunmur, xarici ölkələrdən idxal olunur. Bu səbəbdən xaricdə qızıl ucuzlaşdığı üçün Azərbaycanda da ucuzlaşmalıdır. Ancaq bu tipli proseslərdə Azərbaycanda ucuzlaşma ya müşahidə edilmir, ya da cüzi olur. Ancaq bahalaşma daha tez öz əksini tapır. Azərbaycanda qiymət artımı gözlənilmir. Əksinə, az da olsa ucuzlaşma ola bilər".

❑ **Nərgiz LİFTİYEVA**

# YENİ MÜSAVAT

## Son səhifə

N 312 (6021) 23 dekabr 2014




## Dünyanın ən uzun saçlı qadını

**Sen Yinyuan dünyanın ən uzunsaçlı qadınıdır. 44 yaşlı Sen artıq 11 ildir ki, saçlarına qayçı vurmur.**

İndi onun saçlarının uzunluğu 2 metrə çatıb. Sen hər il saçlarının 50 qramını itirir və bu səbəbdən də tökülən saçlarını yığır, saxlayır. Amma belə uzun saç saxlamaq asan deyil. Senin dediyinə görə, başını yumağa 1 saatdan artıq vaxt sərf edir. Saçlarının quruması isə ən azı gün yarım çəkir.

"Onları çox sevirəm. Saçlarım mənə ağırlıq etmir. Əgər saçlarım ağarmağa başlarsa, onları dərhal rəngləyəcəyəm", - Sen söyləyir.

Çinin Quansi vilayətindəki Qiçjuan şəhərində yaşayan Senin sözlərinə görə, yerli gözəllik salonlarından biri ona saçları üçün 2500 dollar təklif etsə də, rədd cavabı verib.

Boyu vur-tut 1 metr 53 sm olan Sen saçlarının sirrini də açıb: "Onları vannada və ya duşda yuya bilmədiyimdən ayaq üstə durur, su dolu vedrədən yararlanıram. Saçlarımı pivə ilə yuyuram ki, qurumasınlar, qırılmasınlar".

Çindəki "Haunlu Yao" qəbiləsindən olan qadınların da çox uzun saçları olur.

Huanlu Yao kəndində yaşayan qadınların saçlarının orta statistik uzunluğu 1,6-1,8 metr olur. Yaolar hesab edirlər ki, 16 yaşlı qızın saçları nə qədər uzun olarsa, onun varlı, gözəl və ağıllı kişiyə ərə getmək şansı bir o qədər çoxdur.

## Meymunun da "insan haqları" varmış

**Argentinanın paytaxtı Buenos-Ayresin məhkəməsi şəhər zooparkında (Buenos Aires Zoo) saxlanan dişi oranqutanın "azadlıqdan qanunsuz məhrum olunduğu" barədə qərar çıxarıb. Məhkəmənin hökmünə görə, meymun dərhal azadlığa buraxılmalıdır.**



Milli.az BBC News-a istinadən bildirir ki, proses heyvan hüquqlarının müdafiəsi ilə məşğul olan AFADA təşkilatının iddiası əsasında aparılıb. Təşkilatın fikrincə, "Sandra" adlı meymun insanlar kimi hüquqlara malikdir: "Oranqutanq şəxsiyyətin formalaşması üçün yetərincə koqnitiv imkanlara və bacarıqlara malikdir".

Məhkəmə AFADA-nın iddiası ilə razılaşıb və etiraf edib ki, 20 il əvvəl Berlin zooparkından alınaraq Buenos-Ayres zooparkında saxlanmağa başlanan Sandra azadlıqdan qanunsuz olaraq məhrum edilib.

Məhkəmənin qərarı apelyasiya qaydasında ləğv olunmazsa, Sandra Braziliyadakı qoruqlardan birinə göndəriləcək.

Sumatra oranqutannı Sandra 1986-cı ildə Berlin zooparkında anadan olub.

## Avropada son 500 ildə belə isti olmamışdı

**Avropa hazırda qlobal istiliyə görə əziyyət çəkir. Çünki 2014-cü ildə Avropa son 500 ilin ən isti havalarına şahidlik edib. "Financial Times" qəzeti Hollandiya Krallığı Meteorologiya İnstitutuna istinadən yazıb ki, qlobal isinmə probleminə görə Avropa 1500-cü ildən bu yana Avropanın ən isti ili 2014-cü il olub. "Radikal"ın xəbərinə görə, mütəxəssislər hesab edir ki, Avropa qitəsindəki 19 ölkə bu il tarixlərinin ən isti ilini keçirib. Hollandiya Krallığı Meteorologiya İnstitutuna görə, bu il istilik ortalaması 10.5 santiqrat dərəcə olaraq hesablanıb. 2007-ci ildə Avropada ortalama istilik 10.2 dərəcə olub.**





## Çində qəribə oğurluq

**Çinin cənub şərqində yerləşən Yuylin şəhərində maraqlı bir oğurluq hadisəsi aşkarlanıb. Məlum olub ki, şəhər sakinlərindən biri düz 10 ildir ki, qonşularının alt paltarını oğurlayırmış. Bu oğurluq hadisəsinin üzə çıxmasına isə onun evindəki tavanın dağılması səbəb olub. Tan adlı oğrunun qonşuları onun evində düz 2 min ədəd alt paltarı predmeti tapıblar. Ümumilikdə isə oğru 750 mənzildən oğurluq edib. Bu zaman ev sahibləri işdə olublar. Polis isə onun 10 il boyunca oğurladığı alt paltarlarını yaşadığı evin həyətinə düzüb. Tanu 30-40 yaşları arasında kişidir. Qonşularının evinə isə bütün qıfılları açan universal açar vasitəsilə yol tapa bilib. Bu açarı necə tapdığı isə hələ də məlum deyil. Tan özü isə bu oğurluğunu psixoloji xəstəlik kimi izah edib. Bildirib ki, onda uşaq vaxtından bu xəstəlik var.**




**QOÇ** - Ümumi çalarlarına görə gərgin vaxt olsa da, özünüzü ələ almağı bacarmalısınız. Çünki qarşınızda duran perspektivlərə yetişmək üçün hansısa dedi-qoduya əhəmiyyət verməməlisiniz.

**BUĞA** - Qarşınızda duran bu təqvimdə hansısa qeyri-adi və yeni işlərə başlamayın. Yaxşısı budur ki, əsas vaxtınızı mənzil şəraitində keçirəsiniz. Yalnız axşam saatlarında qonaq getmək olar.

**ƏKİZLƏR** - Nədənsə son vaxtlar sağlıq durumunuzla bağlı problemlər baş qaldırmaqdadır. Bu səbəbdən də özünüzə fikir verməli, qida rejiminə riayət etməlisiniz. Soyuq və spirtli içkilərdən uzaq olun.

**XƏRÇƏNG** - Demək olar ki, həftənin ən uğurlu gününü yaşayacaqsınız. Bir tərəfdən ailə-sevgi münasibətlərində, digər tərəfdənsə işgüzar sövdələşmələrdə vəziyyət xeyrinizə cərəyan edəcək.

**ŞİR** - Kifayət qədər uğurlu məqamlar yaşayacaqsınız. İştirakçısı olduğunuz hər bir proses yalnız zövqünüzlə uyğunluq təşkil edəcək. Özünüzə inamı artırmaqla uğurları yaxınlaşdırın.

**QIZ** - Günün ilk yarısını gərgin keçirsəniz də, özünüzü təmkinli aparmaqla gözlənilən xoşagəlməzliyi dəf edə biləcəksiniz. Sonrakı saatlarda sevindirici hadisələrin şahidi olacaqsınız.

**TƏRƏZİ** - Həddindən ziyadə uğurlu vaxtdır. Əlalxüsus da axşam saatlarında bəxtiniz gətirə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq da səngiyəcək. Amma bu gün təkliflərdən imtina etməlisiniz.

**ƏQRƏB** - Əsas enerjinizi sevgi amilinə yönəldin. Çalışın ki, hər bir kəlmənizdə, hər bir ifadənizdə özünüzə qarşı rəğbət oyadasınız. İndiki sərt cəmiyyətdə kiminsə qəlbinə dəymək savab iş deyil.

**OXATAN** - Astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Maraqlı insanlarla rastlaşma ehtimalınız da böyükdür. Bununla yanaşı, bu gün uzaq yola çıxmağa dəyməz.

**OĞLAQ** - Bürcünüzün ən uğurlu günlərindən birini yaşayacaqsınız. Düzdür, bu gün saat 12-yə qədər müəyyən gərginlik olsa da, sonrakı müddətdə ovqatınız çox yüksək olacaq. Sürpriz də gözlənilir.

**SUTÖKƏN** - Ulduzlar pulla bağlı məsələlərdə ehtiyatlı olmağı tövsiyə edir. Bir qədər qənaətcil olmağınız vacibdir. Kiməsə borc vermək və ya maliyyə sövdələşmələrinə girişmək yolverilməzdir.

**BALIQLAR** - Fəaliyyət dairənizi genişləndirmək üçün durmadan işə başlayın. Nəzərə alın ki, bu addım karyeranız üçün böyük əhəmiyyət daşıya bilər. Pul məsələlərində isə ehtiyatlı olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 3 gün quyuda yaşadı



Çində yaşlı bir kişi düz üç gün boyunca qurumuş bir quyuda qalıb. Lenta.ru saytı xəbər verir ki, 60 yaşlı kişinin qohumları onu sonuncu dəfə 17 dekabrda görüblər. Kişi həmin vaxt evindən mopedlə çıxıb. Şənbə günü isə şəhər sakinlərindən biri quyuya yaxın bir yerdə yaşlı kişiyə aid, şəxsiyyəti təsdiq edən sənədləri və nəqliyyat vasitəsini tapıb. Ardınca isə bu barədə onun ailəsinə xəbər verib. Daha sonra axtarış əməliyyatı başlanıb. Nəticədə 60 yaşlı kişi qurumuş bir quyudan tapılıb. Məlum olub ki, o, düz üç gün boyunca diametri 1 metr, dərinliyi 5 metr olan quyuda qalıbmış. Kişini xilas etmək üçün ekskavator lazım gəlib. Saat yarımlıq əməliyyatdan sonra kişi xilas edilib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300